RƏSMİ DÖVLƏT QƏZETİ

AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 276 (8592) ÇƏRŞƏNBƏ, 30 dekabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

Dünya azərbaycanlılarına

İlham ƏLİYEV: "Doğma Azərbaycanımızın daha da güclənməsi və çiçəklənməsi naminə fəaliyyətinizdə hər birinizə uğurlar arzulayıram"

Əziz həmvətənlər!
Hörmətli soydaşlar!

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə sizi ürəkdən təbrik edir, hər birinizə səmimi arzu və diləklərimi çatdırıram.

2020-ci ili bütün dünyada koronavirus pandemiyası ilə gərgin mübarizə şəraitində başa vururuq. Yaranmış vəziyyətdən minimum itkilərlə çıxmaq üçün Azərbaycan hökuməti ilk günlərdən ardıcıl tədbirlər həyata keçirmişdir. Bu addımlar, habelə Azərbaycanın köməyə ehtiyacı olan dövlətlərə humanitar yardımları Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən yüksək qiymətləndirilmişdir.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın təşəbbüsü ilə hər iki təsisatın COVID-19-a qarşı mübarizəyə həsr olunmuş videoformatda Zirvə görüşü baş tutmuşdur.

Cari ilin dekabr ayında Qoşulmama Hərəkatının sədri qismində Azərbaycanın təşəbbüsü əsasında və 150-dən artıq dövlətin dəstəklədiyi BMT Baş Assambleyasının koronavirusa qarşı dövlət və hökumət başçıları səviyyəsində Xüsusi Sessiyası keçirilmişdir. Bu, Azərbaycanın qlobal proseslərdə fəal iştirakının, ölkəmizə olan hörmətin, beynəlxalq dəstəyin əyani göstəricisidir.

Ermənistanın danışıqlar prosesini sarsıdan təhrikçi açıqlamaları və əməlləri, iyul ayında dövlət sərhədinin Tovuz istiqamətində törətdiyi hərbi təxribat, qoşunlarını təmas xəttinə cəmləşdirməsi, terror əməllərini törətmək üçün diversiya qruplarını göndərməsi onun növbəti çirkin niyyətlərindən xəbər verirdi. Bu ilin sentyabr ayında BMT Baş Assambleyasının 75-ci sessiyası zamanı beynəlxalq ictimaiyyət Ermənistanın yeni müharibəyə hazırlaşması barədə xəbərdar edilmişdir.

Sentyabrın 27-də Ermənistanın ölkəmizə qarşı törətdiyi hərbi təcavüzə cavab olaraq Azərbaycan xalqı Vətən müharibəsinə qalxmışdır. Müzəffər Azərbaycan Ordusu hər anı qəhrəmanlıqlarla dolu 44 gün ərzində düşməni ağır məğlubiyyətə uğratmış və ölkəmizin ərazi bütövlüyünü bərpa etmişdir. Milli dövlətçilik tariximizdə və xalqımızın yaddaşında əbədi yaşayacaq şanlı Zəfər xalq-iqtidar birliyi, ordumuzun yüksək peşəkarlığı və gərgin siyasi-diplomatik fəaliyyət sayəsində əldə edilmişdir.

Ordumuzun ərazi-relyef baxımından son dərəcə mürəkkəb şəraitdə və qısa müddətdə həyata keçirdiyi "Dəmir yumruq" əməliyyatı dünya hərb tarixinə düşərək aparıcı hərbi mərkəzlər və mütəxəssislər tərəfindən öyrənilir.

Dekabrın 10-da Bakının Azadlıq meydanında keçirilmiş möhtəşəm Zəfər paradı Azərbaycan dövlətinin siyasi, iqtisadi və hərbi qüdrətini, xalqımızın iradəsini, ordumuzun qələbə əzmini, əsgər və zabitlərimizin sarsılmaz döyüş ruhunu nümayiş etdirmişdir.

Xalqımıza milli qürur və şərəf hissini, qələbə sevincini yaşadan, üçrəngli bayrağımızı işğaldan azad olunmuş torpaqlarımızda, Qarabağın tacı olan müqəddəs Şuşada dalğalandıran müzəffər ordumuzun bütün şəxsi heyətinə bir daha dərin minnətdarlığımı bildirirəm. Şəhidlərimizin ölməz ruhu qarşısında baş əyərək onlara Allahdan rəhmət diləyir, yaralı hərbçilərimizin tezliklə şəfa tapmasını arzulayıram.

Vətən müharibəsi zamanı Azərbaycan beynəlxalq informasiya məkanında öz sözünü deyərək ölkəmizə qarşı aparılan dezinformasiya kampaniyalarının qarşısını almış, Ermənistanın vandalizmini və mülki insanlara qarşı terror siyasətini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmışdır.

Ermənistanın işğalı və vəhşiliyi nəticəsində başdan-başa dağıdılmış doğma Qarabağımızı əminəm ki, biz ən qısa zamanda əsl cənnətə çevirəcəyik.

Müqəddəs Vətən müharibəsi zamanı xaricdə yaşayan soydaşlarımızın düşmənin və anti-Azərbaycan dairələrin məkrli təxribatlarına qarşı cəsarətli etirazları, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində fədakar xidmətləri Qələbəmizə layiqli töhfə olmuşdur.

Əziz həmvətənlər!

Doğma Azərbaycanımızın daha da güclənməsi və çiçəklənməsi naminə fəaliyyətinizdə hər birinizə uğurlar arzulayıram.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 dekabr 2020-ci il

Tariximizin parlaq zəfəri

"Azərbaycan tarixdə heç vaxt belə parlaq zəfər əldə etməmişdir, tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Bizim gücümüz birliyimizdədir. Biz birlik nümayiş etdirmişik, əzmkarlıq nümayiş etdirmişik, qəhrəmanlıq nümayiş etdirmişik və bunun nəticəsində dəmir yumruqla düşmənin başını əzib öz doğma torpaqlarımızı azad etmişik. Qarabağ Azərbaycandır! Yaşasın Azərbaycan əsgəri! Yaşasın Azərbaycan!"

Bəli, Ali Baş Komandan İlham Əliyevin dekabrın 23-də işğaldan azad edilmiş Qubadlı və Zəngilan rayonlarında olarkən bütün dünyaya bəyan etdiyi kimi, birliyimiz və əzmimizlə, qətiyyətimizlə dəmir yumruğa çevrilib düşmənin başını əzərək ata-baba yurdumuz Qarabağı azadlığa qovuşdurduq. Biz hələ tarixin heç bir dövründə bu qədər qürurlu, fəxarətli anlar yaşamamış, bu qədər fərəhlənməmiş, sevinc göz yaşları tökməmişdik...

"Qarabağ Azərbaycandır!" haqq nidası qələbəmizi təmin etdi

Azərbaycan xalqı torpaqlarının işğalı ilə son 30 ildə çox faciələr yaşamış, haqsızlıqlara uğramış, ədalətsizliyin qurbanı olmuşdu. Tarixi dədə-baba torpaqlarından qovulmuş, soyqırımlarla üzləşmiş, tükürpərdici vəhşiliklərə məruz qalmışdı. Əsir, əliyalın mülki vətəndaşlarımıza qarşı olmazın işgəncələr verən faşist xislətli erməni vandallarının iyrənc əməllərinə şahidlik etmişdi. Öz vətənində qaçqına, köçkünə çevrilmiş, illərlə ürəyində vətən həsrəti gəzdirmişdi.

Ardı 5-ci səh.

Milli Məclisin iclasında

Gələn ilin dövlət büdcəsi təsdiq olundu

Dekabrın 29-da Milli Məclisin növbəti plenar iclası keçirildi. İclasda Baş nazir Əli Əsədov və hökumət üzvləri iştirak edirdilər. Öncə 17 məsələdən ibarət gündəlik təsdiqləndi. Milli Məclisin sədri Sahibə Qafarova bildirdi ki, gündəliyin ilk 9 məsələsi dövlət büdcəsi və büdcə zərfinə daxil olan digər qanun layihələridir.

İlk olaraq "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi üçüncü oxunuşda müzakirəyə təqdim olundu. Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili dedi ki, manat ifadəsində ən böyük büdcə kimi xarakterizə olunan 2021-ci ilin dövlət büdcəsinin layihəsi Milli Məclisin komitələrində və plenar iclaslarda ətraflı və geniş müzakirə olunub. Həmin iclaslarda maliyyə və iqtisadiyyat nazirləri, Mərkəzi Bankın, Hesablama Palatasının rəhbərləri fəal iştirak ediblər. Büdcə layihəsi birinci və ikinci oxunuşlarda deputatlar tərəfindən müsbət qiymətləndirilib. Deputatlar müzakirələr zamanı müxtəlif təkliflərlə də çıxış ediblər.

Komitə sədri qeyd etdi ki, dövlət başçısı tərəfindən aparılan islahatlar və atılan qətiyyətli addımlar nəticəsində 2020-ci ildə Azərbaycan iqtisadiyyatında dayanıqlıq müşahidə olunub. 2021-ci ildə iqtisadiyyatımızın artım mərhələsinə qədəm qoyması, makroiqtisadi sabitliyin qorunub saxlanılması məqsədi ilə planlaşdırılan tədbirlər üçün ayrılan maliyyə vəsaitləri deputatlar tərəfindən müsbət qiymətləndirilib. Gələn ilin dövlət büdcəsi "Büdcə sistemi haqqında" qanunun tələblərinə uyğun hazırlanıb. Deputatlar, ekspertlər 2021-ci il dövlət büdcəsinin layihəsini qarşıda duran çağırışlara və ölkənin təhlükəsizliyinə cavab verən, əhalinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən sənəd kimi qiymətləndiriblər. İşğaldan azad olunan ərazilərin sürətlə iqtisadiyyatımıza inteqrasiyası üçün büdcədə nəzərdə tutulan imkanlar yüksək dəyərləndirilib. Hesablama Palatası da büdcə layihəsinə müsbət rəy verib.

Tahir Mirkişili bir daha nəzərə çarpdırdı ki, 2021-ci ilin dövlət büdcəsi layihəsində gəlirlər 1 milyard 303 milyon manat artırılaraq 25 milyard 427 milyon manata, büdcənin xərcləri isə 1 milyard 50 milyon manat artırılaraq 28 milyard 543 milyon manata çatdırılıb. Gələn il üçün büdcə kəsiri 3 milyard 116 milyon manat, inflyasiya 3 faiz, ÜDM-in artımı 3,4 faiz, neftin 1 barelinin qiyməti 40 dollar məbləğində nəzərdə tutulub. Ölkənin müdafiə potensialının gücləndirilməsi və Silahlı Qüvvələrin maddi-texniki təminatının daha da yaxşılaşdırılması məqsədi ilə ayrılan xərclər 500 milyon manat, sosialyönümlü xərclər isə 563 milyon manat artırılıb.

Diqqətə çatdırıldı ki, deputatların təklifləri əsasən ölkə iqtisadiyyatının müxtəlif istiqamətlərinin və qeyri-neft sektorunun inkişafına, regionlarda sahibkarlığın inkişafı hesabına gələcəkdə dövlət büdcəsinin qeyri-neft gəlirlərinin artmasına yönəlib. Eyni zamanda dövlət büdcəsi xərclərinin daha səmərəli istifadə olunması, şəffaflığın artırılması, kölgə iqtisadiyyatına qarşı mübarizənin daha da gücləndirilməsi zəruriliyi qeyd edilib.

Ardı 3-cü səh.

Dövlət vətəndaşlarının sosial müdafiəsini daim diqqətdə saxlayır

Ölkəmizdə aparılan islahatların iqtisadi inkişafla yanaşı, əhalinin sosial müdafiəsinə yönəldilməsi də davam edir. Dövlətin sosial sahəyə diqqəti sayəsində vaxtaşırı pensiya, təqaüd, müavinət və əməkhaqları artırılır, şəhid ailələrinin, müharibə əlillərinin, qaçqın və məcburi köçkünlərin sosial müdafiəsini təmin etmək üçün mütəmadi tədbirlər görülür.

COVID-19-un dünyanın hər yerində hökm sürdüyü bu dövrdə də Azərbaycan dövləti öz vətəndaşının yanındadır. Erməni faşizminə qalib gələn ölkəmiz koronavirus adlanan düşmənlə də ciddi mübarizədədir. Həyata keçirilən tədbirlərdən biri Nazirlər Kabinetinin respublika ərazisində koronavirus pandemiyası dövründə xüsusi karantin rejiminin tətbiq olunması ilə əlaqədar 190 manat məbləğində birdəfəlik ödəmənin verilməsi haqqında qərarının qəbul edilməsidir. Xatırladaq ki, 2020-ci il 14 dekabr saat 00:00-dan 2021-ci il 18 yanvar saat 00:00-dək tətbiq olunan məhdudiyyətlərin iqtisadi fəallığa təsiri nəzərə alınaraq əvvəlki sərtləşdirilmiş karantin rejimi zamanı müəyyən edilmiş ehtiyacı olan təqribən 600 min nəfərə 190 manat birdəfəlik maddi yardım göstəriləcək. Sözügedən qərarda qeyd edilir ki, koronavirus pandemiyası dövründə xüsusi karantin rejiminin tətbiq olunması ilə əlaqədar işsiz kimi qeydiyyatda olan şəxslərə birdəfəlik ödəmənin verilməsi şərtləri və qaydasına əsasən, 190 manat məbləğində birdəfəlik ödəməni almış şəxslərə müvafiq qaydalara uyğun olaraq təkrar yoxlama keçirildikdən sonra 190 manat ödəniləcək. Onu da qeyd edək ki, ödəmələr artıq həyata keçirilir.

Dövlət başçısının sərəncamları əsasında həyata keçirilən sosial islahatların başlıca məqsədlərindən biri də əhalinin pensiya təminatının yaxşılaşdırılmasıdır. Bu il həmin dövlət sənədlərinin qəbulu sayəsində ölkədə minimum pensiyanın 72 faiz artması nəticəsində 660 min nəfərin pensiyasında ciddi artım oldu. Bununla həmçinin pensiyanın alıcılıq qabiliyyəti parametri üzrə ölkəmiz MDB məkanında birinci yerdə qərarlaşdı. Əlavə olaraq xüsusi şərtlərlə pensiya alan 90 min nəfərin pensiyaları orta hesabla 31 faiz artdı. Bu da ölkə üzrə ötənilki paketin ümumilikdə 750 min insanı əhatə etməsi deməkdir.

Ardı 5-ci səh.

Fransanın dövlət siyasətinə ləkə vuran ermənipərəstlik

İkinci Qarabağ müharibəsinin reallıqlarından biri Fransanın özünü ifşa etməsi oldu. Müharibənin ilk günlərindən Prezident Emmanuel Makron ölkəsinin neytrallığını unudaraq tam ermənipərəst siyasət yürütdü. Əlbəttə, onun bu addımı Prezident İlham Əliyevin qətiyyətli mövqeyi qarşısında heç bir uğur qazanmayaraq iflasa uğradı.

Makronun anti-Azərbaycan mövqeyi Ermənistanın kapitulyasiya barədə məlum sənəd imzalandıqdan sonra da davam etməkdədir.

Paşinyan Makronla əlaqə saxlamağa niyə təşəbbüs etməyib?

Ermənistanın "Qraparak" qəzeti yazır ki, baş nazir Nikol Paşinyanın təslim olma aktını imzaladıqdan bir neçə gün sonra Fransa Prezidenti erməni icmasının nümayəndələri ilə naharda iştirak edib. Makron Fransa ermənilərinin Paşinyan haqqında fikirləri ilə maraqlanıb, onları diqqətlə dinləyib. Sonra isə erməni baş nazirinin şəxsiyyəti və davranışı ilə bağlı şübhələrini gizlətməyib.

Ardı 39-cu səh.

Pozitiv tendensiyanı qoruyub saxlamalıyıq

Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən pandemiya elan edilən COVID-19 infeksiyası Yer üzündə yoluxma hallarının sayını sürətlə artırmaqda davam edir. Artıq dünyada bu təhlükəli virusa yoluxanların sayı 81 milyonu ötüb.

Təəssüf ki, ötən müddət ərzində koronavirus infeksiyasının qarşısının alınması istiqamətində görülən bütün tədbirlər nəticəsiz qalıb. COVID-ə qarşı ən effektiv mübarizə üsulu olan karantin rejiminin isə dünya iqtisadiyyatına ağır zərbə vurması daha bir təhlükəyə yol açıb. Buna görə də dünyanın beyin mərkəzləri gecə-gündüz pandemiyadan çıxış yolları arayır, ona qarşı təsir vasitələri axtarırlar. Mütəxəssislər isə bildirirlər ki, koronavirusun vaksini belə infeksiyanı tam aradan qaldırmağa qadir deyil və insanlar hələ bir müddət pandemiya şərtləri ilə yaşamalı olacaqlar.

Ölkəmiz ümumi bəlaya qarşı mübarizə üzrə operativ tədbirlər görür

Azərbaycan qlobal bəlaya qarşı hərtərəfli mübarizəni davam etdirir. Hələ virusun ilk üzə çıxdığı və təhlükənin ölkəmizin sərhədlərindən xeyli uzaqda olduğu zamandan etibarən hökumət problemin ciddiliyini və ÜST-ün tövsiyələrini nəzərə alaraq sərhədlərini qapadı, bütün təhsil müəssisələrini bağladı, kütləvi tədbirləri, idman yarışlarını təxirə saldı.

Ardı 38-ci səh.

♦Prezidentə yazırlar

“Sizin rəhbərliyinizlə Azərbaycanı daha böyük gələcək, daha firavan həyat gözləyir”

Rəşadətli ordumuzun Vətən müharibəsində qazandığı tarixi Qələbə ilə əlaqədar Azərbaycan vətəndaşları, xaricdə yaşayan soydaşlarımız, eləcə də qardaş Türkiyənin vətəndaşları Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq məktubları ünvanlamaqda davam edirlər. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bəzilərini təqdim edir.

“Siz bizim əbədi qəhrəmanımızsınız”

İsmayıllı rayonundan **Nərmin Fərəməzova** yazır:

“Cənab Prezidentimiz, tarix yazan Sərkərdəmiz İlham Əliyev.

Sizə İsmayıllı rayonunun Sulut kəndindən yazıram. Mənim 14 yaşım var. Sizə yazmağımın əsas səbəbi öz sevincimi bildirməkdir. Mən Qarabağ bölgəsindən olmasam da, Qarabağ azad olunanda çox sevinirdim. Çünki Vətənin hər qarışı bizimdir. Vətən müharibəsindəki qalibiyyətimiz Sizin, Azərbaycan Ordusunun, şəhidlərimizin, qazilərimizin və bir yumruq kimi birləşən xalqımızın sayəsində oldu. Allah şəhidlərimizə rəhmət eləsin, yaralı əsgərlərimiz tezliklə sağalsınlar. Bu şanlı qələbə münasibətilə Sizi ürəkdən təbrik edirəm. Siz bizim əbədi qəhrəmanımızsınız. Nə yaxşı ki, Sizin kimi başçısı olan müstəqil dövlətin vətəndaşıyam. Vətənə hər an xidmət etməyə hazıram. Biz bir olanda Azərbaycan oluruq! Qarabağ Azərbaycandır!”

“Fəxr edirəm ki, Sizin kimi müdrik Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız var”

Saatlı rayon sakini **Miryusif Abasov:**

“Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan.

Sizin komandanlığınızla şanlı ordumuz tərəfindən işğal altında olan torpaqlarımız 30 ildən sonra mənfur erməni tapdağından azad olundu. Bu parlaq qələbə əsrlərboyu yaradılmış saxta erməni mifini darmadağın etdi. Əlbəttə, bu tarixi qələbəyə Sizin qətiyyətli və müdrik rəhbərliyinizlə, milli birliyimiz, dəmir yumruq kimi birləşməyimiz sayəsində nail olundu. Şanlı qələbə münasibətilə Sizi, xalqımızı, müzəffər Ordumuzu ürəkdən təbrik edirəm. Fəxr edirəm ki, Sizin kimi müdrik Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız var. Allah Sizi qorusun!

Hörmətli cənab Prezident, Sizin ölkədə qismən səfərbərliklə əlaqədar imzaladığınız sərəncam mənim də ürəyimdən oldu. Həqiqi hərbi xidmət dövründə ağır artilleriyada təcrübə qazanmışdım deyə dərhal cəbhəyə könüllü yazılanlar sırasına qoşuldum. 2020-ci il sentyabrın 29-dan torpaqlarımızın erməni işğalından azad edilməsi uğrunda döyüşlərə qatılmışam. Cəbrayıl, Füzuli, Qubadlı rayonları ərazisində erməni faşistlərinə qarşı şücaətlə vuruşmuşam. Yaralı döyüşçü yoldaşlarımı döyüş meydanından çıxarıb tibbi yardım məntəqəsinə çatdırılmasına kömək göstərmişəm. Hazırda Laçın rayonunda “N” saylı hərbi hissənin tərkibində qulluq edirəm. Əsgərlərimizin sırasında olmağımdan çox məmnunam və böyük qürur duyuram.

Şəhidlərimizin ruhu qarşısında baş əyirəm. Yaralı əsgərlərimizə Allahdan şəfa diləyirəm.

Allah Sizi qorusun! Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!”

“Bu 44 günlük dövrdə Sizin qətiyyətiniz və dik duruşunuz bizi qürurlandırdı”

Türkiyənin Ankara şəhərindən **Enver Türkoğlu:**

“Möhtərəm cənab Prezident.

Qazandığınız tarixi Qələbəyə görə Türkiyədən şəxsən Sizə minnətdarlığımı bildirmək istəyirəm. Bu günlərdə Qarabağdakı Qələbəmizin xoşbəxtliyini ürək dolusu yaşayırıq.

Çünki 30 ilə yaxın idi ki, hər gün bu zəfərin xəyalını quraraq yaşayırdıq. Ancaq bir gün həmin anın gələcəyinə, mütləq doğma torpağımıza qayıdacağımıza əmin idik. Allaha şükür ki, Qarabağ bu gün öz sahiblərini qazandı.

Bu 44 günlük dövrdə Sizin qətiyyətiniz və dik duruşunuz bizi qürurlandırdı, bu hisslər uzun illər unudulmayacaq. Fürsətdən istifadə edərək Sizə və qalib Azərbaycan Ordusuna təşəkkür etmək istəyirəm. Şəhid əsgərlərimizə Allahdan rəhmət, ailələrinə başsağlığı diləyirəm.

Cənab Prezident, səmimi-qəlbdən inanıram ki, Sizin rəhbərliyiniz altında, irəliyə baxan güclü siyasətinizlə Azərbaycan hər il daha da inkişaf edəcəkdir.

İki dövlət, bir millət anlayışı hər birimiz üçün dəyərlidir. Türkiyə və Azərbaycan arasındakı dost münasibətləri hər keçən gün daha da inkişaf etdirilməsində Sizin və Prezidentimiz Rəcəb Tayyib Ərdoğanın fəaliyyətini yüksək qiymətləndiririk.

Hörmətli Prezident, Sizi bir daha təbrik edir, uzun ömür, cansağlığı arzulayıram. Ana Vətəndən Ata Vətənimə salamlar çatdırıram”.

“Bu Qələbə Sizin uzaqgörən, müdrik siyasətinizin nəticəsidir”

Yardımlı rayonundan **Məsud Cavadov:**

“Cənab Prezident.

44 günlük Vətən müharibəsində qələbə çalmağınız münasibətilə Sizi ürəkdən təbrik edirəm. Mən Sizin bu Qələbənizi alqışlayıram. Bu Qələbə Sizin uzaqgörən, müdrik siyasətinizin nəticəsidir. Allah Sizdən və xalqımızdan razı olsun. Xalq Sizin ətrafınızda dəmir yumruq kimi birləşərək erməni terrorçularını torpaqlarımızdan qovdu.

Cənab Prezident, müharibə vaxtı etdiyiniz bütün çıxışlarınıza heyran qalırdıq, sanki rəhmətlik Ulu Öndər Heydər Əliyev danışırdı. Sizin çıxışlarınız dillər əzbəri olub. Sizin hər kəlməniz bizim üçün dəyərlidir. Ermənistan ordusunun təxribat törədərək Gəncəyə bir neçə dəfə raket atmasına baxmayaraq, Siz təxribata uymadınız. Öz uzaqgörən siyasətinizlə bu təxribatın qarşısını aldınız.

Allah Ulu Öndərimizə, şəhidlərimizə rəhmət eləsin, yaralılara şəfa versin”.

“Sizin rəhbərliyinizlə Azərbaycanı daha böyük gələcək, daha firavan həyat gözləyir”

Beyləqan rayonunun sakini **İslam Allahverdiyev:**

“Möhtərəm Prezident.

Doğma Qarabağın düşməndən azad edilməsi və Vətən müharibəsinin tarixi Qələbə ilə başa çatması hər bir Azərbaycan vətəndaşının qəlbində böyük qürur və iftixar hissi yaşatmışdır. Sizin Ulu Öndər Heydər Əliyevin siyasi varisi kimi zəngin təcrübəniz və yüksək liderlik keyfiyyətləriniz, xalq arasında və dünyada böyük nüfuzunuz doğma Qarabağ uğrunda savaşda uğurlarımızın əsas şərti olmuşdur. Biz əminik ki, savaş meydanında əldə etdiyimiz tarixi Qələbənin ardınca Sizin rəhbərliyinizlə Azərbaycanı daha böyük gələcək, daha firavan həyat gözləyir”.

“Yorulmaz siyasi fəaliyyətinizə, hərbi sahədəki şücaətlərə və qəhrəmanlıqlara görə Sizin qarşınızda baş əyirik”

Bakı şəhər sakini **Sərdar İsmayılov:**

“Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan.

Mən Qarabağ müharibəsi əlili, vətənpərvər qarabağlı kimi torpaqlarımızı erməni faşistlərindən uğurla azad etdiyinizə, böyük zəfərin qazanılmasındakı xidmətlərinizə, tarixi ədaləti bərpa etdiyinizə görə Sizə minnətdarlıq edirəm.

Siz Vətənimizin bir parçası olan Qarabağımızın şəhər və kəndlərini - Şuşanı, Kəlbəcəri, Laçını, Ağdamı, Füzulini, Zəngilanı, Cəbrayılı, Hadrutu, Suqovuşanı və digər ərazilərimizi 30 illik həsrətdən sonra əsl sahiblərinə - bizə qaytardınız. Buna görə Siz bizim Fatehimiz, əvəzolunmaz liderimizsiniz. Yorulmaz siyasi fəaliyyətinizə, hərbi sahədəki şücaətlərə və qəhrəmanlıqlara görə Sizin qarşınızda baş əyirik.

Ağdam rayonu Şıxbabalı kəndinin sakinləri, o cümlədən ailə üzvlərim adından, həmçinin döyüş yoldaşlarımın adından Sizə və komandanlıq etdiyiniz müzəffər Ordumuza səmimi təşəkkürlərimizi bildiririk.

Sizə gələcək fəaliyyətinizdə yeni-yeni uğurlar, tarixi qələbələr və böyük zəfərlər arzulayırıq.

Şəhidlərimizə Allahdan rəhmət diləyir, yaralı qazilərimizin tezliklə sağalmalarını arzulayırıq.

Tanrı Sizi və xalqımızı qorusun!”

“Bu Qələbəni Sizin qətiyyətiniz, qardaş və bacılarımızın şücaəti sayəsində qazandıq”

Bakı şəhərindən **Cəmilə İmamverdiyeva:**

“Hörmətli cənab Prezident.

Mən Texniki-Humanitar Liseyin müəllimi, həmçinin Birinci Qarabağ müharibəsi veteranının qızıyam.

Məktubumla xalqımıza bəxş etdiyiniz Qələbəyə görə təşəkkür edirəm. Bu qələbə tarixini Sizin qətiyyətiniz, qardaş və bacılarımızın şücaəti sayəsində qazandıq. Məhz Siz xalqımızda bu qədər yüksək döyüş ruhu yarada bildiniz. Əsgərlərimizi ruhlandırdığınıza, onlardan diqqət və qayğını əsirgəmədiyinizə görə çox sağ olun. Siz 44 gün ərzində hər an bizimlə oldunuz, biz isə səbirsizliklə Sizdən xoş xəbərlər gözləyirdik.

Mən şəxsən Sizə müəllimlər adından çox sağ ol demək istəyirəm ki, bizi işğal altında olan tarixlər barədə dərs demək əzabından qurtardınız, yeni qalibiyyət tarixini şərəflə, qürurla uşaqlara öyrətmək imkanı verdiniz. Nəhayət, dərsliklərdə, gündəliklərdə ərazilərimizin işğaldan azad edildiyi günlər qırmızı rənglə qeyd ediləcək.

Bizim liseyin məzunu Aqşin Novruzov da Vətən müharibəsinin şəhidi zirvəsinə ucalıb. O daim bizim qəlbimizdə yaşayacaq və arzu edirik ki, bir vaxtlar liseyimiz onun adını daşısın.

Biz şagirdlərimizi Vətənimizin bir parçası olan Qarabağımıza, Azıx mağarasına, Xudafərin körpüsünə, Pənahabad və Şahbulaq qalalarına, Xudavəng, digər alban kilsələrinə ekskursiyaya aparacağımız günləri səbirsizliklə gözləyirik.

Biz onlayn rejimdə şagirdlərimlə birlikdə Sizin çıxışlarınızı izləyirdik. Şagirdlərim Sizin tarixi, coğrafi biliklərinizə, müxtəlif dillərdə natiqlik qabiliyyətinizə heyran olur və bu da onları daha yaxşı oxumağa həvəsləndirirdi.

Əziz Prezidentimiz, şükürlər olsun ki, xalqımızın Sizin kimi Lideri var. Allahdan Sizə möhkəm cansağlığı və uzun illər arzulayıram.

Düşmən qarşısındakı başucalığımıza görə Sizə bir daha təşəkkür edirəm”.

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

❖ ❖ ❖

Zati-aliləri.

Doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Bu xoş fürsətdən istifadə edərək bildirmək istərdim ki, Bolqarıstan Respublikası Cənubi Qafqaz regionunda Azərbaycan Respublikasını özünün strateji tərəfdaşı hesab edir. İnanıram ki, ölkələrimiz və xalqlarımızın dostluq münasibətləri sayəsində Bolqarıstan ilə Azərbaycan arasındakı fəal təmaslar, səmərəli əməkdaşlıq dost dövlətlərimiz və xalqlarımızın maraqları naminə daha da inkişaf edəcək.

Sizə möhkəm cansağlığı, rifah və ali dövləti vəzifənizdə uğurlar arzulayıram.

Hörmətli cənab Prezident, ən dərin ehtiramımı qəbul edin.

Hörmətlə,

Boyko BORİSOV,
Bolqarıstan Respublikasının Baş naziri

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Sizi doğum gününüz münasibətilə Rusiya Federasiyasının Hökuməti adından və şəxsən öz adımdan təbrik edirəm.

Dostluq, mehriban qonşuluq və tərəfdaşlıq prinsiplərinə əsaslanan Rusiya-Azərbaycan münasibətlərinin möhkəmlənməsinə Sizin əhəmiyyətli şəxsi töhfənizi qeyd etmək istərdim. Birgə səylərlə ticari-iqtisadi, elmi-texniki və mədəni-humanitar əməkdaşlığın inkişafı, müxtəlif sahələrdə böyük perspektivli layihələrin həyata keçirilməsi üçün əlverişli şərait yaradılır.

Əminəm ki, qarşılıqlı fəaliyyətin bütün kompleksinin bundan sonra da gücləndirilməsi, yeni təşəbbüslərin təşviqi Rusiya və Azərbaycanın uzunmüddətli maraqlarına tam şəkildə cavab verir.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə yeni müvəffəqiyyətlər arzulayıram.

Hörmətlə,

Mixail MİŞUSTİN,
Rusiya Federasiyası Hökumətinin sədri

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurası adından və şəxsən öz adımdan doğum gününüz münasibətilə ən səmimi təbriklərimizi qəbul edin.

Siz Vətənə fədakar xidmətin, yüksək peşəkarlığın və fəal vətəndaşlıq mövqeyinin nümunəsisiniz. Azərbaycan Respublikasında aparılan islahatlar, siyasi sabitliyin və milli iqtisadiyyatın möhkəmlənməsi, vətəndaşların rifahının yaxşılaşdırılması kursu - bütün bunlar Sizə həm ölkə daxilində, həm də xaricdə inam qazandırmışdır.

2019-cu ilin aprel ayında Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının nümayəndə heyətinin Azərbaycan Respublikasına qarşılıqlı hörmət və qonaqpərvərlik mühitində baş tutmuş səfərini məmnunluqla xatırlayıram. Dövlətlərimiz arasında münasibətlərin parlament meyarlarına və diplomatiyasına göstərdiyiniz daimi diqqət və dəstəyi yüksək qiymətləndirirəm.

Biz Müstəqil Dövlətlər Birliyi məkanında inteqrasiya proseslərinin möhkəmlənməsi üçün Rusiya və Azərbaycanın dostluq və qarşılıqlı anlaşmaya əsaslanan qarşılıqlı fəaliyyətinin bundan sonra da dərinləşməsinə böyük əhəmiyyət veririk.

Hörmətli İlham Heydər oğlu, səmimi-qəlbdən Sizə möhkəm cansağlığı və firavanlıq, Azərbaycanın rifahı naminə ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

Ən yüksək ehtiramımı qəbul edin.

Hörmətlə,

Valentina MATVİYENKO,
Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Siz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin işini layiqincə davam etdirərək, ölkənizin həyatının bütün sahələrində ictimai sabitliyi, müstəqil və mütərəqqi inkişafı təmin edən dərin dəyişikliklər həyata keçirmisiniz.

Sizin Azərbaycan xalqının mənafelərinə əsaslanan düşünülmüş və müdrik siyasətiniz sayəsində ölkəniz güclü və suveren dövlətə çevrilib.

Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Dağıstan Respublikası arasında tarixən yaranmış dostluq, mehriban qonşuluq və qarşılıqlı hörmət ənənələrinin inkişafına Sizin göstərdiyiniz diqqət də böyük hörmətə layiqdir.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, quruculuq fəaliyyətinizdə yeni uğurlar arzu edirəm.

Hörmətlə,

Sergey MƏLİKOV,
Rusiya Federasiyası Dağıstan Respublikasının rəhbəri vəzifəsini müvəqqəti icra edən

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edirəm.

Siz öz vətəndaşlarınızın rifahı naminə yorulmadan çalışan müdrik rəhbər kimi haqlı olaraq yüksək nüfuz və hörmət qazanmısınız.

Sizin rəhbərliyinizlə respublikanız sosial-iqtisadi sahədə və beynəlxalq arenada əhəmiyyətli uğurlar qazanır, dostluq, mehriban qonşuluq və qarşılıqlı hörmət ənənələrinə əsaslanan Rusiya-Azərbaycan münasibətləri xalqlarımızın rifahı naminə möhkəmlənir və dinamik inkişaf edir.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik və firavanlıq, Azərbaycan Respublikasının vətəndaşlarına isə sülh və tərəqqi arzulayıram.

Hörmətlə,

Maqomedsalam MAQOMEDOV,
Rusiya Federasiyası Prezidenti Administrasiyası rəhbərinin müavini

❖ ❖ ❖

Zati-aliləri, möhtərəm İlham Heydər oğlu.

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edirəm.

Siz Azərbaycan Respublikası Prezidentinin vəzifələrini yerinə yetirərək, həmvətənləriniz üçün firavan və dinc həyatın qurulması naminə yorulmadan çalışır, ölkədə millətlərarası və dinlərarası harmoniyaya əhəmiyyətli töhfə verirsiniz.

Sizə möhkəm cansağlığı, Prezident kimi ali və məsul fəaliyyətinizdə Qadir Allahdan kömək və uğurlar diləyirəm.

Bir-birinə qonşu olan Azərbaycan və Ermənistan xalqlarının bərəkətli torpaqlarında möhkəm və ədalətli sülhün bərqərar olması üçün Ulu Tanrıya dualar edirəm.

Dərin hörmətlə,

KİRİLL,
Moskvanın və Bütün Rusiyanın Patriarxı

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Sizə və ailənizə dərin ehtiramımı, möhkəm cansağlığı və firavanlıq, çətin və məsul fəaliyyətinizdə yeni imkanlar və yeni ideyalar arzularımı çatdırmaq fürsətinə görə şadam.

Hörmətlə,

Zurab SERETELİ,
Rusiya Rəssamlıq Akademiyasının prezidenti

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə Sizi şəxsən öz adımdan və M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin çoxminli kollektivi adından səmimi-qəlbdən təbrik edirəm.

Siz uzun illərdir elm və təhsil məsələlərinə, universitet və akademiya ictimaiyyətinin səmərəli tərəfdaşlığının inkişafına və təkmilləşdirilməsinə böyük diqqət göstərirsiniz. Rusiya ilə Azərbaycanın yaradıcı əməkdaşlığının hüdudları Sizin sayənizdə bir çox cəhətdən xeyli genişlənib və möhkəmlənib. İctimai əhəmiyyətli çoxsaylı layihələr və təşəbbüslər həyata keçirilib, minlərlə gənc, aydın məqsədli və istedadlı insanlar üçün bizim qabaqcıl elm müəssisələrimizin ən yaxşı təhsil ənənələrindən bəhrələnmək imkanı yaradılıb.

Bu xoş fürsətdən istifadə edərək Moskva Dövlət Universitetinə səmimi münasibətinizə görə Sizə təşəkkürümü bildirirəm. MDU-nun Bakı şəhərindəki filialı özünün bütün fəaliyyəti dövründə elmin və təhsilin, dövlətlərimiz arasında sülhün və harmoniyanın inkişafına uğurla xidmət edir.

Möhtərəm İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, tükənməz enerji və firavanlıq arzu edirəm.

Hörmətlə,

Viktor SADOVNİÇİ,
M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin rektoru, akademik

❖ ❖ ❖

Hörmətli cənab Prezident Əliyev.

Doğum gününüz münasibətilə dünya idman atıcılığı ictimaiyyətinin adından Sizi səmimi-qəlbdən təbrik edirəm.

Sizə yaşadığımız hazırkı çətin dövrdə çox vacib olan möhkəm cansağlığı və xoş əhvali-ruhiyyə arzulayıram. İnanıram ki, qarşıdan gələn ildə Azərbaycan idmançılarının beynəlxalq arenada qazanacaqları nailiyyətlər Sizə və gözəl respublikanızın bütün vətəndaşlarına sevinc bəxş edəcəkdir.

Beynəlxalq İdman Atıcılığı Federasiyasının 2021-ci ildə Bakıda keçirməyi planlaşdırdığı tədbirlər zamanı Sizinlə görüşəcəyimizə ümidvaram.

Ən xoş arzularla,

Vladimir LİSİN,
Beynəlxalq İdman Atıcılığı Federasiyasının prezidenti

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Doğum gününüz münasibətilə Sizi Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsi adından, Rusiya Müftilər Şurası adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm. Sizə dualar edərək möhkəm cansağlığı, uzun ömür diləyir və arzu edirəm ki, bütün xeyirxah təşəbbüslərinizdə Uca Allah Sizə yar olsun.

Sizin rəhbərliyinizlə Azərbaycan Respublikasının qazandığı çox mühüm nailiyyətləri bu əlamətdar gündə dərin hörmətlə qeyd edirik. Bu nailiyyətlər sayəsində Azərbaycan xalqı sıx birləşərək, onun gələcəyə inamını və milli şüurunu möhkəmlətmiş çətin sınaqlardan keçməklə özünün siyasi və iqtisadi inkişafında yeni qələbələrə doğru inamla irəliləyir.

Müsəlmanlar bu nailiyyətlər sırasında Azərbaycanın həm İslama, həm də bütün dinlərə münasibətdə ölçülüb-biçilmiş və qayğıkeş dövlət siyasətini yüksək qiymətləndirirlər. Azərbaycan tolerant və monolit cəmiyyətin həqiqi nümunəsinə çevrilib. Bu ölkədə bütün konfessiyalara hörmətlə yanaşılır, bununla da bütün dünyaya nümunə göstərilir.

Hörmətli İlham Heydər oğlu, Uca Allaha dua edərək Sizə və bütün Azərbaycan xalqına firavanlıq və rifah diləyirəm. Amin!

Hörmətlə və xoş dualarla,

Müfti şeyx Ravil QAYNUTDİN,
Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin və Rusiya Müftilər Şurasının sədri

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

İlk növbədə, Sizi doğum gününüz münasibətilə təbrik edirəm və Azərbaycanı uğurla inkişaf etdirən taleyüklü qərarlar qəbul etdiyinizə görə Sizə dərin minnətdarlığımı bildirirəm.

Sizin vətənpərvərlik və birlik ideallarına sadiqliyiniz, öz Vətəninə görə qürur hissiniz və işıqlı gələcəyə əminliyiniz Azərbaycan dövlətinin davamlı tərəqqisinin və firavanlığının rəhnidir.

Cənab Prezident, Azərbaycanın müstəqil dövlət quruculuğu, siyasi sabitliyin möhkəmlənməsi, yüksək iqtisadi artıma nail olması, qısa müddətdə dünyanın ən dinamik inkişaf edən dövlətləri sırasına qoşulması işində sanballı uğurları Sizin xidmətlərinizdir.

Son üç onillik yeni Azərbaycanın böyük salnaməsinin yalnız müqəddiməsidir, Azərbaycan xalqının həmrəyliyi, sülhün və birliyin möhkəmlənməsi, ölkənin düzgün xarici siyasət kursunun müəyyən edilməsi Azərbaycanı beynəlxalq arenada yeni qələbələrə gətirib. Bütün bu nailiyyətlər asanlıqla yox, mürəkkəb geosiyasi reallıqlar şəraitində qazanılıb.

Azərbaycan təkcə öz gələcəyi uğrunda deyil, həm də öz keçmişi uğrunda mübarizə aparmalı, öz tarixini müdafiə etməli olub. İnformasiya müharibəsi hərbi əməliyyatların ayrılmaz hissəsi olmaqla bərabər, həm də beynəlxalq siyasətin vasitəsi kimi geniş istifadə edilib. Dünyanın bir sıra dillərində onlarca informasiya saytı yaradılıb, bu portallarda Azərbaycan jurnalistikası ön sıralarda gedib və ona həvalə edilmiş işi şərəflə yerinə yetirib.

Bununla yanaşı, Azərbaycanın tarix elmi milli siyasətin və təbliğatın yeni konsepsiyasının həyata keçirilməsində mühüm yer tutub.

Təbliğat silahı dövlətin potensial düşmənə qarşı tətbiq etdiyi üsullar və tədbirlər arsenalında mühüm amildir və milli maraqların təmin edilməsində getdikcə daha əhəmiyyətli rol oynayır. Biz də bu istiqamətdə az da olsa iştirak etmişik və Siz bunu qeyd etmisiniz.

Hörmətli İlham Heydər oğlu, cənab Prezident, göstərdiyiniz böyük diqqətə, bizə Azərbaycan Respublikasının “Diaspor fəaliyyətində xidmətə görə” medalının verilməsinə görə Sizə təşəkkürümü bildirəm. Azərbaycanın bu medalına layiq görülməyim mənim üçün böyük şərəfdir.

Gürcüstan qardaş Azərbaycan xalqının güclü və firavanlaşan dövlət yaradılmasında uğurlarına böyük hörmətlə yanaşır. Cənab Prezident, mən özüm əslən Abxaziyadanam və işğal edilmiş ərazilərin azad olunmasını onilliklər boyu gözləməyin nə demək olduğunu bilirəm. Sizin rəhbərliyinizlə regionda böyük geosiyasi qələbə əldə edilib və bu Qələbə günü Azərbaycan dövlətinin qüdrətinin, möhtəşəmliyinin və qələbəsinin rəmzinə, onun çoxillik tarixinə, zəngin mədəniyyətinə və ənənələrinə görə qürur mənbəyinə çevrilmişdir.

Cənab Prezident, bu xoş fürsətdən istifadə edərək Sizə qarşıdan gələn Yeni il münasibətilə ən səmimi təbriklərimi çatdırır, Sizin timsalınızda qardaş Azərbaycan xalqını təbrik edir, ona yeni qələbələr, firavanlıq və sülh diləyirəm.

Hörmətlə,

Quram MARXULİYA,
Qafqaz Beynəlxalq Geotarix və Geosiyasət Araşdırmaları Mərkəzinin prezidenti, Suxumi Dövlət Universitetinin (Gürcüstan) professoru

❖ ❖ ❖

Möhtərəm Prezident, cənab müzəffər Ali Baş Komandan.

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir, Zati-alinizə ən xoş arzularımızı çatdırmaqdan böyük məmnunluq duyuruq.

2020-ci il dünya tarixində ən ağır, lakin ölkəmiz üçün ən uğurlu və tarixi il oldu. Sizin rəhbərliyinizlə Vətən müharibəsində şanlı Qələbə qazanan Azərbaycan Ordusunu və xalqımızı təbrik edirik. Azərbaycanda iqtisadiyyatın inkişafı və müasir ordu quruculuğu istiqamətində aparılan siyasəti dəstəkləyir, Ulu Tanrıdan bu yolda Sizə uğurlar diləyirik.

Siz Azərbaycan ilə Gürcüstan arasında strateji tərəfdaşlıq xarakteri daşıyan ənənəvi dostluq, mehriban qonşuluq münasibətlərinin inkişafına və möhkəmlənməsinə xüsusi diqqət göstərirsiniz. Biz - Gürcüstanda yaşayan azərbaycanlılar bu qayğınızı və dəstəyinizi hər an hiss edir, bunu yüksək qiymətləndiririk. Gürcüstanın Azərbaycanlı İş Adamları Birliyi olaraq bu siyasətin həyata keçirilməsinə daim dəstək verəcəyimizə Sizi əmin edirik.

Bu əlamətdar gün münasibətilə bir daha ürəkdən təbrik edir, Sizə və ailənizə möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycan xalqının rifahı və tərəqqisi naminə fəaliyyətinizdə uğurlar arzulayırıq.

Cənab Prezident, Sizə olan ən dərin ehtiramımızı qəbul edin.

Hörmətlə,

Nəriman QURBANOV,
Gürcüstanın Azərbaycanlı İş Adamları Birliyinin (AZEBİ) İdarə Heyətinin sədri

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Doğum gününüz münasibətilə Sizi Özbəkistanda yaşayan azərbaycanlılar adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

Azərbaycan dövləti və xalqı işğalçı Ermənistan üzərində qazandığı möhtəşəm Qələbədən sonra yeni inkişaf mərhələsinə qədəm qoyur. Əminik ki, məhz Sizin apardığınız müdrik siyasətiniz dünyada yaşayan bütün azərbaycanlılara gələcəkdə də doğma Azərbaycanımızın uğurları üçün qürur hissi yaşadacaq. Bütün dünya Sizin siyasət, iqtisadiyyat, hərbi və bir çox digər sahələrdə Azərbaycanın milli maraqlarının qorunmasında son dərəcə təcrübəli, ədalətli və qətiyyətli dövlət rəhbəri olduğunuza şahidlik etdi.

Cənab Prezident, yaşadığı ölkədən, vətəndaşlıq mənsubiyyətindən asılı olmayaraq, bütün azərbaycanlılar Sizinlə fəxr edirlər. Əminəm ki, çox yaxın gələcəkdə Azərbaycan Respublikası və Azərbaycan xalqı Sizin rəhbərliyinizlə yeni inkişaf mərhələsi yaşayacaq.

Biz də öz növbəmizdə həmişə olduğu kimi, bundan sonra da Özbəkistanda Azərbaycanın inkişafı istiqamətində aparılan işlərə töhfəmizi vermək və nəticə əldə etmək üçün əlimizdən gələni əsirgəməyəcəyik.

Allahdan Sizə möhkəm cansağlığı, uzun ömür və ailə səadəti diləyirəm. Şərəfli və məsuliyyətli fəaliyyətinizdə Sizə yeni zəfərlər və uğurlar arzulayıram.

Hörmətlə,

Firdovsi HÜSEYNOV,
Özbəkistandakı Azərbaycan Milli Mədəniyyət Mərkəzinin sədri

❖ ❖ ❖

Zati-aliləri.

Doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimi yetirirəm.

Cənab Prezident, bugünkü geosiyasi vəziyyətin bütün mürəkkəbliyinə baxmayaraq, Siz nadir siyasi müdrikliyə, uzaqgörənliyə malik əvəzolunmaz şəxsiyyətsiniz. Sizin Azərbaycanın mənafeyinə, inkişafına və yüksəlişinə sadiqliyiniz xalqımızın hörmət və dəstəyini qazanıb. Siz əsasi Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulan müasir Azərbaycan quruculuğu yolunu davam etdirərək onun işlərinin layiqli varisisiniz. Sizə Azərbaycanın və xalqımızın rifahı naminə tarixi missiyanızda xaricdə yaşayan biz azərbaycanlılar daim dəstəyik. Bu gün Siz Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında müsbət dəyişikliklərin təmin olunması, xalqımızın rifahının yüksəldilməsi üçün maksimum səy göstərərək regionda sülhün və sabitliyin möhkəmlənməsinə töhfə verirsiniz. Sizin yüksək peşəkarlığınız, çoxillik iş təcrübəniz, vəzifə məsuliyyəti hissiniz xalqımız üçün ən ümdə məqsədlərə çatmağa imkan verəcək. Qürurverici haldır ki, Sizin bütün fəaliyyətiniz Azərbaycan xalqı tərəfindən sərgilənən ictimai dəstəklə müşayiət olunur. Bu gün hər kəs Sizin ətrafınızda sıx birləşmişdir və apardığınız siyasət nəticəsində əldə olunan uğurların sevincini yaşayır. Bu sevincdən bir azərbaycanlı kimi mənə də pay düşür. Siz Azərbaycan Respublikasının ali dövləti vəzifəsində fəaliyyətinizdə özünüzü qeyri-ordinar, parlaq şəxsiyyət, prinsipial və ardıcıl siyasi xadim, dövlətin lideri kimi göstərmisiniz. Siz haqlı olaraq öz həmvətənləriniz arasında və xaricdə hörmət və nüfuz qazanmısınız.

Azərbaycanda həyata keçirilən konstruktiv xarici siyasət regionda sabitliyin təmin edilməsinə, beynəlxalq ticari-iqtisadi əlaqələrin möhkəmlənməsinə və ölkə iqtisadiyyatına yeni investisiyalar cəlb edilməsinə şərait yaradır. Sizin sayənizdə Azərbaycan Respublikası bundan sonra da davamlı inkişaf yolu ilə irəliləyəcəkdir. Heç şübhəsiz ki, Sizin qazandığınız ümumxalq dəstəyi və etimadı, azərbaycanlıların həyatını daha da firavanlaşdırmaq səyləriniz ali dövləti fəaliyyətinizdə bundan sonra da yeni uğurlarınıza imkan yaradacaq. Bu gün Azərbaycan xalqının rifahının yüksəldilməsi, onun böyük potensialının üzə çıxarılması kursu Sizin rəhbərliyinizlə uğurla həyata keçirilir. Əminəm ki, ölkəmizi qarşıda yeni-yeni nailiyyətlər və qələbələr gözləyir. Sizin siyasi müdrikliyiniz, zəngin təcrübəniz, doğma Vətənimizə, xalqımıza məhəbbətiniz bütün bunların rəhnidir. Sizin rəhbərliyinizlə Azərbaycan bu gün dünyada getdikcə daha layiqli və nüfuzlu yer tutur. Ölkəmizin uğurlu iqtisadi inkişafında, yüksək mənəvi-əxlaqi ab-havanın qorunub saxlanılmasında, mədəniyyət, elm və təhsilin hərtərəfli inkişafında quruculuq enerjisi ilə aşıbdaşan, nəzərdə tutulan planların həyata keçməsinə ardıcıllıqla və qətiyyətlə nail olan bir lider kimi Sizin şəxsi xidmətləriniz böyükdür. Siz fədakarcasına Azərbaycan xalqının xoşbəxtliyinin və rifahının qayğısına qalırsınız. Vurğulamaq istəyirəm ki, Sizin doğum gününüz təkcə ailəniz üçün deyil, hər bir vətənpərvər azərbaycanlı üçün əlamətdardır. Çünki bu gün biz xəyalən Sizinləyik.

Cənab Prezident, Siz mürəkkəb dövlət vəzifələrinin həllinə əzmkarlıqla yanaşmağınız, heyrətamiz iş

Baş nazir Əli Əsədov ilə Rusiya hökumətinin sədri Mixail Mişustin arasında telefon danışığı olub

Dekabrın 29-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ilə Rusiya Federasiyası hökumətinin sədri Mixail Mişustin arasında telefon danışığı olub.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı əsnasında Azərbaycanla Rusiya arasında ticari-iqtisadi münasibətlərin səviyyəsindən məmnunluq ifadə edilib. İqtisadiyyatın müxtəlif sahələrində qarşılıqlı faydalı əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Azərbaycan-Rusiya Hökumətlərarası İqtisadi Komissiyası çərçivəsində aparılan işlərin intensivləşməsinin əhəmiyyəti vurğulanıb, nümayəndə heyətlərinin qarşılıqlı səfərləri yüksək qiymətləndirilib.

Telefon danışığı zamanı həmçinin Azərbaycan, Ermənistan və Rusiya liderlərinin 10 noyabr tarixli birgə bəyanatından irəli gələn məsələlər müzakirə edilib.

Eyni zamanda, hər iki ölkədə koronavirus (COVID-19) pandemiyasına qarşı mübarizə istiqamətində həyata keçirilən tədbirlər barədə fikir mübadiləsi aparılıb.

Hökumət başçıları Yeni il münasibətilə bir-birini təbrik ediblər.

Müdafiə naziri xidməti müşavirə keçirib

Dekabrın 29-da müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə nazir müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə, xidmət rəisləri və birlik komandirlərinin iştirakı ilə xidməti müşavirə keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişlərini bir daha müşavirə iştirakçılarına xatırladan general-polkovnik Z.Həsənov dövlət başçısının rəhbərliyi ilə Azərbaycan Ordusunda həyata keçirilən islahatların davam etdirilməsi və qarşıda duran vəzifələrin icrası ilə bağlı bir sıra tapşırıqları diqqətə çatdırıb.

General-polkovnik Z.Həsənov müşavirədə şəxsi heyətin Vətənə, dövlətə və Müzəffər Ali Baş Komandana misilsiz sədaqət, milli-mənəvi dəyərlər, vətənpərvərlik, milli köklərə bağlılıq və döyüş ruhunda tərbiyə edilməsinin, hərbi intizamın möhkəmləndirilməsinin vacibliyini xüsusi qeyd edib.

Müdafiə naziri şəxsi heyətin təhlükəsizliyinin təmin olunması, intensiv döyüş hazırlığı səviyyəsinin artırılması üçün hərbi hissələrdə, əsasən azad edilmiş ərazilərdə yerləşən bölmələrdə keçiriləcək döyüş hazırlığı tədbirlərinin keyfiyyətinin yüksəldilməsinə xüsusi diqqət yetirilməsini tapşırıb.

Azad edilmiş ərazilərdə aparılan mühəndis-istehkam işləri və qoşunların mühəndis təminatı tədbirləri ilə maraqlanan müdafiə naziri döyüş növbətçiliyinə cəlb edilən hərbi qulluqçuların sayıqlığının artırılması, həmçinin bölmələrin maddi-texniki təminat və təchizatının daha da yaxşılaşdırılması ilə bağlı komandir-rəis heyətinə konkret göstərişlər verib.

Azərbaycan ilə Qırğızıstan arasında əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunub

Dekabrın 29-da Azərbaycan Respublikası xarici işlər naziri Ceyhun Bayramov ilə Qırğız Respublikasının xarici işlər naziri Ruslan Kazakbaev arasında telefon danışığı olub.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, telefon söhbəti zamanı nazirlər 10 noyabr tarixli üçtərəfli bəyanatdan irəli gələn məsələlərin icrası və bölgədə mövcud olan son vəziyyət ətrafında fikir mübadiləsi aparıblar.

Nazir Ruslan Kazakbaev beynəlxalq hüququn bərqərar olması və Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi ilə əlaqədar məmnunluğunu ifadə edib.

Nazirlər həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın genişləndirilməsi məsələləri barədə ətraflı fikir mübadiləsi aparıblar.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər regional məsələləri müzakirə ediblər.

Milli Məclisin iclasında

Gələn ilin dövlət büdcəsi təsdiq olundu

Əvvəli 1-ci səh.

Komitə sədri vurğuladı ki, üçüncü oxunuşda müzakirəyə çıxarılmış dövlət büdcəsi layihəsi 2021-ci ildə ölkə qarşısında duran çağırışlara layiqli cavab vermək, sosial sahədə və təhlükəsizlik məsələləri istiqamətində dövlət siyasətini həyata keçirmək üçün mühüm maliyyə bazası yaradacaq.

Maliyyə naziri Samir Şərifov çıxış edərək komitə və plenar iclaslarda qaldırılan məsələlərə aydınlıq gətirdi, deputatların suallarına cavab verdi. Bildirdi ki, deputatların irəli sürdükləri təkliflər və tövsiyələr 3 əsas istiqamətə yönəlib: Birincisi, işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışın təmin edilməsi ilə əlaqədar görüləcək işlər üçün 2021-ci ilin dövlət büdcəsində ayrılmış vəsaitin artırılmasıdır. İkincisi, dövlətimizin müdafiə qabiliyyətinin, milli təhlükəsizliyin və ordumuzun hərbi qüdrətinin daha da möhkəmləndirilməsi üçün əlavə vəsaitlərin ayrılmasıdır. Üçüncüsü, büdcədə sosialyönümlü xərclərin artırılması hesabına bəzi sosial ödənişlərin əhatə dairəsinin genişləndirilməsi, bəzi ödənişlərin məbləğinin artırılması üçün əlavə maliyyə mənbələrinin müəyyənləşdirilməsi təklif olunub. Nazir vurğuladı ki, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən bununla əlaqədar müvafiq sərəncam imzalanıb.

Həmin istiqamətlərdə həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verən Samir Şərifov qeyd etdi ki, prioritet sahələr daim ölkə rəhbərliyinin diqqət mərkəzindədir. Belə ki, son 5 ildə milli təhlükəsizliyə və müdafiəyə ayrılan vəsaitin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 3,7 faiz artaraq 16,1 faiz təşkil edib. Beləliklə, bu xərclər 2 milyard 393 milyon manat və ya 2,1 dəfədən çox artıb. Büdcə layihəsindən göründüyü kimi, 2021-ci il də bu sıradan istisna deyil. Həmçinin son 5 ildə sosialyönümlü xərclərin büdcə xərcləri tərkibindəki xüsusi çəkisi 3,8 faiz, mütləq ifadədə isə 4,9 milyard manat və yaxud 78,2 faiz artıb ki, bu da hər ötən il üçün 15,6 faiz artım deməkdir. 2021-ci ilin dövlət büdcəsində sosialyönümlü xərclərin artımı 5,3 faiz təşkil etməklə, bütövlükdə dövlət büdcəsi xərclərinin artımını 1,5 faiz üstələyir.

Nazir bildirdi ki, ölkə ərazisində icbari tibbi sığortanın tətbiqinin tam başa çatdırılması, koronavirus pandemiyasına qarşı mübarizə tədbirlərinin davam etdirilməsi, məşğulluğun təmin edilməsi çərçivəsində sosial müdafiəyə ehtiyacı olan əhali qrupları üçün yeni iş yerlərinin yaradılması məqsədilə tədbirlər gələn il də davam etdiriləcək.

O da diqqətə çatdırıldı ki, 2020-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılmış parlaq Zəfəri qarşıdan gələn 2021-ci ildə də ölkəmizin bütün aparıcı sahələrində davam etdirməklə iqtisadiyyatın dayanıqlı əsaslarla inkişaf etdirilməsinə, işğal olunmuş ərazilərdə bərpa və yenidənqurma işlərinin vüsət almasına, xalqın rifahının və dövlətimizin hərbi qüdrətinin daha da artırılmasına nail olmaq əzmindəyik. Pandemiyanın yaratdığı çətinliklərə baxmayaraq, hər birimiz qarşıya qoyulmuş bu şərəfli və heç də asan olmayan vəzifələrin uğurla yerinə yetirilməsi üçün yorulmadan çalışmalıyıq.

Sonra "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi səsə qoyulub və üçüncü oxunuşda qəbul edilib.

"Dövlət Sosial Müdafiə Fondunun 2021-ci il büdcəsi haqqında" (üçüncü oxunuş) qanun layihəsini Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev təqdim etdi. Bildirdi ki, DSMF-nin gələn il üçün olan büdcəsi etibarlı büdcədir və imkan verəcək ki, aztəminatlı vətəndaşlar, pensiyaçılar, əlillər, sosial müavinət alan digər kateqoriyadan olan vətəndaşlar daha təminatlı şəraitdə yaşasınlar.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev bildirdi ki, DSMF-nin 2021-ci il büdcəsi hazırlanarkən ilk növbədə əhalinin etibarlı sosial müdafiəsi və sosial təminatı əsas götürülüb. Bu baxımdan ən önəmli kontingent olan şəhid ailələrinə və müharibə əlillərinə dəstək tədbirləri xüsusi əhatə olunub. Qeyd olundu ki, həmin kateqoriyadan olan şəxslərin mənzil və avtomobillə təminatı sahəsində ciddi irəliləyişlər var. İndiyədək 9 mindən artıq mənzil, 7 mindən artıq avtomobil bu kateqoriyadan olan şəxslərə təqdim edilib və bu proses davamlıdır.

Cari ildə qənaət edilmiş vəsait barədə məlumat verən Sahil Babayev bildirdi ki, yığımların artması və saxta pensiya işlərinin ləğv edilməsi və optimallaşdırılması nəticəsində qənaət edilmiş 250 milyon manat vəsait də əhalinin sosial müdafiəsinə və sosial təminatına yönləndirilib. Bu il 190 manatlıq səviyyədə olan ödənişin təxminən 200 milyon manatdan yuxarı olan hissəsi bu vəsaitlər hesabına ödənilib.

"Dövlət Sosial Müdafiə Fondunun 2021-ci il büdcəsi haqqında" qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda təsdiq edildi.

Komitə sədri Musa Quliyev "İşsizlikdən sığorta fondunun 2021-ci il büdcəsi haqqında" (üçüncü oxunuş) qanun layihəsini təqdim etdi. Nəzərə çarpdırdı ki, İşsizlikdən sığorta fondunun 2021-ci il büdcəsinin gəlirləri 157 milyon 769 min 146 manatdır. Planlaşdırılan vəsaitin 70 milyon manatı məhz özünüməşğulluq proqramlarının genişləndirilməsinə sərf olunacaq. Qanun layihəsi üçüncü oxunuşda təsdiq edildi.

"Azərbaycan Respublikasında 2021-ci il üçün yaşayış minimumu haqqında" (üçüncü oxunuş) qanun layihəsini İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili təqdim etdi. Bildirdi ki, 2021-ci il üçün yaşayış minimumu ölkə üzrə 190 manatdan 196 manata, əmək qabiliyyətli əhali üçün 201 manatdan 207 manata, pensiyaçılar üçün 157 manatdan 162 manata, uşaqlar üçün isə 170 manatdan 175 manata qədər artırılıb. Qısa müzakirədən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

"Azərbaycan Respublikasında 2021-ci il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihəsi (üçüncü oxunuş) barədə Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev məlumat verdi. Bildirdi ki, 2021-ci il üçün ehtiyac meyarının həddi 170 manat məbləğində nəzərdə tutulub. Bu, cari ildəkindən 10 manat və ya 6,2 faiz çoxdur. Qanun layihəsi üçüncü oxunuşda təsdiq olundu.

"Büdcə sistemi haqqında" qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsi ilə bağlı məlumat verən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili dedi ki, dəyişiklik texniki xarakter daşıyır. Azərbaycanda 2019-cu ildən DSMF-nin təşkilati-hüquqi forması dəyişildiyindən qanunda "müvafiq icra hakimiyyəti" əvəzinə Dövlət Sosial Müdafiə Fondunun adının yazılması təklif olunur. Qanun layihəsi üçüncü oxunuşda qəbul olundu.

Komitə sədri Musa Quliyev mahiyyətcə bir-birinə yaxın olan növbəti üç qanun layihəsi barədə də məlumat verdi. Bildirdi ki, "Sosial sığorta haqqında", "Əmək pensiyaları haqqında" və "Sosial müavinətlər haqqında" qanunlarda edilən dəyişikliklər ölkəmizdə sosial təminat sahəsinin daha da yaxşılaşdırılmasına xidmət edəcək. Qanun layihələri üçüncü oxunuşda təsdiq edildi.

"Azərbaycan Respublikası Milli Məclisinin 2021-ci il üçün xərclər smetası haqqında" və "Azərbaycan Respublikası Hesablama Palatasının 2021-ci il üçün xərclər smetası haqqında" məsələlər də qəbul edildi.

Deputatlar "Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında" Əsasnaməyə" dəyişiklik edilməsi barədə" (üçüncü oxunuş) və "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələrinə müsbət münasibət bildirdilər.

Daha sonra iclasda ikinci oxunuşda müzakirəyə təqdim olunmuş 4 qanun layihəsinə baxıldı. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli "Müflisləşmə və iflas haqqında" həmçinin Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələri barədə məlumat verdi. Bildirdi ki, təklif olunan dəyişikliklər Dünya Bankının "Douing Business" hesabatında "Müflisləşmənin həlli", "Vergilərin ödənilməsi" və "Əmlakın qeydiyyatı" indikatorları üzrə kreditorların hüquqlarının müdafiəsinin təkmilləşdirilməsi, habelə sərf olunan müddət, prosedur və xərclərin optimallaşdırılması məqsədilə hazırlanıb və ölkəmizin "Douing Business" hesabatında qeyd olunan indikatorlar üzrə mövqeyinin daha da yaxşılaşdırılmasını nəzərdə tutur. Qeyd etdi ki, bu reytinqlərdə mövqeyimiz nə qədər yaxşı olsa, biz xarici investorların və beynəlxalq təşkilatların Azərbaycana dəvət edilməsi işində daha uğurlu fəaliyyət göstərəcəyik. Hər iki qanun layihəsi ikinci oxunuşda qəbul olundu.

Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında (ikinci oxunuş) daha bir qanun layihəsi barədə isə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili məlumat verdi. Bildirildi ki, qanuna iki maddənin əlavəsi nəzərdə tutulur. Onlardan biri 2 il müddətinə ölkəyə idxal olunacaq koronavirus infeksiyasına qarşı vaksinlərin və şprislərin ƏDV-dən azad olunmasını nəzərdə tutur. Digər maddə isə illik emalı 3 milyon tondan az olmayan neft emalı zavodlarının yenidən qurulması zamanı gətirilən mal və materialların əlavə dəyər vergisindən 2 il müddətinə azad olunmasını ehtiva edir. Qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Tahir Mirkişili "Dövlət borcu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini də (ikinci oxunuş) müzakirəyə təqdim etdi. Müzakirədən sonra deputatlar bu layihəyə müsbət münasibət bildirdilər.

Rəşad CƏFƏRLİ,
"Azərbaycan"

Azərbaycan və Türkiyə hərbi istehkamçıları mühəndis təminatı üzrə tapşırıqları icra edirlər

İşğaldan azad olunan Ağdam rayonu ərazisində Türkiyə Silahlı Qüvvələrinin ölkəmizdə olan minadan təmizləmə üzrə heyəti Azərbaycan Mühəndis Qoşunlarının bölmələri ilə birgə mühəndis təminatı üzrə tapşırıqları icra edir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hər iki ölkənin hərbi istehkamçıları əkin sahələri və əlaqə yollarını mina və partlamamış mərmilərdən təmizləyərək istifadəyə yararlı vəziyyətə gətirirlər.

Azad olunmuş ərazilərimizdə partlamamış mərmilərin, minaların aşkarlanması və zərərsizləşdirilməsi üzrə tədbirlər davam etdirilir.

Azad olunmuş ərazilər ölkə iqtisadiyyatının inkişafına böyük töhfə verəcək

Dağlıq Qarabağ probleminin Azərbaycanın Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Ordumuz tərəfindən həll olunması xalqımızın 30 illik iztirabına son qoydu. Ölkəmizin ərazi bütövlüyünün təmin olunması ilə yüz minlərlə məcburi köçkün öz tarixi və müqəddəs torpaqlarına geri qayıdacaqlar. Bundan əlavə, torpaqların azad edilməsi ilə Azərbaycanın iqtisadi inkişafında yeni dövr başlanacaqdır.

Xatırladaq ki, dövlət müstəqilliyinin ilk illərində bazar iqtisadiyyatına rahat keçidin təmin edilməsi məqsədilə islahatlar aparılmışdır. Burada ilk olaraq, 1994-cü ildə Xəzər enerji mənbələrindən geniş istifadə etməyə başlanıldığı dövrü vurğulamaq yerinə düşərdi. Məhz enerji resurslarından istifadə edilməsi nəticəsində Azərbaycan dünyada sürətlə inkişaf edən iqtisadiyyatlardan birinə sahib oldu.

Azərbaycanın əsas makroiqtisadi üstünlükləri qiymət sabitliyi baxımından makroiqtisadi mühitin mövcudluğu, ümumi milli məhsulda xarici borcun aşağı olması, sabit məzənnəsidir. Ötən əsrin 90-cı illərindən bəri Dağlıq Qarabağ münaqişəsi neftin qiymət dəyişikliyi ilə birgə ölkə iqtisadiyyatı üçün ciddi təhlükələrdən idi. Sərhədlər daxilində həll olunmamış bir problem olduğu üçün xarici investorları ölkəyə cəlb etmək bir qədər çətinləşir və xüsusilə boru kəmərlərinin inşası ilə əlaqədar investisiyalar bölgənin müharibə zonası olduğu üçün risk altında idi. Lakin bu problem də uğurla həllini tapdı, sərmayədarlarda böyük inam formalaşdı. Xarici investorlarda müharibədən sonrakı dövrdə ölkəyə yeni dalğada investisiya yatırmaqda marağı artıracaqdır.

Torpaqların işğaldan azad edilməsi Azərbaycanın gələcəyi ilə bağlı bir çox suallara aydınlıq gətirdi. Belə ki, ərazilərin işğaldan azad olunması Azərbaycan iqtisadiyyatının yüksəlişinə mühüm töhfələr verəcək. Digər tərəfdən, Azərbaycan hökumətinin təhlükəsizlik zəmanəti investorları sərmayə yatırmağa daha inamlı edir. Müharibədən dərhal sonra "Azerenerji"nin İtaliyanın "Ansaldo Energia" şirkəti ilə azad edilmiş torpaqlarda enerji infrastrukturunun yaradılması barədə müqavilə imzalaması buna misal ola bilər.

İşğal dövründə Dağlıq Qarabağ ətrafındakı yaşayış məntəqələri tamamilə dağıdıldığından onların bərpasına ehtiyac var.

Hazırda bu ərazilərdə təxminən 1,5 milyon hektar sahə kənd təsərrüfatı məhsullarının yetişdirilməsi üçün yararlıdır ki, bu da yeni istehsal zəncirinin yaradılmasına gətirib çıxaracaq. Digər tərəfdən, vətəndaşlar yeni iş yerləri ilə təmin olunacaqdır. Qarabağın zəngin su ehtiyatları var və bu ehtiyatlar su çatışmazlığından əziyyət çəkən Azərbaycanın digər ərazilərinin (aran) suvarılmasına kömək olacaqdır. Buna Tərtər bölgəsində yerləşən Sərsəng su anbarını misal göstərmək olar ki, ümumi sahəsi 100 min hektar olan anbar geniş suvarma suyu təmin etmək gücünə malikdir. Ölkənin su ehtiyatları məhdud olduğundan Sərsəng və digər su anbarları (Suğovuşan, Xudafərin) kənd təsərrüfatı istehsalını artırmaq üçün əhəmiyyətli rol oynayacaqdır. Təbii qaynaqlara gəldikdə, işğala qədər 5 qızıl, 7 civə, 2 mis, 1 mis, qurğuşun və sink, 1 kömür və 11 mineral su yatağı kimi 163 fərqli mineral yataq məlum idi. 1997-ci ilin sentyabrında Ermənistan Kanadanın "First Dynasty Mines" şirkəti ilə müqavilə imzalayaraq Azərbaycan Respublikasının işğal olunmuş bölgələrinin təbii mineral ehtiyatlarının talan edilməsinə başlamışdı. İndi Azərbaycan hökuməti ümumi ziyanı hesablamaq üçün beynəlxalq audit aparmaq və təzminat tələb etmək üçün beynəlxalq məhkəməyə müraciət etmək niyyətindədir. Təbii sərvətlərdən əlavə bölgə turizmin inkişaf etdirilməsi üçün də böyük potensiala malikdir. Dağlıq ərazilər dünyanın hər yerindən turist cəlb etmək üçün yaxşı fürsətlər verir.

Kommunikasiyaların bərpası məqsədilə Prezident İlham Əliyev Bərdə-Ağdam dəmir yolunun inşası haqqında sərəncam imzalamışdır. Azərbaycan dəmir yollarına Prezidentin Ehtiyat Fondundan 5 milyon manat ayrılıb. Rabitə sisteminin bərpası ölkənin regional inkişafına öz təsirini göstərəcək və Qarabağ bölgəsinin Azərbaycan iqtisadiyyatına inteqrasiyasını sürətləndirəcəkdir. Üçtərəfli müqaviləyə görə, yaxın vaxtlarda Naxçıvana dəmir və magistral yollarının inşasına başlanacaqdır. Naxçıvana dəmir yolu və magistral yol çəkildikdən sonra Azərbaycan malları Türkiyəyə və Avropa bazarına daha asanlıqla çatdırılacaqdır.

İşğaldan azad edilmiş torpaqlar ölkədə iqtisadiyyatın inkişafına böyük təsir göstərəcəkdir. Turizm sektorunun çiçəklənməsi, yeni iş yerlərinin açılması, ölkəyə investorların cəlb edilməsi bunun üçün geniş imkanlar yaradacaqdır.

Zeynal KAZIMOV,
Macarıstanın Szeged Universitetinin Beynəlxalq İqtisadiyyat və Biznes üzrə magistri

Azərbaycan Mühəndislik Akademiyası - 15 il

Əsas diqqət elmi nailiyyətlərə yönəldilir

Bu günlərdə Azərbaycan Mühəndislik Akademiyasının 15 illiyi tamam olub. AZƏRTAC bu münasibətlə akademiyanın prezidenti, akademik Arif Paşayevin məqaləsini təqdim edir.

2020-ci il noyabrın 30-da Azərbaycan Mühəndislik Akademiyasının təsis olunmasının 15 ili tamam oldu. Bu illər ərzində akademiya formalaşıb, inkişaf edib və cəmiyyətdə özünün layiqli yerini tutub. On beş il tarix üçün böyük vaxt olmasa da, akademiya bu qısa müddətdə ölkə iqtisadiyyatının inkişafı üçün əhəmiyyət kəsb edən bir sıra mühüm layihələrin yerinə yetirilməsində bilavasitə yaxından iştirak edib.

Azərbaycan elminin tarixində bir çox məşhur adlar, kəşflər və nailiyyətlər var. Baxmayaraq ki, elm adamının yolu bəzən çətin olsa da, bu, öz işinə sonsuz bağlı olan, yorulmadan yeniliyə can atan yaradıcı insanları birləşdirən, cəmiyyətdə şəksiz nüfuz sahibi olan bir peşədir. Elm və texnika hər zaman cəmiyyətin inkişafının mühərriki, milli iqtisadiyyatın, innovasiyaların və elmi-texniki tərəqqinin təməli olaraq qalır. Alimlər və mühəndislərin praktik tədqiqatlarının inkişafı bu gün qeyd-şərtsiz dövlət prioritetidir.

Akademiya öz sıralarında aparıcı elmi-tədqiqat təşkilatlarının və ali məktəblərin elmlər doktorları və namizədlərini, professor və dosentlərini, mühəndislik elmi istiqamətlərinin yaradıcılarını birləşdirir. Akademiyanın üzvləri arasında Dövlət mükafatı laureatları, Əməkdar elm və texnika xadimləri və digər fəxri adlara layiq görülənlər var. Hazırda Azərbaycan Mühəndislik Akademiyasının həqiqi və müxbir üzvlərinin sayı 45 nəfərdir ki, bunlardan da 24 nəfəri akademik, 21 nəfəri müxbir üzv, 1 nəfəri akademiyanın fəxri üzvü və 4 nəfəri isə akademiyanın əcnəbi üzvüdür.

Ölkənin elmi, texniki və iqtisadi potensialı bilik tutumlu sektorun miqyasından və qabaqcıl texnologiyaların istifadəsindən çox asılıdır. Əgər əvvəllər iqtisadiyyatımızın prioriteti neft sektoru idisə, bu gün neft sənayesinin inkişafı ilə paralel olaraq, iqtisadi inkişaf üçün yeni imkanlar da axtarılır. Ölkə postneft dövrünə qədəm qoyub. Azərbaycan Prezidenti İlham Əliyev bir çox çıxışlarında da qeyd etdiyi kimi, bu gün "öz iqtisadi strategiyamızı elə formalaşdırmalıyıq ki, sanki neft və qazımız yoxdur". Buna əsaslanaraq, əsas diqqət elmi nailiyyətlərə və yeni resursların axtarışına yönəldilir və eləcə də maddi, informasiya və texnoloji yeniliklərin bazası genişlənir.

Məlum olduğu kimi, Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə dövlət proqramı həyata keçirilir. Azərbaycanda müasir kosmik sənayenin inkişafında keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı telekommunikasiya peyklərinin orbitə çıxarılmasından - 2008-ci il noyabrın 4-dən qoyulub. Orbitə təxminən 154 televiziya kanalı və 30-dan çox radiostansiyanın yayımlanmasını apara bilən telekommunikasiya peyki buraxıldı. Cənubi Qafqazda aparıcı peyk operatoru "Azerkosmos" tərəfindən idarə olunan "Azerspace-1" və "Azerspace-2" telekommunikasiya peykləri Avropa, Afrika, Yaxın Şərq, Qafqaz və Orta Asiyadakı müştərilərini etibarlı, genişzolaqlı və genişyayımlı həllərlə təmin edir. Yer səthinin məsafədən zondlaşdırması peyki olan "Azersky" yüksək göstərici ilə (1,5 m təsviri) Yerin müşahidəsi və geoinformasiyası üçün keyfiyyətli xidmətlər göstərir.

Qeyd edək ki, ölkəmiz genişmiqyaslı forumların, konfransların və simpoziumların, eləcə də mədəniyyətlərarası dialoqların və digər tədbirlərin ən yüksək səviyyədə təşkili və keçirilməsi sahəsində dünyada müsbət imic qazanıb. Ölkəmizdəki sabitlik beynəlxalq tədbirlərin yüksək səviyyədə keçirilməsinə zəmanət verir. Bu nöqteyi-nəzərdən Beynəlxalq Astronavtika Konqresinin bütün MDB məkanında yarım əsrlik fasilədən sonra 2022-ci ildə məhz Bakıda keçirilməsi barədə qərar tam məntiqlidir. Özündə 68 ölkədən 398 təşkilatı birləşdirən Beynəlxalq Astronavtika Federasiyası kosmik sahədə fəaliyyət göstərən ən mötəbər təşkilatdır. 1950-ci ildən bəri hər il dünyanın fərqli şəhərlərində keçirilən Beynəlxalq Astronavtika Konqresi kosmik sənayedə təşkilatın əsas tədbiri kimi qeyd edilə bilər. Konqres zamanı iştirakçılar kosmik sahəyə aid olan aktual trendləri və ən son innovasiyaları izləmək fürsəti əldə edirlər. "Qlobal çağırışlar və imkanlar: kosmosa şans verək" mövzusunda konqresin keçirilməsinin Azərbaycana həvalə olunması kosmik sahədən olan müxtəlif şirkət və təşkilatlarla daha sıx əlaqələrin qurulması, ölkəmizə kosmik texnologiyaların transferi prosesinin sürətləndirilməsi, eləcə də insan resursunun inkişafı və Azərbaycanın beynəlxalq arenada etibarlı tərəfdaş nüfuzunun daha da möhkəmlənməsinə əhəmiyyətli töhfə verəcək. Ölkəmiz öz tarixində ilk dəfə olaraq, dünya kosmos ictimaiyyətinin 6000-dən çox nümayəndəsini - aparıcı kosmik agentliklərin, elm mərkəzlərinin və beynəlxalq təşkilatların rəhbərlərini, eləcə də məşhur alimləri, özəl sektordan olan yüksək səviyyəli peşəkarları, gənc tədqiqatçıları və tələbələri bir araya gətirəcək.

Azərbaycan Mühəndislik Akademiyası "Azərbaycan Hava Yolları" (AZAL) QSC ilə birgə aviasiya sahəsində kadrların peşəkarlıq səviyyəsinin inkişafı və təkmilləşdirilməsi, maddi-texniki bazasının genişləndirilməsi istiqamətində fəal işlər aparır. Azərbaycan Milli Aviasiya Akademiyasında yerləşən Pilotların Hazırlıq Mərkəzi Azərbaycan mülki aviasiyası kadrlarının hazırlanması üçün əsas baza hesab olunur. Bu il burada "Embraer E-190" tipli təyyarələr üçün son nəsil aviasiya trenajoru quraşdırılıb. Mərkəzdə, həmçinin "Embraer E-190" və "Boeing 787 Dreamliner" tipli təyyarələr üçün aviasiya trenajorları da yerləşdirilib. Bu trenajorda Azərbaycan aviaşirkətlərinin pilotları ilə yanaşı, xarici aviaşirkətlərin də pilotları təlim keçirlər.

Ölkəmiz üçün ən perspektivli resurslardan biri də tranzit potensialıdır. Məlum olduğu kimi, Azərbaycan son dərəcə əlverişli coğrafi mövqeyə malikdir, Avropa ilə Asiyanın qovşağında yerləşir və qədim zamanlardan dünyanın iki hissəsini birləşdirən qədim ticarət yolları buradan keçib. Bu strateji coğrafi mövqedən səmərəli istifadə, tranzit və nəqliyyat xidmətlərinin inkişafı, Azərbaycanın beynəlxalq nəqliyyat və logistika mərkəzinə çevrilməsi ölkə iqtisadiyyatının daha bir vacib sahəsidir. Ötən il dörd mühüm layihəyə start verildi: Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə hərəkət edəcək beynəlxalq sərnişin qatarı, Sabunçu dəmir yolu stansiyası kompleksi, Abşeron dairəvi dəmir yolunun Sabunçu-Pirşağı xətti və s. İstirahət yerlərində turistlərin rahatlığı üçün dəmir yolu xətləri çəkilir. "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin bir hissəsi olan Rusiya-Azərbaycan sərhədində yeni körpü istifadəyə verilib və Astara-Rəşt dəmir yolunun tikintisi isə davam edir.

Dəmir yollarından əlavə, Xəzər Dəniz Gəmiçiliyinin strukturunun iki istiqamətdə modernləşdirilməsi üzrə işlər də aparılır. Bakı-Aktau-Bakı, Bakı-Türkmənbaşı-Bakı, həmçinin Bakı Beynəlxalq Limanının tikintisini başa çatdırmaq və Ələt qəsəbəsində bütün infrastruktur və istehsal sahələri ilə azad iqtisadi zona yaratmaq istiqamətində işlər davam etdirilir. Tranzit yük daşımalarını artırmaq üçün bütün bu strukturların böyük rolu var.

İnfrastrukturun və logistik inkişafın Azərbaycan iqtisadiyyatı üçün son dərəcə vacibliyini nəzərə alan Azərbaycan Mühəndislik Akademiyasının mütəxəssisləri də bu layihələrdə fəal iştirak ediblər.

Akademiyamızın üzvləri Azərbaycanın enerji sektorunda mühüm layihə olan Trans-Anadolu qaz boru kəməri (TANAP, "Cənub qaz dəhlizi" layihəsinin bir hissəsi) qlobal layihəsində iştirak edirlər. TANAP Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" qaz-kondensat yatağından hasil olunacaq qazın Türkiyəyə və bu ölkədən də Avropaya tədarükünü təmin edir. Trans-Anadolu qaz boru kəməri XXI əsrin enerji tarixinə düşəcək böyük bir layihədir və yeddi ölkəni - Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya və İtaliyanı birləşdirir. Növbəti mərhələdə Bosniya və Herseqovina, Xorvatiya və Çernoqoriyanın da ona qoşulacağı gözlənilir. Bu layihənin davamı olaraq Trans-Adriatik qaz boru kəməri (TAP) layihəsi istismara veriləcək. TAP marşrutu Albaniya və Adriatik dənizindən keçərək Türkiyə-Yunanıstan sərhədindən İtaliyanın cənubu boyunca uzanır. "Cənub qaz dəhlizi" Xəzər regionu ilə Avropa ölkələrinin bazarları arasında enerji körpüsü olacaq və Avropaya enerji tədarükünün şaxələndirilməsinə kömək edəcək. Azərbaycanın "Şahdəniz" qaz kondensat yatağının ikinci fazasının işlənməsi "Cənub qaz dəhlizi" boyunca tədarük üçün əsas mənbəyə çevriləcək.

"Azəralnerji" Səhmdar Cəmiyyəti Azərbaycan Mühəndislik Akademiyası üzvlərinin iştirakı ilə Cənubi Qafqaz bölgəsində ən yüksək faydalı iş əmsalına malik 400 meqavat (MWt) gücündə yeni "Şimal-2" kiçik su elektrik stansiyası inşa edib.

Akademiyanın alimləri və mühəndisləri neft-kimya texnologiyaları sahəsində hidrogen sulfid və karbon qazı olan neft və qaz yataqlarının lay sularında metalın qorunması üçün korroziya inhibitorlarının yeni tərkibinin hazırlanması üzərində işləyirlər. İnhibitorları işləyib hazırlayarkən neftkimya sintezi üçün xammal mənbəyi kimi təbii və sintetik doymamış üzvi turşular istifadə edilib. Lay sularında karbon dioksidlə doymuş metalı qoruya bilən, çoxfunksiyalı və yüksək effektiv korroziya inhibitorları əldə olunub.

Regionlarda sənaye innovasiya texnologiyalarının tətbiqi sahəsində ölkə əhalisini içməli su ilə təmin etmək üçün inşaat konstruksiyalarının tikintisi davam edir. Sutkada 36 və 60 ton tutumu olan, mürəkkəb və yüksək çirklənmiş tərkibli mənbə suyu olan yaşayış məntəqələri üçün içməli suyun təmizlənməsinə xidmət edən modul tipli cihazın yeni avtomatik idarəetmə bloku hazırlanıb. Bu layihə akademiyanın ölkəmizdə sənaye innovasiya texnologiyalarının kənd yerlərində tətbiq olunmasına yönəlmiş ən əhəmiyyətli layihələrindən biridir.

Aqrar-sənaye sektorunda kənd təsərrüfatının inkişafı sahəsində ölkənin ərzaq təhlükəsizliyini təmin etmək məqsədilə quraqlığa davamlı kənd təsərrüfatı məhsulları istehsalının inkişafı, Azərbaycanın dağətəyi quraq zonalarında və yamaclarında, düzənliklərdə eroziya və sudan səmərəli istifadə üzrə proqramları xüsusi qeyd etmək lazımdır. Akademiyamızın mütəxəssisləri taxıl anbarlarının dezinfeksiya edilməsi və əkinöncəsi emalı üçün ozonatorlar tətbiq etməyə davam edirlər. Kənd təsərrüfatının inkişafı üzrə dövlətlərarası proqram çərçivəsində Azərbaycan Rusiya Federasiyası ilə sıx əməkdaşlıq edir.

Beynəlxalq əməkdaşlıq sahəsində Azərbaycan Mühəndislik Akademiyası bir sıra ölkələrin, xüsusən də Beynəlxalq Mühəndislik Akademiyası və Rusiya, Özbəkistan, Ukrayna, Belarus və Sloveniyanın mühəndislik akademiyaları ilə sıx əməkdaşlığı davam etdirir. İslam Ölkələri Mühəndislik İnstitutları Federasiyasının üzvü olan akademiyamız bu təşkilatın üzvləri ilə də əməkdaşlığı genişləndirir.

Bizim mühəndislik cəmiyyətimizin fikrincə, əsas resursumuz istedadlı və savadlı insanlar olmalıdır. Kadr potensialı əsasən Milli Aviasiya Akademiyasının bazasında Texnopark və Tələbə Yaradıcılıq Evində təmin olunur. Həmçinin Azərbaycan Mühəndislik Akademiyasının təşəbbüsü ilə Qərb Universitetində də tələbələr üçün texnopark inşa edilib. Akademiyamız həm Azərbaycan universitetlərində təhsilin keyfiyyətinin idarə olunması, həm də mühəndis ixtisası da daxil olmaqla, yüksək ixtisaslı mütəxəssislərin hazırlanması istiqamətində işləyir.

Hər il Milli Aviasiya Akademiyasında aviakosmik problemlərin həllində gənclərin kreativ potensialının üzə çıxarılmasına və inkişafına həsr edilmiş "Fevral məruzələri" keçirilir. Məruzələrin təşkilatçıları Azərbaycan Respublikasının Təhsil Nazirliyi, "Azərbaycan Hava Yolları" QSC, Milli Aviasiya Akademiyası, Azərbaycan Mühəndislik Akademiyası və "Azərkosmos" ASC-dir. "Fevral məruzələri" çərçivəsində "Aviakosmik problemlərin həllində gənclərin yaradıcı potensialı" mövzusunda hər il beynəlxalq elmi-praktik gənclər konfransı, həmçinin "Aviakosmik problemlərin həllində gənclərin yaradıcı potensialı" mövzusunda bir sıra elmi-praktik seminarlar və ustad dərsləri keçirilir.

Ötən il beynəlxalq aləmdə böyük nüfuz qazanmış "Azərbaycan Mühəndislik Akademiyasının Xəbərləri" elmi-texniki jurnalının ilk sayının işıq üzü görməsinin 10 ili tamam oldu. On il müddətində jurnal innovasiya texnologiyaları sahəsindəki nailiyyətləri əyani surətdə göstərib və onların inkişaf vektorunu istiqamətləndirib. Jurnal müxtəlif aktual problemləri diqqətə çatdırmaqla fərqlənir və elmi mühəndis düşüncəsinin mənbəyini göstərir. Belə ki, tədqiqatçılar, mütəxəssislər buradan yeni ideyalar əldə edir, öz yeni texniki işləri və təcrübələri, düşüncələri ilə bağlı fikir mübadiləsi aparır. Bu da mühüm çoxşaxəli istiqamətlərin işlənməsinə əhəmiyyətli töhfə verir. Həmçinin aviakosmos, mexanika, maşınqayırma, energetika, neft-kimya, iqtisadiyyat, ekologiya və bir çox yeni inqilabi sənaye sahələrinin - nanomateriallar və nanotexnologiyalar kimi istiqamətlərin inkişafına əhəmiyyətli dərəcədə təkan verir. Jurnal Azərbaycanın və xarici ölkələrin elmi həyatında fəal iştirak edir. Akademiyanın elmi orqanı olan bu jurnal dünya alimlərinin üzləşdiyi problemlərin həlli istiqamətlərinə üstünlük verir. Onun müəlliflərinin və abunəçilərinin coğrafiyası kifayət qədər genişdir. Jurnal alimlər və mühəndislərə öz konsepsiya, ideya, kəşf və ixtiraları haqqında sözlərini demək üçün çox ciddi tribunadır. "Azərbaycan Mühəndislik Akademiyasının Xəbərləri" jurnalı məqalələri üç dildə dərc edir. Jurnal beynəlxalq analitik elmi sitat sistemi "SCOPUS"da qeydə alınıb və kommersiya məlumat bazasının köməyi ilə materialları paylaşır. Jurnalın tam mətn elektron versiyası Rusiya Universal Elmi Elektron Kitabxanasının bazasında mövcuddur və "Rusiyanın elmi sitat indeksləşməsi" (RESİ) layihəsinə daxil edilib və onun təyin etdiyi əmsalla reytinqi müəyyənləşdirilir.

Ötən il ərzində akademiyamızın üzvləri onlarca kitab, monoqrafiya, dərslik, o cümlədən "Nanostrukturirovanie poverxnostey", "Fractal approach to tribology of elastomers", "Tribologiya", "Mühəndislik fəlsəfəsi" traktatı və s. nəşr etdiriblər. Təxminən 65 elmi məqalə dərc olunub, 8 patent alınıb (həmçinin Avrasiya patenti). Mühəndisliyin inkişafında böyük töhfələrə görə akademiya üzvləri dövlət, hökumət və ictimai təşkilatlar tərəfindən mükafatlandırılıb, 2 orden və 8 medalla təltif olunub. Mühəndislik işlərinin həyata keçirilməsinə görə 1 nəfər Əməkdar mühəndis, 3 nəfər isə İlin mühəndisi fəxri adının diplomları və xatirə medalları ilə mükafatlandırılıb. Akademiyanın 1 üzvü Elm və İnnovasiya Mükafatı laureatı olub, birinci dərəcəli diplomla təltif edilib. Ötən bir il ərzində 6 konfrans, 3 "dəyirmi masa" və 3 seminar keçirilib. İlin yekunlarına əsasən, akademiyanın jurnalında dərc olunan üç ən yaxşı elmi məqalənin seçilməsi üzrə müsabiqə keçirilib, qaliblərə diplom və pul mükafatları təqdim edilib. Gənclərin iştirakı ilə "CanSat Azərbaycan - 2019" müsabiqəsi keçirilib.

Akademiyamız, onun elmi və mühəndis qüvvələri Azərbaycan iqtisadiyyatının inkişafı üçün mühüm vəzifələrin həyata keçirilməsində fəal iştirak edirlər. Biz sənaye-innovasiya sektoruna xüsusi diqqət ayırırıq, habelə Beynəlxalq Mühəndislik Akademiyası ilə birlikdə böyük elmi layihələrin həyata keçirilməsi üçün yeni təkliflər hazırlayırıq.

Ötən il iqtisadiyyatın canlanması, böyük infrastruktur layihələrinin reallaşdırılması və genişmiqyaslı regional və beynəlxalq sammitlərin keçirilməsi kimi bir çox yeni layihələrin iştirakçısı olan Azərbaycan Mühəndislik Akademiyası üçün məhsuldar bir il olub.

Ümidvaram ki, akademiyanın uğurları daha da artacaq, gələcəkdə müxtəlif ölkələrlə beynəlxalq əməkdaşlıq inkişaf edəcək. Akademiyamızın digər ölkə akademiyaları ilə qarşılıqlı münasibətləri genişlənəcək, mühəndis fikrinin dünya ictimaiyyətinə inteqrasiyası daha da sürətlənəcək.

Mühəndislik Akademiyasının çoxsaylı üzvlərini, ölkəmizin elmi-texniki ictimaiyyətini 15 illik yubiley münasibətilə ürəkdən təbrik edir və yaradıcılıq fəaliyyətlərində yeni-yeni uğurlar arzulayıram.

Akademik Arif PAŞAYEV,
Azərbaycan Mühəndislik Akademiyasının Prezidenti

Qüdrətli dövlətin güclü büdcəsi

2021-ci ilin dövlət büdcəsinin hazırlanması, müzakirəsi və qəbul edilməsi əvvəlki illərdən fərqli olaraq Azərbaycan xalqının çox gərgin və həyəcanlı anlar yaşadığı və son nəticədə şərəfli qələbə ilə yekunlaşan dövrə təsadüf etmişdir. Belə ki, cari ilin əvvəlində koronavirus (COVID-19) pandemiyasının baş verməsi və tüğyan edərək bütün dünyanı çənginə alması digər ölkələr kimi, Azərbaycan Respublikasının sosial, iqtisadi inkişafına da öz mənfi təsirini göstərmiş, bir çox sahələrdə nəzərdə tutulan layihə və proqramların həyata keçirilməsinə əngəl törətmişdir.

Digər tərəfdən pandemiyanın ölkə iqtisadiyyatının inkişafına mane törətməsinin davam etdiyi bir vaxtda mənfur qonşumuz Ermənistan tərəfindən iyul ayında Tovuz rayonu istiqamətində ərazimizə hücum əməliyyatlarına cəhd göstərilmiş və Azərbaycan Silahlı Qüvvələri tərəfindən ermənilərin bu qanlı təxribatının qarşısı qətiyyətlə alınmışdır. Lakin azğınlaşmış düşmən bundan özünə lazımi dərs almaq əvəzinə sentyabr ayının 27-də ölkəmizin ərazisində yeni torpaqlar zəbt etmək xülyası ilə hücuma keçmişdir. Bu hücumu dəf etmək, dövlətimizin müstəqilliyini və suverenliyini qorumaq, ölkəmizin ərazi bütövlüyünü təmin etmək üçün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan möhtərəm İlham Əliyevin əmri ilə ordumuz əks-hücum əməliyyatına başlamışdır. Azərbaycan xalqı və Azərbaycan Silahlı Qüvvələri Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə dəmir yumruq kimi birləşib qardaş Türkiyədən, xaricdə yaşayan azərbaycanlılardan, bizə dost olan dövlətlərdən mənəvi dəstək alaraq Vətən müharibəsinə başladı və vəhşi düşməni 44 gün ərzində darmadağın edərək təslim olmağa məcbur etdi. Cəmi ay yarım davam edən bu Vətən müharibəsində Azərbaycan Respublikası Ermənistan üzərində qətiyyətli və şərəfli hərbi-siyasi qələbə qazandı və 30 ilə yaxın müddətdə himayədarlarının köməyi ilə ermənilərin işğalda saxladıqları torpaqlarımız azad edildi.

Pandemiyanın hələ də davam etdiyi və təcavüzkar Ermənistanla qısamüddətli də olsa müharibə apardığımız, habelə əsas ixrac məhsulumuz olan neftin qiymətinin aşağı olduğu bir dövrdə 2021-ci ilin dövlət büdcəsi hazırlanaraq qəbul edilmişdir. Pandemiyanın və müharibənin vurduğu zərər nəticəsində 2020-ci ildə dövlət büdcəsinin gəlirləri 2019-cu ilə nisbətən çox cüzi miqdarda azalmış və büdcənin xərcləri isə 2.5 milyard manat artmışdır. Buna baxmayaraq respublikamızın 2021-ci il dövlət büdcəsinin 2020-ci ilə nisbətən gəlirləri 1.3 milyard manat və xərcləri 1.6 milyard manat artımla təsdiq edilmişdir. 2021-ci ilin dövlət büdcəsinin gəlir və xərclərinin əvvəlki illərə nisbətən əsaslı artımla təsdiq edilməsi gələn ilin dövlət büdcəsinin əsas xüsusiyyətlərindən biri olmaqla yaranmış vəziyyətlə bağlı ölkəmizin qarşısında duran yeni çağırışlardan irəli gələn şərəfli və məsuliyyətli vəzifələrin icrası üçün maliyyə təminatının yaradılmasıdır. Bu da onu sübut edir ki, möhtərəm Prezident İlham Əliyevin son 17 il ərzində Azərbaycan Respublikasına rəhbərlik etdiyi müddətdə iqtisadi, sosial, ordu quruculuğu və milli təhlükəsizlik sahələrində uzaqgörənlik və uğurla həyata keçirdiyi siyasət nəticəsində ölkəmizdə davamlı və dayanıqlı iqtisadiyyat yaradılmış, əhalinin sosial rifah halı əsaslı surətdə yaxşılaşmış, rəşadətli və yenilməz ordu formalaşmışdır. Məhz bunun nəticəsidir ki, Azərbaycan Respublikası Vətən müharibəsində Ermənistan üzərində şərəfli hərbi-siyasi qələbə qazanaraq, ikinci müharibə hesab edilən görünməz düşmən - pandemiyaya qarşı mübarizə aparan ən uğurlu ölkələr sırasında yer alıb. Bununla da müstəqillik əldə etdikdən sonra ilk dəfə ərazi bütövlüyü təmin edilən ölkəmizin dövlət büdcəsi hazırlanıb təsdiq edilmişdir.

2021-ci ilin dövlət büdcəsinin gəlirləri hesablanarkən koronavirus (COVID-19) pandemiyasının 2020-ci ildəki mənfi təsirinin 2021-ci ildə də davam etməsi, neft hasilatının azalmasına dair OPEK + sazişi, enerji bazarında baş verən dəyişikliklər, habelə beynəlxalq maliyyə qurumlarının proqnozları və ölkəmizin makroiqtisadi göstəriciləri nəzərə alınmışdır. Layihə hazırlandıqda neftin bir bareli-nin qiyməti 40 dollardan hesablanmış və 2021-ci il dövlət büdcəsinin gəlirləri 25427,0 milyon manat nəzərdə tutulmuşdur ki, bu da 2020-ci ilin proqnozu ilə müqayisədə 1303,0 milyon manat və yaxud 5,4 faiz çoxdur. Dövlət büdcəsinin gəlirlərinin 54,2 faizi və ya 13776,0 milyon manatı neft sektorunun, 45,8 faizi və ya 11651,0 milyon manatı isə qeyri-neft sektorunun payına düşür.

Neft sektoru üzrə dövlət büdcəsinin gəlirlərinin 88,6 faizini və ya 12200,0 milyon manatını Azərbaycan Respublikasının Dövlət Neft Fondundan transfert, 11,4 faizini və ya 1576,0 milyon manatını isə vergi orqanlarının xətti ilə neft sektorundan daxilolmalar təşkil edir.

Qeyri-neft sektoru üzrə dövlət büdcəsinin gəlirlərinin 48,7 faizini və ya 5674,0 milyon manatını vergi orqanlarının, 33,5 faizini və ya 3900,0 milyon manatını gömrük orqanlarının xətti ilə daxilolmalar, 7,6 faizini və ya 880,0 milyon manatını dövlət borcu və zəmanəti üzrə ödəniklərin Təminat Fondundan transfert, 2,1 faizini və ya 250,0 milyon manatını Mərkəzi Bankın mənfəətindən ayırmalar, 8,1 faizini və ya 947,0 milyon manatını digər gəlirlər təşkil edir.

2021-ci ilin dövlət büdcəsinin xərcləri 28543,0 milyon manat nəzərdə tutulmuşdur ki, bu da 2020-ci ilin proqnozuna nisbətən 1050,8 milyon manat və ya 3,8 faiz çoxdur. Son 5 ildə dövlət büdcəsinin xərcləri 60,8 faiz və ya 10791,7 milyon manat artmışdır ki, bu da ölkəmizdə formalaşmış iqtisadi siyasətin uğurla həyata keçirilməsi və dinamik inkişafın təmin edilməsi ilə bağlıdır.

Dövlət büdcəsi xərclərinin xalqın rifah halının yaxşılaşmasına yönəldiyini və ölkə iqtisadiyyatının davamlı və dayanıqlı inkişafına xidmət etdiyini xarakterizə edən əsas amil onun sosialyönümlü və investisiyatutumlu olmasıdır. 2021-ci ilin dövlət büdcəsi xərclərinin təhlili onu deməyə əsas verir ki, əvvəlki illərdə olduğu kimi, gələn ildə də dövlət büdcəsi bu xüsusiyyətinə görə seçilir. Belə ki, 2021-ci il üçün dövlət büdcəsinin sosialyönümlü xərcləri (büdcə xərclərinin iqtisadi təsnifatına uyğun olaraq əməyin ödənişi, pensiya və müavinətlər, dərman, sarğı məmulatları və məhsullarının, ərzaq məhsullarının alınması xərclərinin cəmi) 11111,9 milyon manat məbləğində nəzərdə tutulmuşdur ki, bu da büdcə xərclərinin ümumi həcminin 38,9 faizini təşkil etməklə, 2020-ci illə müqayisədə 563,8 milyon manat və ya 5,3 faiz çoxdur. Onu da qeyd etmək lazımdır ki, son 5 ildə sosialyönümlü xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 3,8 faiz, natural ifadədə isə 4874,8 milyon manat və ya 78,2 faiz artmışdır. Bu da onu göstərir ki, ölkə əhalisinin sosial rifah halının yaxşılaşdırılması, dövlətin daim diqqət mərkəzindədir. Bunun nəticəsidir ki, 2021-ci ilin dövlət büdcəsində sosial müdafiə və sosial təminat xərcləri 2020-ci ilə nisbətən 455,7 milyon manat və ya 14,1 faiz çox olmaqla son 5 ildə bu xərclər 39,6 faiz artmışdır. Eyni zamanda gələn il ölkədə ehtiyac meyarının həddinin 160 manatdan 170 manata çatdırılması, yaşayış minimumunun 196 manat məbləğində müəyyən edilməsi proqnozlaşdırılır ki, bu da yoxsulluq səviyyəsinin azalmasına müsbət təsir göstərəcəkdir. Bütün bunlar bir daha sübut edir ki, Azərbaycan Respublikası Prezidentinin dediyi kimi, ölkəmizdə həyata keçirilən sosial-iqtisadi siyasətin mərkəzində insan amili, Azərbaycan Respublikasının vətəndaşları durur və bu amil 2021-ci ildən dövlət büdcəsinin əsas xüsusiyyətlərindən biridir.

2021-ci ilin dövlət büdcəsinin əsas istiqamətlərindən biri də ölkəmizin müdafiə qabiliyyətinin daha da möhkəmləndirilməsi və milli təhlükəsizliyin təmin edilməsinə xüsusi önəm verilməsidir. Belə ki, məhz bu diqqət və qayğının nəticəsində Azərbaycan Respublikası cəmi 44 gün ərzində ölkəmizin ərazisinin 20 faizini 30 il işğalda saxlayan yağı düşmən - Ermənistan respublikası üzərində parlaq qələbə qazanaraq torpaqlarımızı azad etdi. Buna baxmayaraq hələ də xarici himayədarlarına arxalanaraq ölkəmizə qarşı ərazi iddialarından, təxribatlarından əl çəkməyən azğın düşməndən qorunmaq və əldə etdiyimiz hərbi üstünlüyü uzun müddət saxlamaq üçün müdafiə və milli təhlükəsizlik məsələlərinə bundan sonra da xüsusi diqqət və qayğı ilə yanaşmaq lazımdır. Bu məqsədlə də 2021-ci ilin dövlət büdcəsində müdafiə və milli təhlükəsizliyin maliyyələşdirilməsinə 4585,8 milyon manat vəsait ayrılması nəzərdə tutulur ki, bu da 2020-ci ilə nisbətən 781,6 milyon manat və ya 20,5 faiz çoxdur. Bundan başqa, 2021-ci il dövlət büdcəsində əsaslı xərclərin maliyyələşdirilməsi üçün nəzərdə tutulan 8330,3 milyon manatın 2100 milyon manatı ölkəmizin müdafiə potensialının gücləndirilməsi və Silahlı Qüvvələrin maddi-texniki təminatının daha da yaxşılaşdırılması üçün müdafiə təyinatlı layihələr və tədbirlərin maliyyə təminatına sərf ediləcəkdir.

2021-ci ilin dövlət büdcəsində əsaslı xərclər üçün nəzərdə tutulan vəsaitin 2,2 milyard manatı 44 günlük Vətən müharibəsində Müzəffər Ordumuzun böyük şücaət və qəhrəmanlıq göstərərək işğaldan azad etdiyi tarixi ərazilərimizə böyük qayıdışın təmin edilməsinə xərclənəcəkdir. Belə ki, işğaldan azad olunmuş ərazilərimizdə bu bölgə üçün yad və gəlmə olan erməni vandalları 30 il ərzində yaşayış və ictimai binaları yerlə-yeksan edərək dağıtmış, bütün infrasktur obyektlərini, Azərbaycan xalqının bir çox tarixi, maddi-mədəniyyət abidələrini məhv etmiş, yeraltı sərvətlərimizi vəhşicəsinə talan etmişlər. Ona görə də həmin ərazilərdə müasir infrastrukturun yaradılması, mədəni-tarixi abidələrin bərpası və yenidən qurulması yaşayış evlərinin və inzibati binaların tikintisi zərurəti yaratmışdır. Bütün bunlar ona görə lazımdır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin daxili və xarici auditoriyalarda keçirilən konfrans, müşavirə və görüşlərdə böyük fərəh və inamla vurğuladığı kimi - Qarabağ Azərbaycandır!

Qarabağ həm də ona görə Azərbaycandır ki, həmin bölgədə xalqımıza məxsus bir çox tarixi, maddi-mədəniyyət abidələrinin mövcudluğu ilə yanaşı, Azərbaycan xalqının bu ərazidə min illərlə yaşadığını sübut edən təkzibolunmaz faktlar var. Qarabağ bölgəsində hazırda mövcud olan "Qarabağ" atcinsi, "Qarabağ" və "Qaradolaq" qoyun cinsləri, yerli şəraitə uyğun bitki sortları, Qarabağla bağlı bu gün də səslənən yüzlərlə musiqi əsərləri, geniş yayılmış Qarabağ xalçaları, mətbəx nümunələri və digər xalq yaradıcılığı sayəsində formalaşmış faktlar əsrlərdir ki, təsdiqlənmişdir. Yalnız min illər boyu daim eyni ərazidə yaşayan insanlar xalq seleksiyası yolu ilə bu heyvan cinslərini və bitki sortlarını yarada bilər, xalq mahnıları və digər musiqi əsəri yaddaşlara həkk olar, xalçalar evləri və sarayları bəzəyə bilər, milli yeməklər sağlam həyat vasitəsinə çevrilərək geniş yayılar. Ermənilər isə tarixi mənbələrdə göstərildiyi kimi, cəmi 180-200 il bundan əvvəl başqa bölgələrdən köçürülərək müəyyən siyasi məqsədlərlə Cənubi Qafqazda məskunlaşdırıldıqları üçün onlar xalq seleksiyası üsulu ilə heyvan cinsləri və bitki sortları yarada bilməzlər və yaratmayıblar. Onların erməni dilində Qarabağla bağlı xalq musiqi əsərləri yoxdur və ola da bilməz. Qarabağ ermənilərinə, eləcə də erməni millətinə məxsus geniş yayılmış xörəkləri də yoxdur. Ermənilər yalnız məskunlaşdıqları ərazilərdə yaşayan əhaliyə məxsus xalq mahnılarını, xalçaları, milli mətbəx nümunələrini və digər xalq yaradıcılığı məhsullarını oğurlayıb öz adlarına çıxarmaqla məşğul olur, xarici havadarlarının köməyi ilə buna bir çox hallarda nail olur və bununla da göstərmək istəyirlər ki, guya onlar bu ərazilərdə qədimdən yaşayırlar. Bütün bunlar onu göstərir ki, Qarabağ həm sözdə, həm də əməldə Azərbaycandır. Hazırda hələ döyüş əməliyyatları getdiyi bir vaxtda işğaldan azad edilən Qarabağ ərazilərində möhtərəm Prezident İlham Əliyevin göstərişi ilə ermənilər tərəfindən dağıdılan kommunikasiya xətlərinin bərpasına və yenidən qurulmasına başlanmışdı. Bu proses iqtisadiyyatın, sosial və mədəni həyatımızın bütün sahələrində çox intensiv surətdə davam edir. 30 ildən çox ata-baba yurdlarına qayıtmaq həsrəti ilə məcburi köçkün həyatı yaşayan yüz minlərlə insanın erməni vəhşiliyi nəticəsində viran qoyulan ərazilərə böyük köçün təmin edilməsi üçün 2021-ci ilin dövlət büdcəsindən ilk dəfə olaraq 2,2 milyard manat vəsait ayrılmışdır. 2

Tariximizin parlaq zəfəri

Əvvəli 1-ci səh.

Bu bir qərinədə Xankəndini, Şuşanı, Laçını, Ağdamı, Kəlbəcəri, Zəngilanı, Füzulini, Qubadlını, Cəbrayılı yalnız fotolardan, solmuş xatirələrdən tanıyan çox körpələr doğulmuşdu...

Çox babalarımız, nənələrimiz, atalarımız, analarımız doğma yurdlarını bir daha görmədən gözlərini əbədi yummuşdu...

Amma heç zaman "Qarabağ Azərbaycandır!" haqq nidasından vaz keçməmişdik, müqəddəs torpaqlarımızdan düşmənin murdar ayağını kəsərək atacağımıza adımız kimi əmin olmuşduq. Bilirdik ki, o müqəddəs gün gələcək və sülh yolu ilə mümkün olmasa belə savaşıb Qarabağımızı azad edib parçalanmış vətənimizi bütövləşdirəcəyik.

Canımız sənə fəda, Vətən!

Sentyabrın 27-də Ermənistanın növbəti hərbi təxribatı və birbaşa mülki əhalini hədəfə alması səbrimizi daşıran son damla oldu.

Qarabağın işğalının üzərindən xeyli zaman keçsə də, ürəyimizdəki nisgil heç zaman qaysaq bağlamadı və elə buna görə idi ki, Ali Baş Komandanın Qarabağ uğrunda "İrəli!" əmrinə milyonlar səs verdi.

Axı hər bir azərbaycanlı üçün Vətən Qarabağdan başlayırdı və bu savaş da bizim üçün Vətən müharibəsi idi. Yaralı yurdumuzun səslədiyi cəsur vətən övladları ölümdən belə qorxmadan irəli atıldı.

Artıq qisas günü gəlmişdi və azğın düşmənə aman yox idi...

"Canımız sənə fəda, Vətən!" söyləyərək zəfər yürüşünə çıxan igid oğullarımız and içmişdilər, şəhidlərimizin qisasını almadan, doğma ana yurdumuzu yağıdan xilas etmədən, bayraqlarımızı Qarabağın ən hündür zirvələrində dalğalandırmadan bu haqq yoldan dönməyəcəklər.

Azərbaycanın qəhrəman övladları canlarını Vətənə sipər edərək qarış-qarış, addım-addım torpağımızı azad etdilər, hər gün bizə qələbə sevincini yaşatdılar. Yağış, soyuq, çovğun, çən-çiskin bilmədən irəlilədilər, sıldırımlar aşdılar, hətta yeri gələndə yalın əllə olsa belə düşmənə aman vermədilər. Nə üzərlərinə dolu kimi yağdırılan mərmilər, nə xain düşmənin yerə basdırdığı bombalar, nə tikanlı məftillər cəsur ürəkli əsgərlərimizi dayandırmağa qadir oldu.

Hünər meydanında hər biri kükrəyən aslana çevrilən ər igidlərimiz yaralansalar belə döyüşdən əl çəkmədilər, düşmənin son nəfəsini kəsməyənə qədər durmadılar. Can ağrısı belə hiss etmədilər, yaralı Vətənə məlhəm olmaq coşqusu ilə daim irəli atıldılar, doğma torpaqdan aldıqları güclə, haqdan doğan qüvvətlə döyüşdülər, çarpışdılar, qələbə qazandılar...

Döyüş meydanında yüksələn "Qarabağ Azərbaycandır!" nərəsi yeri-göyü lərzəyə saldı, bu tarixi həqiqəti bir daha dünyaya bəyan etdi...

30 illik işğala son qoyuldu

Vətən uğrunda ölüm-dirim savaşına başlayan şanlı Azərbaycan Ordusu hər gün arxa cəbhəyə qələbə müjdələri göndərdi. Ay-ulduzlu üçrəngli bayraqlarımız ön cəbhədə azad edilən doğma yurdlarımıza, Qarabağın ən hündür zirvələrinə, arxa cəbhədə isə milyonlarla ələ bəzək vurdu. Yurdlarımızın bir-bir azad edilməsi, mənfur düşməndən təmizlənməsi xəbəri illərlə köksümüzdə sıxılıb dağa çevrilən həsrəti bir andaca yoxa çıxardı. Rəşadətli Ordumuzun sarsıdıcı həmlələri, zəfərləri milyonlarla qaçqın və köçkünün ürəyində Qarabağa qayıdış inamını zirvələrə daşıdı.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, əzmkar oğullarımızın şücaəti sayəsində cəmi 44 gün ərzində haqq savaşımız qələbə ilə başa çatdı, tarixi ədalət zəfər çaldı...

Əzmkar sərkərdəmizin komandanlığı altında rəşadətli Ordumuz bir həmlədəcə düşmənin belini sındırdı, onu qarşımızda diz çökməyə məcbur etdi. Sülh üçün yalvarmaq məcburiyyətinə məhkum elədi.

Noyabrın 10-da şanlı qələbəmizin müjdəsini Ali Baş Komandan İlham Əliyevdən aldıq. Bütün Azərbaycan xalqı bu tarixi zəfərin qürurunu yaşadı, sevinc göz yaşlarımız selə döndü. Şəhidlər xiyabanına axışdıq, bu torpaq uğrunda canlarını fəda edən övladlarımıza dualar oxuduq, bu torpağı biləklərinin haqqı, polad iradələri sayəsində yağı əsarətindən azad edən, şəhidlərimizin də ruhunu şad edən qəhrəman oğullarımıza minnətdarlığımızı bildirdik.

Məhz bu igidlərimiz sayəsində haqq-ədalət öz yerini aldı, qisasımız qiyamətə qalmadı və Azərbaycan 44 gün ərzində parlaq qələbə qazanaraq 30 illik işğala son qoydu.

Qürurlu və şərəfli qələbənin sevincini yaşayırıq

"Dəmir yumruq" əməliyyatı adı ilə Azərbaycanın yeni tarixinə qızıl hərflərlə yazılan 44 günlük Vətən savaşının şücaətli igidlərini dekabrın 10-da Azadlıq meydanında keçirilən təntənəli Zəfər paradında böyük fəxr, qürur duyğusu ilə seyr etdik.

Bakıda 3 mindən çox şəxsi heyətin və 150-dək hərbi texnikanın, o cümlədən müasir hərbi texnikanın, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin iştirakı ilə Zəfər paradı Vətənimizin azadlığı uğrunda apardığımız müharibədə qazanılan qələbənin, Azərbaycan Ordusunun hərbi qüdrətinin növbəti təntənəsi oldu. Zəfər paradı 44 günlük müharibədə Azərbaycan Ordusunun böyük Qələbəsini bütün dünyaya təntənəli şəkildə nümayiş etdirdi.

Dövlətimiz qələbədə payı olan, döyüşdə iştirak edən əsgərlərimizin şücaətini yüksək qiymətləndirərək onların hər birini Vətən müharibəsində qələbə münasibətilə Azərbaycan Respublikasının orden və medalları ilə təltif etdi.

Prezident İlham Əliyevin işğaldan azad edilmiş Qubadlı və Zəngilan rayonlarında olarkən səsləndirdiyi kimi, qəhrəman Azərbaycan əsgəri öz gücünü bütün dünyaya göstərdi: "Mənə məlumat verilir ki, indi dünyanın aparıcı ölkələrinin ali hərbi məktəblərində bizim döyüş taktikamız öyrənilir. Bu, bir yenilikdir, XXI əsrin müharibəsidir. Həm peşəkarlıq, həm iradə, milli ruh, qəhrəmanlıq hesabına torpaqlarımızı işğalçılardan azad etmişik".

İndi hər birimiz bu qürurlu, şərəfli, əzmli qalibiyyətin sevincini yaşayırıq. Əminik ki, Ali Baş Komandanın qətiyyətli siyasəti, Azərbaycan əsgərinin şücaəti və xalqımızın həmrəyliyi sayəsində bundan sonra gələcək bütün tarix səhifələrimiz işıqlı və parlaq olacaq. Mənfur düşmənin viranə qoyduğu yurdlarımız abadlığına qovuşdurulacaq, Qarabağımıza tezliklə bahar nəfəsi veriləcək, didərgin düşən soydaşlarımız el-obalarına böyük qayıdış köçü edəcəklər...

Yasəmən MUSAYEVA,
"Azərbaycan"

Müalicə olunan qaziyə reabilitasiya vasitələri təqdim edilib

Vətən müharibəsində tarixi Zəfərimizin qəhrəmanlarından biri olan Əhmədli Rəşad Taleh oğlu Talış kəndi uğrunda gedən döyüşlər zamanı hər iki ayağından və sol qolundan yaralanıb. Sabirabadın Cavad kənd sakini olan Rəşad hazırda Akademik M.Ə.Mirqasımov adına Respublika Klinik Xəstəxanasında müalicəsini davam etdirir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin əməkdaşları Qarabağ qazisini ziyarət ediblər.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı Rəşad Əhmədliyə ehtiyac duyduğu reabilitasiya vasitələri təqdim edilib.

Yaralanmış hərbçilər, müharibə ilə əlaqədar əlilliyi olan şəxslər üçün nəzərdə tutulan sosial dəstək tədbirləri, tibbi-sosial reabilitasiya xidmətləri barədə məlumat verilib.

Qələbəmizdə əməyi və xidməti olan hər kəs ehtirama layiqdir

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında şanlı Ordumuz sentyabrın 27-dən başlayan əks-hücum əməliyyatları zamanı əsl hərbi qüdrətini göstərdi, yüksək döyüş bacarığını nümayiş etdirdi.

Rəşadətli Ordumuz 44 gün davam edən Vətən müharibəsində bütün dünyaya təkcə öz gücünü göstərmədi, eyni zamanda erməni ordusu haqqında uydurulan yalançı mifləri alt-üst etdi. Bu haqq savaşında Ali Baş Komandan böyük siyasi iradə nümayiş etdirərək Azərbaycanın qəti və dəyişməz mövqeyini ortaya qoydu. Ordumuzun gücü, qüdrəti sayəsində sonda tarixi qələbənin bizim olacağına hər kəs inandı, güvəndi və bir yumruq kimi birləşərək əsl dövlət-xalq birliyini nümayiş etdirdi. İgid Vətən oğullarının şanlı zəfərlə qayıdacaqları günü hər kəs böyük ruh yüksəkliyi ilə gözlədi. Nəhayət, hərb tariximizə Vətən müharibəsi kimi yazılan savaş noyabrın 10-da böyük Qələbə ilə başa çatdı.

Bu gün hər birimiz torpaqlarımızın erməni hərbi birləşmələrindən təmizlənməsində canını fəda edən əsgər və zabitlərimizə minnətdarlıq edir, qanları ilə dastan yazan şəhidlərimizin ruhları qarşısında baş əyirik.

44 günlük Vətən müharibəsində iştirak edən və qələbədə payı olan oğullarımızdan biri də Mustafayev Elçin Əhməd oğludur. O, 3 noyabr 2000-ci ildə Qazax rayonunun sərhəd kəndi Kəmərlidə anadan olub. Aslan Kəmərli adına Kəmərli kənd tam orta məktəbini bitirib. Ölkə Prezidentinin "Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilməsi haqqında" müvafiq sərəncamına əsasən Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən qismən hərbi səfərbərliyə cəlb olunub və təlimlərə qatılıb.

Vətən müharibəsində qəhrəmanlıqla vuruşan Elçin Mustafayev həmin savaşdan qazi olaraq geri dönən oğullarımızdan biridir. O, noyabrın 9-da Xocavənd rayonu istiqamətində gedən döyüşlərdə sağ ayağın bud sümüyü və baş nahiyyəsindən güllə yarası alıb. Yaralıya ilkin tibbi yardım Füzuli Rayon Mərkəzi Xəstəxanasında göstərilib və elə həmin gün Ağcabədi Rayon Mərkəzi Xəstəxanasına gətirilib. Səhhəti ilə əlaqədar məzuniyyətdə olan Elçin müalicəsini hazırda ev şəraitində davam etdirir.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov icra aparatının məsul əməkdaşları ilə birlikdə bu günlərdə Elçin Mustafayevi evində ziyarət edib. Yaralımızın səhhəti və qayğıları ilə maraqlanan icra başçısı Vətən müharibəsində iştirak edən bütün hərbçilərimizin onun üçün doğma və əziz olduğunu deyib. Qazimizə tezliklə sağalmasını arzulayıb, dövlət başçısının da vurğuladığı kimi, hərbçilərimizə, əsgərlərimizə, onların ailə üzvlərinə göstərilən diqqət və qayğının bundan sonra da davam etdiriləcəyini bildirib. Rayon rəhbəri Ali Baş Komandanın rəhbərliyi altında Vətən müharibəsində bizləri Qələbə ilə sevindirən Elçin kimi vətənpərvər oğullarımızla bütün Azərbaycan xalqının fəxr etdiyini söyləyib. "27 ilin həsrətini 44 günə bitirdiniz", - deyən rayon rəhbəri bu tarixi Qələbəyə, böyük Zəfərə görə Ali Baş Komandana və Elçin kimi oğullarımıza borclu olduğumuzu bir daha qeyd edib.

Vətən uğrunda gedən döyüşlərdə yaralanan Elçin Mustafayev Ali Baş Komandan İlham Əliyevin əmrini hər zaman yerinə yetirməyə hazır olduğunu bildirib. O, yaralansa belə düşməndən qisasını aldığını söyləyib. Döyüş yoldaşları ilə birlikdə bir amal uğrunda - torpaqlarımızı işğaldan azad etmək, düşmənə layiq olduğu yeri göstərmək üçün yalnız irəli getdiklərini qürur hissi ilə danışıb.

Yaralı əsgərimizin anası Sevinc Mustafayeva oğlu ilə hər dəfə danışarkən onun yaxşı olduğunu, döyüşdən qələbə ilə qayıdacağını söylədiyini bildirib. Sonuncu danışıqlarında o, yaxşı olmasını bildirsə də, övladının yaralandığını hiss edib. Bu gün bir ana kimi övladının Vətən müharibəsində iştirak etməsini fəxrlə, qürurla səsləndirir.

Yaralımızın ailə üzvləri də təkcə Elçinlə deyil, Vətən müharibəsində vuruşan bütün hərbçilərimizlə fəxr etdiklərini dilə gətirmiş və övladlarına, eləcə də digər hərbçilərimizə göstərilən qayğıya görə ölkə Prezidentinə minnətdarlıqlarını bildirmişlər.

Qeyd edək ki, yaralı əsgərin qardaşı Elvin Mustafayev hazırda Beyləqan rayonunda "N" saylı hərbi hissədə həqiqi hərbi xidmətdədir.

Sabir ƏLİYEV,
"Azərbaycan"

Dövlət vətəndaşlarının sosial müdafiəsini daim diqqətdə saxlayır

Əvvəli 1-ci səh.

Ümumiyyətlə, əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətində 2020-ci ildə bir sıra zəruri tədbirlər görülüb. Belə ki, Prezidentin imzaladığı sərəncamla bütün pensiyalar 16,6 faiz indeksləşdirildi. Bunun nəticəsində ölkə üzrə bütün pensiyaların orta aylıq səviyyəsi 300 manata yüksəldi. Yaşa görə pensiyalarda isə bu səviyyə 350 manata çatdı.

Dövlət əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən islahatlar zamanı lazım olan məbləğdə vəsait ayırır. Məsələn, son islahatların maliyyə dəyəri 560 milyon manata bərabərdir. Təkcə 2020-ci ildə indeksləşdirmə hesabına pensiyaçılara əlavə olaraq 550 milyon manat vəsait ödənildi. Ümumilikdə cəmi bir il ərzində qəbul edilən qərarların icrası üçün pensiyaçılara 1 milyard manatdan artıq vəsait verilib.

Pensiya almayan, lakin sosial müdafiəyə ehtiyacı olan ailələr də unudulmayıb. Yəni əhalinin sosial müdafiəsi gücləndirilərkən bu kateqoriyadan olan insanların ehtiyacları da nəzərə alınıb. Prezident dövlətin bu sahəyə xüsusi diqqət yetirdiyini bildirərək demişdir: "Ünvanlı sosial yardımla bağlı göstəriş vermişdim ki, onun əhatə dairəsi genişləndirilsin. Son müddət ərzində iqtisadi sahədə canlanma var, iqtisadi artım təmin edilir, o cümlədən sənaye istehsalında, - qeyri-neft sektorunda sənaye istehsalı təqribən 15 faizə yaxın artıbdır, - yeni iş yerləri yaradılır, vətəndaşlar üçün yeni imkanlar açılır. Ancaq buna baxmayaraq, mən göstəriş vermişdim ki, hələ də dövlət dəstəyinə ehtiyacı olan vətəndaşların dövlət təminatı təmin edilsin və bu vətəndaşların sayı artırılsın".

2019-cu ilin sonunda ünvanlı sosial yardım mexanizminə cəlb edilən insanların sayı 72 min nəfər olub. Halbuki həmin ilin əvvəlində bu rəqəm 40 min idi. Yəni bir il ərzində 50-70 faizlik artım qeydə alınıb. 2020-ci ildə isə bu istiqamətdə dövlət büdcəsindən ayrılan vəsait hesabına 85-90 min ailənin ünvanlı sosial yardımla əhatə olunması planlaşdırılmışdı ki, bu da proqramla əhatə olunanların sayının 20 faiz artması deməkdir. Həmin kateqoriyadan olan insanların həyat şəraitini yaxşılaşdırmaq üçün görülən tədbirlər mütəmadi xarakter daşıyır.

Əhalinin sosial müdafiəsinin ən səmərəli forması məşğulluğun təmin edilməsidir. Bu səbəbdən aparılan islahatların bir istiqaməti də əhalinin özünüməşğulluq proqramına cəlb olunmasıdır. Əgər 2017-ci ildə bu proqrama 1500 ailə cəlb edilmişdisə, 2018-ci ildə o, 7 min, 2019-cu ildə 10 min ailəni əhatə edib. 2020-ci ildə isə daha 11 min ailənin özünüməşğulluq proqramına cəlb edilməsi planlaşdırılmışdı və bu iş uğurla davam etdirilir.

Dövlətimiz ölkə iqtisadiyyatını böhrandan qorumaq üçün 2020-ci ildə qəti addımlar atdı. Prezident İlham Əliyev pandemiyanın iqtisadi və sosial fəsadlarını minimuma endirmək məqsədilə Nazirlər Kabinetinə 1 milyard manat vəsait ayırdı. Bununla yanaşı, dövlət başçısının qərarı ilə dörd qrup yaradıldı. Həmin işçi qrupların əsas vəzifəsi məşğulluq məsələlərini təhlil edib dövlət başçısına məlumat verməkdir. Bu fakt onu göstərir ki, həmişə olduğu kimi, dövlətin siyasətində Azərbaycan vətəndaşının mənafeyi öndə durur. Eyni zamanda bu qurumların işi iqtisadi sabitliyi qorumaq, iqtisadi inkişafı təmin etmək, makroiqtisadi sabitliyi və maliyyə vəziyyətini təhlil edərək tədbirlər görülməsi üçün hökumətə təkliflər verməkdir.

Azərbaycan iqtisadiyyatı liberal əsaslar üzərində qurulub. Buna görə də qeyri-neft sektorunda məhsul istehsalının 80 faizindən çoxu sahibkarlar tərəfindən istehsal olunur. Dövlət daim sahibkarlığın inkişafına qayğı göstərir. Bu çətin anda da dövlət sahibkarlara arxa çıxır, onlara hər bir maddi və mənəvi kömək göstərir.

Prezident İlham Əliyev dövlət tərəfindən sahibkarlara lazım olan dəstəyin göstərilməsinin vacib olduğunu bildirərək demişdir: "Biz ilk növbədə koronavirusdan ən çox əziyyət çəkən sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərini diqqət mərkəzinə aldıq. Biz ilk növbədə bu sahibkarlıq subyektlərində işləyən insanların maliyyə vəziyyətini nəzərə almalıyıq... Bir çox sahələr və 40 mindən çox sahibkarlıq subyekti indi demək olar ki, fəaliyyət göstərmir, yaxud da məhdud çərçivədə fəaliyyət göstərir. Dövlət onlara kömək göstərməlidir. Ona görə göstəriş verilmişdir ki, həmin bu sahibkarlıq subyektlərində muzdla işləyən insanların sosial təminatı, eyni zamanda fərdi sahibkarların fəaliyyəti nəzərə alınsın. Onların da sayı təqribən 300 minə yaxındır".

Dövlət iqtisadi inkişafın qorunması, əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə ayrılan vəsaitin həcmini 1,5 milyard manat artıraraq 2,5 milyard manata çatdırıb. Prezident tərəfindən həmin vəsaitin artırılması böhrandan daha az itki ilə çıxmağa, iqtisadi inkişafı və sahibkarlığı qorumağa, əhalinin sosial müdafiəsini daha da gücləndirməyə imkan yaradır.

Rüstəm KAMAL,
"Azərbaycan"

Yandırılan meşələrdə, baltalanan bağlarda hər ağacı bərpa edəcəyik

Düşmən bu sərvətimizə də dalandan baxacaq

Ağacın ağladığını yəqin ki, çoxlarımız görüb. Onun bir budağı, hətta balaca bir pöhrəsi kəsilən an yerində göz yaşı kimi duru damcılar əmələ gəlir. Həmin damlalar kəsilmiş budağın ucunda da görünür. Ağac sanki ağrı hiss edir, budaq ağacın, ağac da itirdiyi "qol"unun həsrətini, nisgilini yaşayır...

30 ilə yaxın bir müddətdə erməni vandalları görəsən bizim neçə ağacımızın göz yaşını axıdıblar? Onları doğrayıb, kökündən kəsib, məhv edib, satıblar. Nəhayət, o ağacları bitirən torpağın sahiblərinin gəldiyini görəndə öz xəbis, talançı, yırtıcı xislətlərinə uyğun olaraq hikkə ilə bağlara, meşələrə od vurublar.

İşğaldan azad edilmiş bölgələrimizin görüntüləri insanı dəhşətə gətirir. Kəndləri, şəhərləri talan edib evləri, infrastrukturu dağıdan erməni vandalları həyətlərdəki bar verən ağacları da yox ediblər. Günahsız insanları qətlə yetirən, qadına, uşağa, qocaya silah tuşlayan bu mənfurlar ağacları kəsməklə, yandırmaqla da lənət qazanıblar. Bu, təbiətə xəyanət, qatı cinayət, faşist quduzluğudur.

Bu il dekabrın 1-də Azərbaycan xalqına müraciət edərkən Prezident İlham Əliyev demişdir: "Laçın rayonunda bizim böyük meşə sahələrimiz var - ərazinin 22 min hektarı meşə sahəsidir. Bu da bizim böyük sərvətimizdir. Kəlbəcər rayonunda 24 min hektar meşə sahəsi vardır. Zəngilan və Qubadlı rayonlarında 12 min hektar və eyni zamanda işğaldan azad edilmiş Hadrut rayonunda və Xocavənd rayonunun bir hissəsində böyük meşə sahələri vardır. Meşələr isə planetimizin ağciyəridir. Mənfur, vəhşi düşmən bizim meşələrimizi 30 il ərzində qırıb, talayıb və son müddət ərzində yandırıb. Buna baxmayaraq, meşə sahələrimizin böyük hissəsi toxunulmaz qalıb, çünki düşmən o meşələrə dırmaşa bilməyib, o, ucqar dağ massivlərində yerləşir. Əlbəttə, dağıdılmış və məhv edilmiş infrastrukturun, o cümlədən kəsilmiş ağacların bərpası da diqqət mərkəzində olacaqdır".

Yüksəklikdə yerləşən meşələrimizə özlərini "qəhrəman" adlandıran ermənilər əl uzada, ayaq basa bilməyiblər. Çünki onların həm birbaşa, həm də məcazi mənada zirvəyə qalxmaq hünəri yoxdur. Və yeri gəlmişkən, Azərbaycan dəniz səviyyəsindən bir neçə min yüksəklikdə yerləşən ucqar dağ kəndlərinə də qaz xətləri çəkib. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP kimi neft-qaz kəmərlərimiz ən yüksək dağ silsilələrindən keçir.

Mənfur düşmənin xisləti onu bu layihələrin hamısından kənarda qoyub. Azərbaycan dövlətinin iradəsi ilə regional, eləcə də qlobal enerji və nəqliyyat xətləri Ermənistandan yan keçib. İşğalçı olduqları üçün ermənilər bütün bunlara dalandan baxa-baxa qalıblar. Onlar üçün qurub-yaratmaq maraqlı deyil. Dava-dalaş, talançılıq, oğurluq, söküb-dağıtmaq...Bunlara can atırlar. Gücləri də ancaq qətl törətməyə, körpələri öldürməyə, ağacları qırıb-yandırmağa çatır. Prezident İlham Əliyevin dediyi kimi, bunları yalnız vəhşi qəbilə edə bilər.

Ağac əkmək, bağ salmaq nə qədər xeyirxah işdirsə, onları məhv etmək yüzqat çirkin əməldir. Kəlbəcəri, eləcə də Ağdamı və Laçını tərk edərkən o mənfurların meşələri necə qəddarcasına yandırdığını bütün dünya gördü. İşğalçılıqla, həyasızcasına soxulub 30 il yaşadıqları evlərə, meyvəsini dərib yedikləri bağlara, saf havasını udduqları meşələrə bu cür amansız münasibətləri onların kim olduğunu bir daha göstərdi. Ümumiyyətlə, özünü insan sayan kəs Allahın yaratdıqlarına qarşı bu cür barbarlıq etməz. Onlar isə ən yırtıcı vəhşi heyvanın da etmədiklərini etdilər. Göstərdilər ki, ekoloji terror da törətməyə qadirdilər.

"Su gəldiyi arxa bir də gələr". Atababalarımızın bu sözünü meşələrə aid etsək, əminliklə deyə bilərik ki, həmin ağacları bitirən torpaq onları yenidən bitirəcək. Prezidentimiz kəsilmiş ağacların bərpasının da diqqət mərkəzində olacağını bildirib.

Meşələr böyük sərvətdir. Onlar ilk növbədə təmiz, saf havadır. Füsünkarlığı, gözəlliyi də öz yerində. Bu səbəbdən də təbiəti sevənlər üçün əvəzsiz istirahət məkanıdır. Odur ki, turizmi inkişaf etdirmək üçün meşələrin böyük potensialından genış istifadə ediləcək.

Dərman bitkiləri ilə zəngin olduqlarından meşələr həm də əczaçılıq sənayesi üçün tükənməz xammal təchizatçısıdır. Orada bitən meyvələr camaat arasında "cır" adlansalar da, əslində, çox faydalıdırlar. Meşə zoğalı və armudu, zirinc, yemişan, əzgil və digər meyvələrin toplanıb emal müəssisələrinə verilməsi çox gərəkli işdir. Bu həm ərzaq təhlükəsizliyinə töhfə, həm də məşğulluq probleminin həllinə köməkdir. Eləcə də meşənin fındığı, fıstığı, şabalıdı və s. halal puldur, yetər ki, onların itkisiz yığılmasını və satışını təşkil edəsən.

Meşə eyni zamanda mebeldir, kağızdır, xəzdir, dəridir... Bir sözlə, meşələrdən çox faydalanmaq mümkündür və biz işğaldan azad olunmuş ərazilərimizdəki meşələrə də qayğı göstərəcəyik. Onların sərvətinin itib-batmasına yol verməyəcəyik. Düşmən bu sərvətimizə də dalandan baxacaq.

Flora SADIQLI,
"Azərbaycan"

ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!

İşğal altındakı torpaqlarımızın hər qarışı, hər addımı qəhrəman əsgərlərimizin, yaralı qazilərimizin, ən əsası, əbədiyyətə qovuşan şəhidlərimizin qanı bahasına azad olundu. Şəhidlərimizin hər birinə aid məlumatları, xatirələri yazmaq, onları işıqlandırmaq bizim onların ruhu qarşısında bitib-tükənməyən müqəddəs borcumuzdur! Bu həm də bizim Vətən borcumuzdur!

Mən bir oğul tanıyıram, elə bir oğul ki, ömrünün ilk bahar çağında Şəhidlik zirvəsinə ucalaraq öz adını təkcə ailəsinin, doğmalarının deyil, bütün Azərbaycan xalqının əbədi yaddaşına həkk edə bildi;

Mən bir oğul tanıyıram, elə bir oğul ki, torpaqlarımızın azadlığı uğrunda Vətən müharibəsi başladığı ilk gündən savaşa atılaraq, Füzuli rayonunun müxtəlif kəndləri və şəhər istiqamətində gedən döyüşlərdə yaralı və şəhidlərimizi döyüş bölgəsindən çıxarmaq üçün ən çətin, ən keçilməz yerlərə girərək Vətən borcunu layiqincə yerinə yetirə bildi;

Şəhidlik ölüm deyil, əbədi ömrün başlanğıcıdır

Mən bir oğul tanıyıram, elə bir oğul ki, döyüş bölgəsindən yaralılarımızı çıxaran zaman mənfur düşmənin torpaqlarımıza basdırdığı minanın qurbanı oldu və öz ölümü ilə xalqımızın yaddaşında əbədi həyat qazana bildi.

Bu igid 6 may 1996-cı ildə Füzuli rayonunun Kürdmahmudlu kəndində dünyaya göz açmış İsmayıllı Məhəmmədəli Elxan oğludur. Onun ən böyük arzusu işğal altında olan torpaqlarımızın - doğma Qarabağın azad edilməsi idi.

Məhəmmədəlinin babası İsmayıl kişi, nənəsi Ofelya ana, 3 övladı Elxan, Reyhan və Rövşən 1993-cü ildə Füzuli şəhəri erməni silahlı birləşmələri tərəfindən işğal edildikdən sonra rayonun Kürdmahmudlu kəndinə pənah gətirmiş və burada yaşamışlar.

Elxan müəllimin üç övladından evin sonbeşiyi olan Məhəmmədəlinin uşaqlıqdan karateyə olan həvəsi, əzm və iradəsi onun hələ 15 yaşında dünya çempionu adını qazanması ilə nəticələndi. Onun qazandığı müxtəlif fəxri adlar, medal və diplomlar Məhəmmədəlinin bu qısa ömrünə çox şey sığdıra bilməsindən xəbər verir:

2007-ci ildə Bakı şəhərində keçirilən Azərbaycan çempionatında 35 kq çəki dərəcəsində 3-cü yeri tutmuşdur;

2007-ci ildə Füzuli rayonunda klublararası açıq çempionatda 40 kq çəki dərəcəsində 1-ci olmuşdur;

2008-ci ildə Bakı şəhər açıq çempionatında 47 kq çəki dərəcəsində 1-ci yeri tutmuşdur;

2009-cu ildə Bakı şəhər Səbail rayonunda keçirilən açıq çempionatda 50 kq çəki dərəcəsində 1-ci yeri tutmuşdur;

2011-ci ildə Gürcüstan Respublikasının Poti şəhərində keçirilən beynəlxalq turnirdə 65 kq çəki dərəcəsində 1-ci yeri tutmuşdur. Yarımfinalda erməni döyüşçüsünü nokautla məğlub etmişdir;

2011-ci ildə Türkiyənin Antalya şəhərində karate üzrə keçirilən dünya çempionatında 70 kq çəki dərəcəsində 1-ci yerə çıxaraq dünya çempionu adını qazanmışdır;

Azərbaycan Respublikasının İdman nazirliyi və Karate Federasiyası tərəfindən fəxri fərmana layiq görülmüşdür. Qara kəmər 1-ci və 2-ci danla təltif olunmuşdur.

2013-cü ildə Ramil Əkbərov adına Kürdmahmudlu kənd orta məktəbini bitirdikdən sonra həqiqi hərbi xidmətə çağrılır və xidmətini hərbi dəniz donanmasında başa vurur. Xidmət etdiyi dövrdə dəfələrlə fəxri fərmanla təltif edilir və baş matros rütbəsi alır. Hərbi xidmətini başa vurduqdan sonra Azərbaycan Respublikası Rabitə və Texnologiya Nazirliyinin mühafizəsində işə qəbul edilir və tezliklə leytenant rütbəsi alır. Vətənə, xalqa olan sevgisi onu hərbi xidmətdə olmağa vadar etdi. Öz ərizəsi ilə "N" saylı hərbi hissədə müvəqqəti orta həqiqi hərbi xidmət qulluqçusu kimi işə başlayır. İşlədiyi müddətdə bütün şəxsi heyətin hörmətini qazanır. Yaxşı qulluğuna görə dəfələrlə təşəkkürnamə və pul mükafatları ilə qiymətləndirilir.

Ailədə daha çox ürək sirlərini bölüşdürdüyü, bir qıza olan ülvi sevgisi haqqında sirrini belə açdığı sevimli bacısı Səyyarənin söylədiklərindən: "Məhəmmədəli 2011-ci ildə Poti şəhərində keçirilən beynəlxalq turnirin yarımfinalında erməni döyüşçüsünü nokauta salmasından, qalib olduğu yarışlarda dəfələrlə üçrəngli Azərbaycan bayrağını qaldırmasından hər zaman fəxrlə danışardı. Uşaqlıqdan yaxşı at bəsləməyi və çapmağı çox sevirdi. Hətta kənd cavanları arasında at çaparaq sürətlə əyilib yerdən kibrit qutusunu götürmək bacarığı ilə məşhur idi. Ailəmizin ən kiçiyi olmasına baxmayaraq, evimizdə hamıya (anam, atam, böyük qardaşım və mən) yaşına uyğun olmayan bir qayğıkeşliklə yanaşır, valideyn fikirlərini xüsusi hörmətlə qəbul edirdi. Ev xörəklərini daha çox bəyənirdi. Ən sevdiyi yemək anamın bişirdiyi kənd çolpasının sousu idi. Ata, anasına həm də dost, sirdaş idi. Onlara deyirdi ki, sizi qoymayacam bu şəraitsiz evdə yaşayasınız. İnşallah, tezliklə şəraitli bir ev tikdirib sizi ora köçürəcəyəm. Təəssüf ki, inşasına başladığı evin kubiklərinin 4-cü cərgəsi başa çatmamış 24 yaşında qəhrəmancasına şəhid oldu qardaşım".

Məhəmmədəlini tanıyanlar onun cəsurluğu, qorxmazlığı, qəhrəmanlığı, böyük ürəyi haqda ağızdolusu, qürurla danışırlar. Anaya, Vətənə, millətimizə olan məhəbbəti, sevgisi Məhəmmədəlinin gözlərində qorxu hissini yox etmişdir. Qanlı müharibənin gedişində onun bu qorxmazlığı, igidliyi haqqında bir çox məqamlar ölümündən sonra yaxın dostlarının, yoldaşlarının dilinin əzbəri oldu: "Vəzifəsi sürücülük olsa da, yaralı və şəhid əsgərlərimizin döyüş bölgəsindən çıxarılmasında hər zaman yaxından iştirak edirdi. Bir dəfə ağır döyüşlərdən sonra dağlararası, keçilməz yollarda qalan yaralılarımızı götürmək üçün ayrılan qrup orada mina quraşdırılması ehtimalı böyük olduğu üçün həmin yerə girməyə tərəddüd edirdi. Bu zaman Məhəmmədəli dözə bilmədi, dedi ki, mən həmin keçilməz yerə girib yaralılarımızı xilas edəcəyəm və şir kimi irəli atılaraq həmin keçilməz yerə getdi. Qısa vaxt içində bir də gördük qucağında bir yaralı ilə geri qayıtdı. Bundan sonra ürəklənən qrup həmin yerə daxil oldu".

O, torpağa tapşırılan gün dəfn mərasimində iştirak edən 5-6 nəfər tibb işçisi olan gənc qızlar ağlaya-ağlaya "biz Məhəmmədəlini çox istəyirdik, o başqa oğul idi! Bizi ön cəbhədə görəndə çox əsəbiləşdi və maşınına yığıb arxa cəbhəyə qaytardı. Dedi ki, sizin burada nə işiniz var, bura sizin yeriniz deyil. Sizin görəcəyiniz işi mən özüm edəcəyəm, biz ölməmişik ki, qızlarımız ön cəbhədə olsunlar" dedilər.

Bu ağır günlərdə Məhəmmədəlinin idarə etdiyi, yaralı əsgərlərimizin ümid yeri olan tibb maşını mənfur düşmən tərəfindən bir neçə dəfə atəşə tutulur. Son dəfə, ölümündən bir həftə əvvəl qəlpə zərbəsindən zədələnmiş maşını ustaya gətirən zaman sevimli bacısına baş çəkir. Deyir ki, mənfur düşmənin atdığı mərmilərin qəlpəsi lap yaxınımdan, qulağımdan cəmi 10 sm məsafədə keçdi və maşının güzgüsünü qırıb tökdü, az qalmışdı... nəysə, Allah qorudu!!!

Şəhid atası Elxan Quliyevin dediklərindən: "Axırıncı dəfə 26 oktyabr 2020-ci il tarixdə qanlı döyüşlər getdiyi Füzuli şəhəri yaxınlığında tank əleyhinə minalanmış ərazidə əsgərlərimizin yaralandığını eşidən Məhəmmədəli deyir: "Mən yaralı qardaşlarımın orada qalmasına imkan verməyəcəm". Həmin anda gedib 2 yaralı əsgərimizi götürüb qayıtdığı zaman görür ki, bir az aralıda daha bir yaralı əsgər var. Bu anda həkimə deyir ki, bu yaralını da götürək. Həkim deyir ki, onu da başqaları götürər. Məhəmmədəli "mən hərbçi qardaşlarımı yaralı halda döyüş meydanında qoyub gedə bilmərəm" deyərək maşını yaralıya tərəf yönləndirir. Bir neçə metr getdikdən sonra maşının Məhəmmədəlinin idarə etdiyi tərəfdən təkəri tank əleyhinə minaya düşür və o qəhrəmancasına şəhid olur".

Ərazi təhlükəli olduğundan Məhəmmədəlini həmin gün oradan götürə bilmirlər. Oktyabrın 27-də onu şəhid olduğu yerdən götürüb doğulduğu, böyüyüb boya-başa çatdığı torpaqda - Kürdmahmudlu kəndində dəfn edirlər.

Məhəmmədəlinin valideynləri - atası Elxan müəllim, anası Arzu müəllimənin dediklərini olduğu kimi yazmaq istəyirəm: "Bəli, o ölmədi, ölümsüzlüyü ilə hamımızın qəlbində əbədi məskən saldı, döyünən ürəyimiz, görən gözümüzdür Məhəmmədəli! Ailəmiz üçün Məhəmmədəlinin itkisi çox ağırdır, ancaq qürur duyuruq ki, o, Vətən uğrunda qurban gedib. Bu gün başda Ali Baş Komandanımız olmaqla qəhrəman oğullarımız Məhəmmədəlinin ən böyük arzusunu yerinə yetirdi".

Sonda onu demək istəyirəm ki, ata yurdu hər kəs üçün sadəcə olaraq doğulduğu kənd deyil, bizim hər birimizin, xüsusilə də buğünkü gəncliyimizin ata yurdu bütöv Azərbaycandır. Doğma Qarabağımızı mənfur düşməndən azad etmək uğrunda Ali Baş Komandan İlham Əliyevin diplomatik, ardıcıl mübarizəsi və müzəffər ordumuzun bir ay yarım ərzində göstərdiyi rəşadət şanlı, qürurverici bir tarix yaratdı. Əsrlərə bərabər 44 gün - Qarabağın azadlığı uğrunda gedən Vətən müharibəsi həm də Azərbaycanın bütövləşməsi tarixini yazdı.

İnanıram ki, torpaqlarımızın azadlığı uğrunda canlarından keçən şəhidlərimizin hər birinin adı əsrlərboyu yaşayacaq, xatırlanacaq və ürəklərdə əbədi heykələ dönəcəkdir!

Güntəkin NƏCƏFLİ,
AMEA Tarix İnstitutunun "Qarabağ tarixi" şöbəsinin müdiri,
dosent, Dövlət mükafatı laureatı

Şəhid anası: "Oğlumun ən böyük arzusu torpaqlarımızı işğaldan azad etmək idi"

Otuz ilə yaxın işğal altında qalan torpaqlarımız müzəffər ordumuzun, əsgər və zabitlərimizin şücaəti, qəhrəmanlığı sayəsində azad edildi. Bu müqəddəs yolda zabit və əsgərlərimizin bir qismi şəhid, bir qismi isə qazi oldu. Vətən müharibəsində şəhidlik zirvəsinə ucalanlardan biri də Ağdam rayon sakini Qənbərov Mədət Əzim oğludur.

Mədət Qənbərovun ailəsi Ağdam rayonunun Mollalar kəndindən məcburi köçkün düşüb. Mədət ata-baba yurdu Mollalarda doğulmasa da, hər zaman doğma torpaqların həsrəti ilə yaşayıb. Gəncə Dövlət Universitetinin Filologiya fakültəsinin məzunu olan Mədət Qənbərov 2020-ci ilin iyulunda Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində təxribatı zamanı könüllü olaraq cəbhə bölgəsinə getmək üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon bölməsinə müraciət edib. 2020-ci il sentyabrın 27-də cəbhədə düşmənin növbəti təxribatlarına qarşı ordumuzun keçirdiyi əks-hücum əməliyyatları zamanı isə torpaqlarımızın azadlığı uğrunda döyüşlərə qatılıb.

Şəhid Mədət Qənbərovun evinə baş çəkib, ailə üzvləri ilə həmsöhbət olarkən anası Bəsti Vəliyeva deyib: "Mədət çox vətənpərvər, elinə-obasına gərəkli, namuslu-qeyrətli oğul idi. Biz onu vətənpərvər böyütmüşdük. Həmişə bir arzusu var idi - torpaqları işğaldan azad etmək. 1993-cü ildə şəhidlərə şeir yazmışdım. Üstünə də məzar şəkli çəkib, qərənfil qoymuşdum. Heç o zaman Mədət dünyaya gəlməmişdi. Mən bilməzdim ki, illər sonra ikinci Vətən müharibəsi başlayar, oğlum şəhid olar".

Bəsti xanım bildirib ki, 18 gün döyüşlərdə iştirak edərək şəhid olan Mədətin Vətənlə bağlı arzusu yerinə yetdi: "Torpaqlarımız azad oldu. Amma özü ilə bağlı olan arzuları yarımçıq qaldı.

Vətən mənə oğul desə nə dərdim,
Mamır olub qayasında bitərdim...

Mədət kimi oğullar mamır olub Vətənin qayalarında bitdilər".

Mədətin atası Əzim Qənbərov da Qarabağ müharibəsinin iştirakçısıdır. Birinci Qarabağ müharibəsində polis əməkdaşı kimi iştirak edib. Deyir ki, bu gün təsəlliləri torpaqlarımızın işğaldan azad olmasıdır: "İyul ayında general Polad Həşimov şəhid olanda Mədət yoldaşları ilə birgə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət etmişdi. Vətən müharibəsi başlayanda da döyüşlərə qatıldı. Suqovuşan-Talış istiqamətində gedən döyüşlərdə iştirak etdi. Axırıncı dəfə oktyabrın 15-də telefonla danışmışdıq. Ondan sonra şəhid oldu..."

Şəhidin döyüş yoldaşları onun vətənpərvərliyindən qürurla danışırlar. Döyüş yoldaşı Rövşən Seyidov: "Mədət çox gözəl insan idi. Həmişə bizə nəyi isə öyrədərdi, başa salardı. Döyüşlərdə çox cəsur idi. Mən fəxr edirəm ki, elə bir yoldaşım olub".

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə əsgər Mədət Qənbərov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

AZƏRTAC

Şəhid ailəsinə təqaüd kartı təqdim edilib

DOST mərkəzlərinin əməkdaşları şəhid ailələri ilə görüşlərini davam etdirir. 2 saylı Bakı DOST Mərkəzinin əməkdaşları Vətən müharibəsində şəhid olan və dövlət başçısının sərəncamı ilə "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilmiş Natiq Vahid oğlu Məmmədbəylinin ailəsində olublar.

Əmək və əhalinin sosial müdafiəsi nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Natiqin döyüşlər zamanı, xüsusilə Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında şəxsi igidlik və şücaətindən bəhs olunub. Onun və bütün şəhidlərimizin xatirəsinin həmişə qəlbimizdə yaşayacağı vurğulanıb.

Görüşdə şəhidin ailəsinə Prezidentin aylıq təqaüdünün təyin olunduğu bildirilib və mərkəzin direktoru Emin Namazəliyev şəhidin valideynlərinə təqaüd kartlarını təqdim edib. Şəhid ailələri üçün nəzərdə tutulan digər sosial dəstək tədbirləri barədə də ailəyə məlumat verilib.

DOST mərkəzləri postmüharibə dövründə şəhid ailəsi üzvləri olan 300-ə yaxın şəxsə Prezidentin təqaüdünün, pensiya və müavinətin təyinatı, şəhid ailəsi üzvü vəsiqəsinin verilməsi və s. istiqamətlərdə xidmətlər göstərib.

Qəbələdə şəhid ailələrinə və Vətən müharibəsi qazilərinə Yeni il sovqatı çatdırılıb

Torpaqlarımızın işğaldan azad edilməsi naminə canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi xalqımız tərəfindən daim uca tutulur, ehtiramla anılır. Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalan qəhrəman Vətən oğullarının ailələri, eləcə də döyüşlər zamanı yaralanan qazilər Qəbələ rayon rəhbərliyi tərəfindən daim diqqət və qayğı ilə əhatə olunublar.

AZƏRTAC xəbər verir ki, Qəbələ Rayon İcra Hakimiyyətinin rəhbər şəxsləri Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il ərəfəsində Vətən müharibəsində şəhid olanların və döyüşlərdə yaralanan qazilərin ailələrini evlərində ziyarət edib, onlara mənəvi dəstək olub, qazilərin müalicələri ilə maraqlanıb, ailələrə Yeni il sovqatı çatdırıblar.

Görüşlərdə 44 gün davam edən Vətən müharibəsində qazanılan tarixi qələbənin, ilk növbədə, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şanlı Azərbaycan Ordusunun qəhrəman əsgər və zabitlərinin böyük rəşadətinin təntənəsi olduğu, xalqımızın qəhrəman övladları ilə hər zaman fəxr etdiyi xüsusi vurğulanıb.

Şəhid ailələri və müharibə qaziləri ilə belə görüşlər mütəmadi olaraq davam etdirilir.

Talış kəndi uğrunda şəhidlik zirvəsinə ucalan qorxmaz kəşfiyyatçı

Tamerlan Səfərov Vətən müharibəsinin ilk günündən şimal cəbhəsində döyüşlərə başlayıb. Düşmənin canlı qüvvəsinin və atış nöqtələrinin məhv edilməsində xüsusi xidmətləri olub. Oktyabrın 1-də Tərtərin Talış kəndi uğrunda gedən savaşda şəhidlik zirvəsinə ucalıb.

AZƏRTAC xəbər verir ki, Tamerlan Səfərov 2001-ci ildə Qubanın Səbətlər kəndində dünyaya göz açıb. Məktəb illərindən hərb sahəsinə böyük marağı olub. 2019-cu ildə əsgərliyini başa vurduqdan sonra xidmətdə qalaraq, qorxmaz kəşfiyyatçı kimi Vətənə qulluq etməyə başlayıb. Şəhidin atası Cavad Səfərov bildirib ki, Tamerlan hərbi sahədə çalışmağı özü seçib. "Oğlum Ağdərə və Tərtərin Suqovuşan və Talış kəndləri istiqamətində döyüşürdü. Danışanda deyirdi ki, hər şey yaxşıdır, narahat olmayın. Deyirdim müharibədir, özünü qoru. Hər dəfə də cavab verirdi ki, adam düşməndən qorxmaz. Son döyüşlərindən əvvəl bərk soyuqlamışdı. Komandiri ona icazə verib ki, hospitala getsin. Amma o, etiraz edib. Bildirib ki, döyüş yoldaşlarım savaşır, mən kənarda qala bilmərəm. Son döyüşdə də düşmənin 3 postunu məhv ediblər. Ermənilər Tamerlanı snayperlə vurublar", - deyə şəhidin atası söyləyib.

"Tamerlan sakit təbiətli, çox mehriban uşaq idi. Müharibə başlayan gündən telefonla danışmışıq. Hətta sentyabrın 29-da zəng vuranda bacısına dedi ki, tez-tez zəng etməyin. Lazım olanda özüm zəng vuracağam. Döyüşün içində olduğunu bizə bildirmədi. Deyirdi ki, ana, arxayın ol, hər şey yaxşı olacaq", - deyə şəhidin anası Aybəniz Səfərova bildirib.

Şəhidin bacısı Əsli deyib ki, Tamerlan gələcəyi barədə fikirlərini, arzularını daha çox onunla bölüşürdü: "Qardaşıma görə çox narahat idim. Tez-tez zəng vurub, ehtiyatlı ol deyirdim. O isə gülürdü. Tamerlan məndən soruşurdu ki, xəbərlərdə cəbhədə baş verənlər barədə nə deyirlər? Deyirdim, filan yer azad olunub. Soruşurdum, sən də həmin döyüşdə idin? Dəqiq cavab bildirməyib, gülməklə sualımı cavablandırırdı. Vətənini çox sevirdi. Hər kəsə nəsib olmur şəhidlik zirvəsi. Qardaşımla fəxr edirəm".

Tamerlan Səfərov Səbətlər kənd qəbiristanlığında dəfn olunub. Qəhrəman döyüşçü ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının “Suqovuşanın azad olunmasına görə” medalı ilə təltif edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının Suqovuşan kəndinin işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək igidlik və mərdlik nümunəsi göstərmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin aşağıdakı hərbi qulluqçuları “Suqovuşanın azad olunmasına görə” medalı ilə təltif edilsinlər:

Əliverdiyev Vüqar Əfqan oğlu - general-mayor
Həsənov Hikmət Hüseyn oğlu - general-mayor
Abdullayev Eldəniz İkram oğlu - polkovnik
Çobanov Roman Salman oğlu - tibb xidməti polkovniki
Əliyev Elsevər Sərhəd oğlu - polkovnik
Əmirov Əbil Durasan oğlu - polkovnik
Həmidov Məhərrəm Əliəşrəf oğlu - polkovnik
Həsənov Məhərrəm Əşir oğlu - polkovnik
Qafarov İlqar Saab oğlu - polkovnik
Qapaqov Elşən Rafiq oğlu - polkovnik
Mehrəliyev Sadiq Nadir oğlu - polkovnik
Məhərrəmov İdris Mustafa oğlu - polkovnik
Məmmədov İsmixan Valeh oğlu - polkovnik
Məmmədov Teymur Davud oğlu - polkovnik
Məşədiyev Taleh Vəliyət oğlu - polkovnik
Rzayev İntiqam Mənsim oğlu - polkovnik
Samidli Babək Mətləb oğlu - polkovnik (ölümündən sonra)
Şixiyev Həbib Vələddin oğlu - polkovnik
Abdullayev Elman Abdulla oğlu - polkovnik-leytenant
Abdullayev Nihat İntiqam oğlu - polkovnik-leytenant
Abdulov Afiq Xanmurad oğlu - tibb xidməti polkovnik-leytenantı
Abdurahmanov Əfqan Ağasəf oğlu - polkovnik-leytenant (ölümündən sonra)
Abışov Xəyal Elbrus oğlu - polkovnik-leytenant
Adıgözəlov Davud Telaf oğlu - polkovnik-leytenant
Ağakişiyev Azər Məhəmməd oğlu - polkovnik-leytenant
Ağayev Şahin Əli oğlu - polkovnik-leytenant
Alıyev Natiq Alı oğlu - polkovnik-leytenant
Allahverdiyev Mail Mehman oğlu - polkovnik-leytenant
Baxışov Səxavət Mamed oğlu - polkovnik-leytenant
Cabbarov Cavid Sulduz oğlu - polkovnik-leytenant
Cəfərov Cavanşir Xurşud oğlu - polkovnik-leytenant
Cəfərov Kənan Qaraş oğlu - polkovnik-leytenant
Cəfərov Zaur Hüseyn oğlu - polkovnik-leytenant (ölümündən sonra)
Cəmilov Tərlan Kamil oğlu - polkovnik-leytenant
Daşdəmirov Sahil Mustafa oğlu - polkovnik-leytenant
Əfəndiyev Sadiq Qabil oğlu - polkovnik-leytenant
Əhmədov Hikmət Məhəmmədəli oğlu - polkovnik-leytenant
Əhmədov Namiq Məhərrəm oğlu - polkovnik-leytenant
Əliyev Anar Təvəkkül oğlu - polkovnik-leytenant
Əliyev Sərdar Şəmsi oğlu - polkovnik-leytenant
Əliyev Vahid Tələt oğlu - polkovnik-leytenant
Əliyev Vüqar Şirzad oğlu - polkovnik-leytenant
Əsədli Aqil Əlirza oğlu - polkovnik-leytenant
Əsgərov Əliyar Arif oğlu - polkovnik-leytenant
Əzizov Ceyhun Azər oğlu - polkovnik-leytenant
Göyüşov Amil Niftalı oğlu - polkovnik-leytenant
Hacıyev Şamil Cəlal oğlu - polkovnik-leytenant
Həsənov Anar Məmmədzadə oğlu - polkovnik-leytenant
Həşimov Marif Oruc oğlu - polkovnik-leytenant
Hüseynov Xaliq Araz oğlu - polkovnik-leytenant
Xəlilov Ruslan Oktay oğlu - polkovnik-leytenant
Xudayarov Elçin Süleyman oğlu - polkovnik-leytenant
İbrahimov Vüsal Vəkalət oğlu - polkovnik-leytenant
İsgəndərov Feliks İsa oğlu - polkovnik-leytenant
Kamalov Emil Fəxrəddin oğlu - polkovnik-leytenant
Qədirov Kamran Vaqif oğlu - polkovnik-leytenant
Quliyev Anar Eldar oğlu - polkovnik-leytenant
Quliyev Niyaməddin Məmməd oğlu - polkovnik-leytenant
Quliyev Ümüdvar Əzizalı oğlu - polkovnik-leytenant
Quluzadə Rəhim Qiyas oğlu - polkovnik-leytenant
Qurbanov Sarvan Mikayıl oğlu - polkovnik-leytenant
Məcidov Vüqar Yadigar oğlu - polkovnik-leytenant
Məhərrəmov Davud Şahadət oğlu - polkovnik-leytenant
Məmmədov Elçin Ziyadxan oğlu - polkovnik-leytenant
Məmmədov Elmir Ağamalı oğlu - polkovnik-leytenant
Məmmədov Siyavuş Sabir oğlu - polkovnik-leytenant
Məmmədov Soltan Akif oğlu - polkovnik-leytenant (ölümündən sonra)
Məmmədrzayev Ruslan Əmrullayeviç - polkovnik-leytenant
Mənsimov Elçin Sovet oğlu - polkovnik-leytenant
Mərdanov Mərdan Gülbaba oğlu - polkovnik-leytenant
Mövlanov Tərlan Bəydəmir oğlu - polkovnik-leytenant
Muradov Elman Əhəd oğlu - polkovnik-leytenant
Mustafayev Cəlal Miriş oğlu - polkovnik-leytenant
Mustafayev İftixar Qədim oğlu - polkovnik-leytenant
Müslümov Xəyal Fikrət oğlu - polkovnik-leytenant
Niyazov Rauf Nizaməddin oğlu - polkovnik-leytenant
Rəfiyev Elçin Mirzəxan oğlu - polkovnik-leytenant
Rəsulov Sərdar Ağasəf oğlu - polkovnik-leytenant
Rizvanov Həbib Səməd oğlu - polkovnik-leytenant
Rüstəmov Zaur Tahir oğlu - polkovnik-leytenant
Rzayev Orxan Nüsrət oğlu - polkovnik-leytenant
Rzayev Rauf Hacırza oğlu - polkovnik-leytenant
Salahov Vüqar Nizami oğlu - polkovnik-leytenant
Süleymanlı Zaur Faiz oğlu - polkovnik-leytenant
Şıxəliyev Nəsimi Yarməmməd oğlu - polkovnik-leytenant
Şıxlinski Vüqar Zakir oğlu - polkovnik-leytenant
Vəliyev Süleyman Haqverdi oğlu - polkovnik-leytenant
Abasov Anar Aydın oğlu - mayor
Abbasov Nicat Yavər oğlu - mayor
Adıgözəlov Orxan Tərxan oğlu - mayor
Ağayev Röyşən Eldar oğlu - mayor
Ağayev Siyruz Aslan oğlu - mayor
Ağayev Vüqar Şümşəd oğlu - mayor
Atakişiyev Rəşad Nazim oğlu - mayor
Aydəmirov Nihad Abdulhəmid oğlu - mayor
Bağıyev Mirdamət Səristan oğlu - mayor
Baxşıyev İlkin Vidadi oğlu - mayor
Bayramov Ruslan Bəhman oğlu - mayor
Bəkirov Fərid Cahangir oğlu - mayor
Bilalov Amil Adil oğlu - mayor
Cəfərov Azad Asif oğlu - mayor
Cəfərov Cəfər Eyvaz oğlu - mayor
Çələbiyev Rauf Fəxrəddin oğlu - mayor
Ələkbərov Rahim Röyşən oğlu - mayor
Ələkbərov Ramil Vaqif oğlu - mayor
Ələsgərov İntiqam Hüseyn oğlu - mayor
Əliyev Asim Əziz oğlu - mayor
Əliyev Ehtiram Emil oğlu - mayor
Əliyev Əvəz Əhməd oğlu - mayor
Əliyev Kəramət İbrahim oğlu - mayor
Əliyev Şahin Əli oğlu - tibb xidməti mayoru
Əmiraslanov Aqil Qədir oğlu - mayor
Əmirov Vüsal Səmidxan oğlu - mayor
Əzimov Ramal Adil oğlu - mayor
Fərəcov Cavid Yaşar oğlu - mayor
Güləhmədov Tərlan Zaman oğlu - mayor
Gülməmmədov Nicat Osman oğlu - mayor
Həmid Azər Fəti oğlu - mayor
Həsənov Malik Hüseyn oğlu - mayor
Həsənov Rauf Gülağa oğlu - mayor
Həşimov Taleh Mirəskər oğlu - mayor
Hüseynov Elsevər Urfat oğlu - mayor
Hüseynov Mirzə Talıb oğlu - mayor
Hüseynov Namiq Cəmil oğlu - tibb xidməti mayoru
Hüseynov Rəfayıl Vilayət oğlu - mayor
Hüseynov Samir Cəlil oğlu - mayor
Hüseynov Vüqar Rafiq oğlu - mayor
Hüseynov Zaur Hamlet oğlu - mayor
Xəlilov Babək Saleh oğlu - mayor
Xoyluyev Vüsal Sərraf oğlu - mayor
İbrahimov Rauf Məmməd oğlu - mayor
İbrahimov Şirxan Zülfüqar oğlu - mayor
İsgəndərov Səbuhi Sərdar oğlu - mayor
Kərimov Vüsal Nizami oğlu - mayor
Qafarov Rəşad Əbülfət oğlu - mayor
Qafarov Rəşad Zirəddin oğlu - mayor
Qaffarov Samir Zahir oğlu - mayor
Qarayev Amil Söhrab oğlu - mayor
Qəribov Sahib Xanlar oğlu - mayor
Quliyev Amil Zülfüqar oğlu - mayor
Quliyev Vüqar Akif oğlu - mayor
Mehdiyev İlham Bayram oğlu - mayor
Məlikov Rəşad Fuad oğlu - mayor
Məmmədov Elsevər Əfsərağa oğlu - mayor
Mirzəyev Seyfəddin oğlu - mayor
Mirzəyev Ziya Sabir oğlu - mayor
Muradov Rüstəm Yusif oğlu - mayor
Musayev Rauf Şahin oğlu - mayor
Mustafayev Elxan Tahir oğlu - mayor
Namazov Səbutay Səbuhi oğlu - mayor
Nəcəfov Aqil Sahid oğlu - mayor
Nəsirov Sabir Səbran oğlu - mayor
Nuroddinov Anar Babək oğlu - mayor
Nuriyev Mehdi Səttar oğlu - mayor
Paşayev Vüqar Əhmədəli oğlu - mayor
Piriyev Elvin Cavid oğlu - mayor
Ramazanov Anar Əliniyaz oğlu - mayor
Sadıqov Anar Nurəddin oğlu - mayor
Sariyev Raqif Vaqif oğlu - mayor
Səmədov Teymur Arif oğlu - mayor
Səmədov Zaur Qürbət oğlu - ədliyyə mayoru
Sərkarov Yalçın Qafqaz oğlu - mayor
Süleymanov Rafiq Həsən oğlu - mayor
Şəkərov İlham Orucəli oğlu - mayor
Şəmiyev Ağa Məmməd oğlu - mayor
Şəmsiyev Xəqani Xəlil oğlu - mayor
Şükürov Anar Mehman oğlu - mayor (ölümündən sonra)
Tağıyev Famil Abdulla oğlu - mayor
Tahirov Pərvin Akif oğlu - mayor
Vəliyev Məmmədağa Böyükağa oğlu - mayor
Yaqubov Ramil Nəriman oğlu - mayor
Abbasov Tural Namik oğlu - kapitan
Abdullayev Rasim Vasif oğlu - kapitan
Ağamalıyev Pərviz Ağamalı oğlu - kapitan
Ağayev Ceyhun Elbəyi oğlu - kapitan
Ağayev Lətif Ehram oğlu - kapitan
Axundov Vüqar Hamlet oğlu - kapitan
Allahverdiyev Nəsir İsa oğlu - kapitan
Aydınlı Orxan Rasim oğlu - kapitan
Babayev Elturan Səfər oğlu - kapitan
Bağırov İlyas Seyidməsim oğlu - kapitan
Baxışov Ədalət Səyyar oğlu - kapitan
Bayramov Eldar Yaqub oğlu - kapitan
Əhmədov Rəşid İmran oğlu - kapitan
Əkbərov Elnur Əliəsgər oğlu - kapitan
Ələsgərov Əlvan Əsədulla oğlu - kapitan
Əliyev Ceyhun Yusif oğlu - kapitan
Əliyev Elvin Gülməmməd oğlu - kapitan
Əliyev Əflan Daşqın oğlu - kapitan
Əliyev Fərid Vaqif oğlu - kapitan
Əliyev Qafar Məmmədhüseyn oğlu - kapitan
Əsədov Nicat Şikar oğlu - kapitan
Əsədov Şair Qəhrəman oğlu - kapitan
Əzimli Dinar Arif oğlu - kapitan
Həbibzadə Etibar Tahir oğlu - kapitan
Həsənov Bürhan Asəf oğlu - kapitan
Həsənov Səyyub Səfər oğlu - kapitan
Hüseynov Elvin Həsrət oğlu - kapitan
Hüseynov Əli Siyavuş oğlu - kapitan
Hüseynov Rəfayıl Mahir oğlu - kapitan
Xanəliyev Nahid Ərzuman oğlu - kapitan
Xıdırov Sənan Məzahir oğlu - kapitan
İbrahimzadə Ayaz Zakir oğlu - kapitan
İskəndərov Məhəmməd Əbülfəz oğlu - kapitan
İslamov Samir Xalıq oğlu - kapitan (ölümündən sonra)
İsmayılov Fərid Nüsrət oğlu - tibb xidməti kapitanı
İsmayılov Manaf Vaqif oğlu - kapitan
Kazımov Elvin Ədalət oğlu - kapitan (ölümündən sonra)
Kərimov Sübhi Ziyalid oğlu - kapitan
Qaffarov Eyvaz İlyas oğlu - kapitan
Qarayev Anar Şahnamə oğlu - kapitan
Qasımlı Rəşad Məzahir oğlu - kapitan
Qədirov Elçin Nadir oğlu - kapitan
Qocayev Bül-Bül Əhmədoviç - kapitan
Quliyev Murad Məhərrəm oğlu - kapitan
Quliyev Rəşid Sadiq oğlu - kapitan
Quliyev Şəhriyar Əbülfət oğlu - kapitan
Quluzadə Elnur Yusif oğlu - kapitan
Mahmudov Seymur Teymur oğlu - kapitan
Məcidov Bəhmən Ağamməd oğlu - kapitan
Məmmədov İgid Mikayıl oğlu - kapitan
Məmmədov Mahir Nuraddin oğlu - kapitan
Məmmədov Məmməd İlham oğlu - kapitan
Məmmədov Niyaməddin İsmayıl oğlu - kapitan
Məmmədov Rəşad Elşad oğlu - kapitan
Mirəli Mirismayıl Novruz oğlu - kapitan
Mirzəxanlı Bayram Əli oğlu - kapitan
Mirzəyev Mehman Sabir oğlu - tibb xidməti kapitanı
Nəzərov Anar Pənah oğlu - kapitan
Novruzov Vüsal Hümmət oğlu - kapitan
Nuriyev Ağacəfər Məmmədəli oğlu - kapitan
Orucov Soltan Yaqub oğlu - kapitan
Paşayev Paşa Rəhim oğlu - kapitan
Rəsulov Nişat Rafiq oğlu - kapitan
Rüstəmov Çoşqun Rüfət oğlu - kapitan
Rüstəmov İlkin Rasim oğlu - kapitan
Rzayev Etibar Nidayət oğlu - kapitan
Səfərov Şahin Sabutay oğlu - kapitan
Sultanov Sərdar Səfər oğlu - kapitan
Şərbətov İqbal Allahverdi oğlu - kapitan
Şıxəliyev Səfyar Əlyar oğlu - kapitan
Tağıyev Niyaməddin Fəxrəddin oğlu - kapitan
Tağıyev Tural Səxavət oğlu - kapitan
Yaqubov Elvin Rəhman oğlu - kapitan
Abbaslı Cəsarət Ədalət oğlu - baş leytenant
Abbasov Elvin Eldəniz oğlu - baş leytenant
Abbasov Elvin Valeh oğlu - baş leytenant
Abbasov Şaiq Ağəli oğlu - baş leytenant
Abdullayev Anar Azər oğlu - baş leytenant
Abdullayev Haman Yusif oğlu - baş leytenant
Abdurahmanov Fərhad Yaşar oğlu - baş leytenant
Abışov Pərvin Sülhərən oğlu - baş leytenant
Ağalarov Mirtaleh Mirhəmid oğlu - baş leytenant
Ağaməmmədov Aqil Adil oğlu - baş leytenant
Ağamətov Emin Fəxrəddin oğlu - baş leytenant
Ağayev Elçin Zakir oğlu - baş leytenant (ölümündən sonra)
Ağayev Fəxri Ağarza oğlu - baş leytenant
Ağayev Qəzənfər Mahmud oğlu - baş leytenant
Ağayev Ramin Yadigar oğlu - baş leytenant
Allahyar Nəsrəddin oğlu - baş leytenant
Aslanlı Ağəli Alay oğlu - baş leytenant
Aşurov Ayxan Telman oğlu - baş leytenant
Babayev Orxan Vüqar oğlu - baş leytenant
Babayev Vaqif Yaqub oğlu - baş leytenant
Babazadə İsmayıl Zahid oğlu - baş leytenant
Baxışov Sərkar Saleh oğlu - baş leytenant
Bayramov Elvin Vilayət oğlu - tibb xidməti baş leytenantı
Cəbrayılov Elşən Qardaşxan oğlu - baş leytenant
Cəfərov Bahadur Zakir oğlu - baş leytenant
Cəlilov Şahmar İlqar oğlu - baş leytenant
Eminov Anar Ələmdar oğlu - baş leytenant
Eynullayev Elmar Sulduz oğlu - baş leytenant
Əbdüləzimov Rahib Vilayət oğlu - baş leytenant
Əhmədov Emil Mübariz oğlu - baş leytenant
Əhmədov Loğman Müzəffər oğlu - baş leytenant
Əhmədov Müşfiq Zakir oğlu - baş leytenant
Əhmədov Ravil Qurban oğlu - baş leytenant
Əkbərov Yasin Elşən oğlu - baş leytenant
Ələsgərov Səbuhi Qabil oğlu - baş leytenant
Əlimərdanov Qalib Canpolad oğlu - baş leytenant
Əliyev Ağalar Telman oğlu - baş leytenant
Əliyev Azər Fəzail oğlu - baş leytenant
Əliyev Faiq Fəyaz oğlu - baş leytenant
Əliyev Fərid Etibar oğlu - baş leytenant
Əliyev Xaliq Mehman oğlu - baş leytenant
Əliyev Taleh Məhəmməd oğlu - baş leytenant
Əliyev Vüqar Fəzil oğlu - baş leytenant
Əsədullayev Səid Ərəb oğlu - baş leytenant
Əşrəfov Rəvan Rasim oğlu - baş leytenant
Fərəcov Şəhriyar İlqar oğlu - baş leytenant
Gülmalıyev Malik Mayıl oğlu - baş leytenant
Hacıyev Fəryad Alim oğlu - baş leytenant
Hacıyev Mehran Yasin oğlu - baş leytenant
Hacıyev Rasim Qinyaz oğlu - baş leytenant
Hacıyev Tural Gəncali oğlu - baş leytenant
Həsənli Arif Fizuli oğlu - baş leytenant
Həsənov Sərdar Dilsuz oğlu - baş leytenant
Həsrətov Əfqan Vidadi oğlu - baş leytenant
Hümbətov Hafiz Valeh oğlu - baş leytenant
Hüseynli Ceyhun Məşəllə oğlu - baş leytenant
Hüseynov Elvin Oktay oğlu - baş leytenant
Hüseynov Fuad Fərhad oğlu - baş leytenant
Hüseynov Münasib Asif oğlu - baş leytenant
Hüseynov Raqib Adil oğlu - baş leytenant (ölümündən sonra)
Xəlilzadə Əhəd Çingiz oğlu - baş leytenant
İbadov Rusif Macid oğlu - baş leytenant
İbrahimov Asiman İlqar oğlu - baş leytenant
İbrahimov Elmuraz Ramiz oğlu - baş leytenant
İbrahimov Ramid Mübariz oğlu - baş leytenant
İmanov Rəsul Rafət oğlu - baş leytenant
İslamov Ziyad Oktay oğlu - baş leytenant
İsrafilbəyli Sənan İbadət oğlu - baş leytenant
İsrafilov Elmar Vilayət oğlu - baş leytenant
Kazımov Nahid Veysəl oğlu - baş leytenant
Kazımzadə Elmir Adil oğlu - baş leytenant
Kərimov Mirzəmməd Mirzəmməd oğlu - baş leytenant
Kərimov Vidadi Elşad oğlu - baş leytenant
Kərimov Yaqub Ramiz oğlu - baş leytenant
Qasımov Babək Baba oğlu - baş leytenant
Qasımov Həmid Oruc oğlu - baş leytenant (ölümündən sonra)
Quliyev Xalid Ələsgər oğlu - baş leytenant
Quliyev Tural Elbəy oğlu - baş leytenant
Qurbanlı Mehdi Akif oğlu - baş leytenant
Lətifov Lətif Nazim oğlu - baş leytenant
Mehdiyev Hüseyn Malik oğlu - baş leytenant
Məhərrəmzadə Heydər Hüçət oğlu - baş leytenant
Məmiyev Elnur Əhliman oğlu - baş leytenant
Məmmədov Elmar Elçin oğlu - baş leytenant
Məmmədov Elvin Qurban oğlu - baş leytenant
Məmmədov Oruc Valeh oğlu - baş leytenant
Məmmədov Süleyman Fərhad oğlu - baş leytenant
Məmmədov Taleh Daşdəmir oğlu - baş leytenant
Məmmədzadə Nofəl Əlövsət oğlu - baş leytenant
Mirzəzadə Aqşin Rasif oğlu - baş leytenant
Musayev Əli Rəsul oğlu - baş leytenant
Musayev Zaur Məmmədiyyə oğlu - baş leytenant
Mustafayev Cəsarət Sədəddin oğlu - baş leytenant
Mustafayev Xanəhmədi Mərəhmədi oğlu - baş leytenant
Nəcəfov Seymur Meydan oğlu - baş leytenant
Nəzərov Famil Əlövsət oğlu - baş leytenant
Nuhov Vüqar Ənvər oğlu - baş leytenant
Nuriyev Nəsir Çingiz oğlu - baş leytenant
Ömərov Ramil Hidayət oğlu - baş leytenant
Paşabəyli Orxan Qiblə oğlu - baş leytenant
Ramazanov Tural Ramiz oğlu - baş leytenant
Rəcəbov Nurlan Zaur oğlu - baş leytenant
Rəfiyev Elşad Sərvan oğlu - baş leytenant
Rəhimli Elman Nahid oğlu - baş leytenant
Rəşidov Saleh Sahib oğlu - baş leytenant
Rüstəmov Ramiz Dünyamalı oğlu - baş leytenant
Rzayev Sadiq Əli oğlu - baş leytenant
Sadıqov Kamran Mustafa oğlu - baş leytenant
Salmanov Azər Əli oğlu - baş leytenant
Seyidov Adəm Mirəhməd oğlu - baş leytenant
Şahmarov Bəxtiyar Şöhrət oğlu - baş leytenant
Şıxəliyev Elmir Rövşən oğlu - baş leytenant
Şükürlü Şamo Rasim oğlu - baş leytenant
Tağıyev Təbriz Asif oğlu - baş leytenant
Tağıyev Vəli Rəhim oğlu - baş leytenant
Temirsoy Orxan Teymur oğlu - baş leytenant
Vəliyev Adil Nəsib oğlu - baş leytenant
Vəliyev Mütəllim İltifat oğlu - baş leytenant
Yavərov Yaşar Sənan oğlu - baş leytenant
Yediyarov Rəşad Vidadi oğlu - baş leytenant
Yolçuyev İzzət İsa oğlu - baş leytenant
Zeynalov İlqar Natiq oğlu - baş leytenant (ölümündən sonra)
Ziyadlı Tacəddin İlham oğlu - baş leytenant
Zülfüqarlı Haşım Yusif oğlu - baş leytenant
Abdurəhmanov Xəzər Elxan oğlu - leytenant
Ağalarov Mirqubad Əli oğlu - leytenant
Ağamalıyev Ziya Şölət oğlu - leytenant
Ağayev Fərid Rəşid oğlu - leytenant
Ağayev Tariyel Zəfər oğlu - leytenant
Alıyev Bəhram Qəhrəman oğlu - leytenant
Azayev Vaqif Əjdər oğlu - leytenant
Babayev Akşin Şahid oğlu - leytenant
Babayev Anar Vahid oğlu - leytenant
Babayev Ayaz Şahin oğlu - leytenant
Baxşəliyev Pərvin Famil oğlu - leytenant
Baxşəliyev Sadiq Vüqar oğlu - leytenant
Baxşıyev Heydər Ramiz oğlu - leytenant
Bayramlı Elmar İsa oğlu - leytenant (ölümündən sonra)
Bədəlov Ağamalı Məhərrəm oğlu - leytenant
Bəşirov Orxan İmamqulu oğlu - leytenant
Bünyatov Məzahir Səlamət oğlu - leytenant
Cabbarov Zülfəli Yaşar oğlu - leytenant
Cəbrayıllı İlkin Natiq oğlu - leytenant
Dadaşov Tural Cəbrayıl oğlu - leytenant
Elyasov Rahat Rafət oğlu - leytenant
Eminov Emin Elman oğlu - leytenant
Əhmədli Elmir Muğan oğlu - leytenant
Əhmədli İsmayıl İlham oğlu - leytenant
Əliquliyev Vəli Göydəniz oğlu - leytenant
Əlisultanov Fərid Vüqar oğlu - leytenant
Əliyev Azər Zakir oğlu - leytenant
Əliyev Əfsun Hümmət oğlu - leytenant
Əliyev İmran Əli oğlu - leytenant (ölümündən sonra)
Əliyev Pərvin Məzahir oğlu - leytenant
Əlizadə Emin Süleyman oğlu - leytenant
Əmrahov Həbibulla Sahib oğlu - leytenant
Əmrahov Ramin Telman oğlu - leytenant
Əsgərov İlkin Əlibaba oğlu - leytenant
Əzimov Müşfiq Əsəd oğlu - leytenant
Əzizov Natiq Nahid oğlu - leytenant
Fətullayev Eldar Kərim oğlu - leytenant
Güneşov Nurlan Mənsur oğlu - leytenant
Hacıyev Elbrus Əjdər oğlu - leytenant
Hacıyev İbyamən Cabbar oğlu - leytenant
Hacıyev Şükür Bayram oğlu - leytenant (ölümündən sonra)
Hadıyev Qəşəm Hamil oğlu - leytenant
Heybətov Əlimehrab Ataş oğlu - leytenant
Həmidli Səməd Şəmsəddin oğlu - leytenant
Həsənli Fərid Bəxtiyar oğlu - leytenant
Həsənli Rüfət Xaliq oğlu - leytenant
Həsənov Firudin Valeh oğlu - leytenant
Həsənov İmaməli Ağaverdi oğlu - leytenant
Həsənov Qoşqar Qəhrəman oğlu - leytenant
Həsənov Ruslan Nəsrullah oğlu - leytenant
Hidayətov Ramin Comərd oğlu - leytenant
Hüseynov Rauf Firəddin oğlu - leytenant
Hüseynzadə Amil Kamil oğlu - leytenant
Hüsüyev Ramil Təvəkgül oğlu - leytenant
Xəlilov Aqil Bəybala oğlu - leytenant
İbayev Ağaxan Azər oğlu - leytenant
İbrahimli Cavid Arif oğlu - leytenant
İbrahimov Eldəniz Nəsrəddin oğlu - leytenant
İbrahimov Seymur Teyfur oğlu - leytenant
İsmayılov Sənan Nüsrət oğlu - leytenant
İsmayılzadə Elgün Barat oğlu - leytenant
İsmayılzadə Məhəmməd Nəsimi oğlu - leytenant
Karimov Azər Macid oğlu - leytenant
Qafulov Ruslan Bayram oğlu - leytenant
Qasımov Dəyanət Vüqar oğlu - leytenant
Qəribov Xəyyam Baybala oğlu - leytenant
Quliyev Aslan Adil oğlu - leytenant
Quluzadə Rəşad Rauf oğlu - leytenant
Qurbanlı Nazim Füzuli oğlu - leytenant
Lazımov Fikrət Bahadur oğlu - leytenant
Mehnətov Ramil Isa oğlu - leytenant
Məhərrəmov Niyaməddin Nurəddin oğlu - leytenant
Məmmədli Məhəmməd Məhərrəm oğlu - leytenant
Məmmədov Elcan Zöhrab oğlu - leytenant (ölümündən sonra)
Məmmədov Ruslan Ramiz oğlu - leytenant (ölümündən sonra)
Məmmədzadə Sənan Bəşir oğlu - ədliyyə leytenantı
Mənəfov Şahmar Məmməd oğlu - leytenant
Məstəliyev Toğrul Əkbər oğlu - leytenant
Mikayıllı Cəmaləddin İlyas oğlu - leytenant
Mirzəyev Davud Mehti oğlu - leytenant
Muradlı Əli Etibar oğlu - leytenant
Musayev Abbas Malik oğlu - leytenant
Mustafayev İsmayıl Qasım oğlu - leytenant
Nağıyev Vasif Çingiz oğlu - leytenant
Niyazov Elvin Nəcəf oğlu - leytenant
Novruzov Natiq Novruz oğlu - leytenant
Nurullayev Emil Elçin oğlu - leytenant
Orucov Taleh Tapdıq oğlu - leytenant
Paşalı Ülvi Turab oğlu - leytenant
Rüstəmov İbrahim Əbülfət oğlu - leytenant
Rzazadə Ülvi Üzeyir oğlu - leytenant
Sadıqov Fuad Qurban oğlu - leytenant
Salahov Məhəmməd Sabir oğlu - leytenant
Salmanov Faqan Rzalı oğlu - leytenant
Səfərov Hafiz Tofiq oğlu - leytenant
Şahvələdov Ərəb Araz oğlu - leytenant
Şəmilov Azər Elyas oğlu - tibb xidməti leytenantı (ölümündən sonra)
Şirinov Hüseyn Teymur oğlu - leytenant
Şükürov Elvin Elşən oğlu - leytenant
Tağıyev Tural Qafqaz oğlu - leytenant
Tağızadə Cəfər Röyşən oğlu - tibb xidməti leytenantı
Vəliyev Abbas Kamil oğlu - leytenant
Vəliyev Tofiq Mirqalib oğlu - leytenant
Valizadə Hüseyn Əbdülhannan oğlu - leytenant
Valizadə Xəlil Rauf oğlu - leytenant
Valizadə İbrahim Malik oğlu - leytenant (ölümündən sonra)
Yaqubov Hümbət Arzu oğlu - leytenant
Yusifli Şərəf Bəhruz oğlu - leytenant
Zeynallı Zəfər İbad oğlu - leytenant
Əhmədov Ağaismayıl Feyyaz oğlu - kiçik leytenant
Əhmədov Nurlan Nəriman oğlu - kiçik leytenant
İbrahimov İlyas Balamirzə oğlu - kiçik leytenant
Abbasov Alim Akif oğlu - baş gizir
Abdullayev Anar Aydın oğlu - baş gizir
Abmüslümov Eynulla Akif oğlu - baş gizir
Ağayev Rafayıl Rəhman oğlu - baş gizir
Allahverdiyev Orxan Malik oğlu - baş gizir
Allahyarov Elcan Elçin oğlu - baş gizir
Aslanov Röyşən Ənvər oğlu - baş gizir
Babaşov Tural Röyşən oğlu - baş gizir
Babayev Dilsuz Əbülfəz oğlu - baş gizir
Babayev İlkin Nazar oğlu - baş gizir
Bağırov Rahil Bağır oğlu - baş gizir
Cəfərov Bəhruz Bəybala oğlu - baş gizir
Cəfərov Elməddin Ələyddin oğlu - baş gizir
Cəfərov Əşrəf Fayaz oğlu - baş gizir
Cəfərov Ramil Təvəkkül oğlu - baş gizir
Eminov Cavidan Mail oğlu - baş gizir
Əhmədov Camal Arif oğlu - baş gizir
Əhmədov Sabit Zakir oğlu - baş gizir
Ələsgərov Asəf Ağa oğlu - baş gizir
Əliyarov Ceyhun Sədrəddin oğlu - baş gizir
Əliyev Abdulla Rəfail oğlu - baş gizir
Əliyev Bilal Zülfüqar oğlu - baş gizir
Əliyev Ramin Rəhim oğlu - baş gizir
Əliyev Ruslan Cəfər oğlu - baş gizir
Əliyev Sirac Fəxrəddin oğlu - baş gizir
Əliyev Vahid Rəhim oğlu - baş gizir
Əliyev Zamir Zakir oğlu - baş gizir
Həmidov Amil Məmməd oğlu - baş gizir
Hüseynov Rəşad Faiq oğlu - baş gizir
Xudaverdiyev Cavid Zöhrab oğlu - baş gizir
İbrahimov Yasədin Yusub oğlu - ehtiyatda olan baş gizir
İsgəndərov Samid Camal oğlu - baş gizir
Qasımov Emil Xanbaba oğlu - baş gizir
Qasımov İlyas Səfər oğlu - baş gizir
Qasımov Rəmal Saleh oğlu - baş gizir (ölümündən sonra)
Qasımov Şamxal Sabir oğlu - baş gizir
Qənbərov Vüsal Əli oğlu - baş gizir
Mehdiyev Aqil Sabutay oğlu - baş gizir
Məlikov Elman Salman oğlu - baş gizir
Məmmədov Azər İsa oğlu - baş gizir
Mirzəmmədov Xaqani Nizamoviç - baş gizir
Muradov Rüfət Heydar oğlu - baş gizir
Musayev Bəxtiyar Rakim oğlu - baş gizir
Mustafayev Mehrab Simran oğlu - baş gizir
Nəsirov Məhəmmədəli Maarif oğlu - baş gizir
Ramazanov Amid Rodik oğlu - baş gizir
Rəhmanov Aqil Mürşüd oğlu - baş gizir
Sadıqov Röyşən İslam oğlu - baş gizir
Salmanov Elnur Mütəllim oğlu - baş gizir
Səfərov Ramil Telman oğlu - baş gizir
Süleymanov İlkin Mahir oğlu - baş gizir (ölümündən sonra)
Şabanov Ceyhun Başir oğlu - baş gizir
Vəliyev Əli Məmməd oğlu - baş gizir
Vəliyev Vüqar Mirzə oğlu - baş gizir
Yunisov Vüsal Farman oğlu - baş gizir
Yusibov İsmayıl Müsail oğlu - baş gizir
Yusifov Zülfüqar Valeh oğlu - baş gizir
Abbasov Ayaz Novruz oğlu - gizir
Abbasov Çingiz Sadiq oğlu - gizir
Abbasov Ərəstun Tofiq oğlu - gizir
Abbasov Hüseyn Əlizadə oğlu - gizir (ölümündən sonra)
Abbasov Ramil Məhəmmədəli oğlu - gizir
Abbasov Sadiq Məhəmməd oğlu - gizir
Abduləliyev Fərail Pənah oğlu - gizir
Abdulkərimov Mətləb Müzəffər oğlu - gizir
Abdullayev Arzu Burzu oğlu - gizir
Abdullayev Sadi Həsən oğlu - gizir
Abdullayev Səməd Fazil oğlu - gizir
Abuşov Elvin Rəsul oğlu - gizir
Ağayev Mirpaşa Mürşüd oğlu - gizir
Axundov Mirzə Musa oğlu - miçman (ölümündən sonra)
Alıyev Gündüz Rasim oğlu - gizir
Allahverdiyev Allahverdi Mehman oğlu - gizir
Aslanov Xəyal Qüdrət oğlu - gizir (ölümündən sonra)
Aslanov Qəhrəman Fazil oğlu - gizir
Aslanov Vüsal İntizar oğlu - gizir
Aşiqov Elçin Fəxrəddin oğlu - gizir
Babalı Qorxmaz Səhran oğlu - gizir
Babayev Elşad Bayram oğlu - gizir
Babayev Kamran Nəsrulla oğlu - gizir
Babayev Mahir Süleyman oğlu - gizir
Babayev Saday Bəylər oğlu - gizir
Babazadə Mirmehti Mirhətəm oğlu - gizir
Babazadə Sənan Zahid oğlu - gizir
Bayramov Ariz İmran oğlu - gizir
Bayramov Elnur Elxan oğlu - gizir
Bayramov Elnur Tofik oğlu - gizir
Bayramov Qəhrəman İntizaroviç - gizir
Bəyəliyev İrasət Mirdadaş oğlu - gizir
Camalov Camal Sədi oğlu - gizir
Cəbrayılov Rusif Yusif oğlu - gizir
Cəbrayılov Samir Tahir oğlu - gizir
Cəfərov Abuzər Ayaz oğlu - gizir
Cəfərov Adəm Zəfər oğlu - gizir
Cəfərov Cabbar Azad oğlu - gizir
Cəfərov Fuad Şahin oğlu - gizir
Cəfərov Nüsrət Bayram oğlu - gizir
Cəfərov Ramiş Hüseyn oğlu - gizir
Cəfərov Vidadi Seyfulla oğlu - gizir
Dadaşov Xəqani Nadirhüseyn oğlu - gizir
Eldarov Eyvaz Eldar oğlu - gizir
Eynullayev Elşad Suliddin oğlu - gizir
Eynullayev Əli Höküməli oğlu - gizir
Əbdülrəhimov Röyşən Mövlud

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının “Suqovuşanın azad olunmasına görə” medalı ilə təltif edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Əvvəli 7-ci səh.

Abbasov Samir Hüseyn oğlu - əsgər
Abbasov Samir Rafikoviç - əsgər
Abbasov Samir Rəşad oğlu - əsgər
Abbasov Seymur Nazim oğlu - əsgər
Abbasov Sənan Bəkir oğlu - əsgər
Abbasov Şəhriyar Qamət oğlu - əsgər
Abbasov Teymur Mübariz oğlu - əsgər
Abbasov Valeh Nizami oğlu - əsgər
Abbasov Zaur Məzahir oğlu - əsgər
Abbaszadə Emin Faiq oğlu - əsgər
Abbaszadə Nicat Mürvət oğlu - əsgər
Abbaszadə Rəşad İlyas oğlu - əsgər
Abdıyev Kərim Nusaməddin oğlu - əsgər
Abdinov Sərvət Zöhrab oğlu - əsgər
Abduləzimov Xəyyam Məqsəd oğlu - əsgər
Abdulxalıqov Habil Müsənnif oğlu - əsgər
Abdulkərimov Kürdəmir Ağakərim oğlu - əsgər
Abdullayev Anar Ramiz oğlu - əsgər
Abdullayev Asif Vaqif oğlu - əsgər
Abdullayev Ayaz Gündüz oğlu - əsgər
Abdullayev Ayaz Tofiq oğlu - əsgər
Abdullayev Balazadə Rəfət oğlu - əsgər (ölümündən sonra)
Abdullayev Bəhram Təzəxan oğlu - əsgər
Abdullayev Calal Kamran oğlu - əsgər
Abdullayev Cavidan Aqil oğlu - əsgər
Abdullayev Ceyhun Lətif oğlu - əsgər
Aİ-nin 447 milyon sakinindən risk qrupundan asılı olaraq prioritet sırasına görə əvvəlcə yaşlılar peyvənd ala biləcəklər. Birinci mərhələdə yaşı 80-dən yuxarı olan və ciddi sağlamlıq problemləri yaşayan adamlar peyvənd olunacaqlar. Tədricən yaş həddi azalacaq və nəticədə arzulayan hər kəs peyvəndlənə biləcək. Növbəti mərhələlərdə peyvəndləmə yaşı 70 və 60-dan yuxarı olanlara, həmçinin xroniki xəstəliklərdən, böyrək, qaraciyər, xərçəng və autoimmun xəstəliklərindən əziyyət çəkənlərə şamil ediləcək. Digər kateqoriyadan olan tibb işçiləri, polis əməkdaşları, yanğınsöndürənlər, müəllimlər və pərakəndə ticarətdə işləyənlər tədricən peyvəndlənəcəklər.

Almaniya, Macarıstan və Slovakiyada peyvəndləmə planlaşdırılmış vaxtdan bir gün əvvəl başlamışdır. Almaniyanın Saksoniya-Anhalt vilayətində qocalar evinin onlarca sakini peyvənd almışlar. İlk peyvəndlənən şəxs qocalar evinin 101 yaşlı sakini Edit Kvoytsalla olmuşdur.

Niderlandda peyvəndləmə Yeni ildən sonra - yanvarın 8-də başlayacaq. Səhiyyə Nazirliyi izah etmişdir ki, informasiya texnologiyaları infrastrukturunu kampaniyaya hazırlaya bilməmiş, çağrı mərkəzlərinin işçiləri üçün tövsiyələr hazırlamaqda gecikmişdir. Peyvəndlənməyə hamıdan qabaq qocalar evlərində işləyənlər, əlillərə baxanlar və tibbi yardım göstərənlər dəvət olunacaqlar.

Bu arada Aİ-də koronavirusa qarşı kütləvi peyvəndlənmənin başlaması ilə əlaqədar qitənin polis təşkilatı - Avropol dələduzluq barədə xəbərdarlıq etmişdir. Avropolun rəhbəri Katrin de Boll cinayətkarların böyük tələbatdan sui-istifadə etməyə çalışacaqları üçün real təhlükə olduğunu nəzərə çatdırmışdır. Onun dediyinə görə, fırıldaqçılar peyvənd satışı barədə sosial şəbəkələrdə elanlar yerləşdirmişlər.

Avropolun rəhbəri həmçinin qeyd etmişdir ki, hüquq mühafizə orqanları koronavirus peyvəndini oğurlamaq cəhdlərinə qarşı hazır olmalıdırlar: "İlk karantin zamanı bandalar, məsələn, qoruyucu maskalar daşıyan nəqliyyat vasitələrinə hücum etmişdi. İndi belə təhlükəyə peyvəndləmə preparatları məruz qala bilər". Odur ki, Avropol bu cür cinayətlərin baş verməsi ehtimalının ən yüksək olduğu yerləri müəyyənləşdirmişdir. Bundan əlavə, Avropa ölkələrinin polis idarələri peyvənd oğurluğunun qarşısını almaq üçün bir-biri ilə əməkdaşlıq etmək niyyətindədir.

Qeyd edək ki, BNT162b2 peyvəndi Aİ-yə dekabrın 25-də gəlməyə başlamışdır. Ertəsi gün Avropa Komissiyasının sədri Ursula von der Lyayen məlumat vermişdir ki, koronavirus peyvəndi Aİ-nin bütün ölkələrinə çatdırılmışdır. O vurğulamışdır ki, peyvəndləmə kampaniyası Aİ-nin tədricən normal həyata qayıtmasına imkan verəcək.

Aİ-dən əlavə, Rusiya, Böyük Britaniya, ABŞ, Kanada, Meksika və Latın Amerikasının bəzi ölkələrində peyvəndləmə artıq başlamışdır. Bu kampaniya dünyada ilk dəfə Çində start götürmüşdür.

Allahverdi MEHDİYEV,
"Azərbaycan"

Karantin rejimi qaydalarını pozan 2365 nəfər barəsində inzibati tənbeh tədbiri tətbiq olunub

Koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə sərt karantin rejiminin tətbiq edildiyi 5 şəhərin və 12 rayonun giriş-çıxışlarında quraşdırılmış xüsusi postlarda polis əməkdaşları və daxili qoşunların hərbi qulluqçuları nəzarət-profilaktiki yoxlamaları davam etdirirlər.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, dekabrın 28-də həmin postlardan müvafiq qaydada icazə almadan keçməyə cəhd göstərən 2538 nəqliyyat vasitəsi müəyənləşdirilərək geri qaytarılıb. Eləcə də həmin müddətdə ölkə üzrə karantin rejimi qaydalarını pozan 2365 nəfər barəsində inzibati tənbeh tədbiri tətbiq edilib.

Bu istiqamətdə həyata keçirilən bütün tədbirlər əhalinin təhlükəsizliyinin təmin olunması və onların sağlamlığının qorunmasına xidmət edir. Ona görə də nazirlik vətəndaşlardan tətbiq edilən izolyasiya tədbirlərini anlayışla qarşılamalarını, zərurət olmadan yaşayış yerlərini tərk etməmələrini xahiş edir.

Koronavirusdan 4209 nəfər sağalıb, 1101 nəfər isə yoluxub

Azərbaycan Respublikasında koronavirus infeksiyasından 4209 nəfər müalicə olunaraq sağalıb, 1101 yeni yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 37 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 216 min 584 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 176 min 228 nəfər müalicə olunaraq sağalıb, 2575 nəfər vəfat edib. Aktiv xəstə sayı 37781 nəfərdir.

Ötən müddət ərzində 2 milyon 174 min 343 test aparılıb. Dünənki test sayı isə 11279-dur.



"COVID-19: reallıqlar və profilaktika" adlı vebinar təşkil olunub

Naxçıvan Dövlət Universitetində (NDU) keçirilən "COVID-19: reallıqlar və profilaktika" adlı vebinar "Webex" platformasında və universitetin "Facebook" (ndu.edu.az) sosial şəbəkəsində rəsmi səhifəsi vasitəsilə canlı yayımlanıb. NDU-nun Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, Tibb fakültəsinin V kurs tələbəsi Nərgiz Babayeva "COVID-19: mənşəyi, etiologiyası, yayılması" mövzusu ilə bağlı ətraflı məruzə edib. Bildirib ki, koronavirus adi soyuqdəymə əlamətlərindən Yaxın Şərq Respirator Sindromu (MERS) və Şiddətli Kəskin Respirator Sindromu (SARS) kimi daha ciddi patologiyalara qədər çeşidli xəstəliklərə səbəb olan böyük bir virus fəsiləsidir. Səthlərində çubuqşəkilli çıxıntılara malikdirlər. Bu çıxıntılar latınca "tac" mənasını verən "corona" sözü ilə adlandırılaraq viruslara "koronavirus" (taclı virus) adı verilib.

Universitetin həkim-rezidenti Səidə Novruzova "COVID-19: kliniki əlamətləri və differensial diaqnostikası" adlı çıxışında qeyd edib ki, infeksiyanın əsas göstəriciləri tənəffüs simptomları, hərarət, öskürək və təngnəfəslikdir. Bu yoluxma hadisələri qızdırma, təngnəfəslik və ikitərəfli ağciyər pnevmoniya infiltrasiyası ilə müşahidə edilib və indiyə qədər bilinən ölüm halları daha çox yaşlı şəxslərdə olub.

Təcili Tibb Mərkəzinin baş həkimi Vüsal Əliyev "Koronavirusun laborator diaqnostikası" adlı məruzəsində vurğulayıb ki, COVID-19 xəstələrinin dəyərləndirilməsində klinik və laborator parametrlər daha həssasdır. Ağciyərlərin kompüter tomoqrafiyası (KT) testi neqativ COVID-19 xəstələrində erkən dövrdə həssas radioloji müayinə metodudur. Təsdiqlənmiş COVID-19 yüngül simptomları olan, ağırlaşma riski olmayan xəstələrə və COVID-19 testi neqativ olan yüngül simptomlu xəstələrə KT müayinəsi məsləhət görülmür. Klinik simptomlarda ağırlaşma, COVID-19-un proqressiyası, pulmonar emboliya və ya eləvə olaraq bakterial pnevmoniya kimi ikincil kardiopulmonar anormallıqlar və ya COVID-19-un miokardı zədələməsinə bağlı olaraq ürək çatışmazlığını dəyərləndirmək üçün KT müayinəsi məsləhət görülür.

"COVID-19: şüa diaqnostikası" adlı çıxışında Naxçıvan Muxtar Respublikası Xəstəxanasının həkim radioloqu Aysel Quliyeva koronavirusa yoluxan şəxslərdə rast gəlinən əlamətlər, xəstəliyin simptomsuz gedişi, nisbətən yaşlı və yanaşı xəstəliyi olan şəxslərdə baş verə biləcək ağırlaşmalar haqqında məlumat verib. COVID-19 virusunun diaqnostikası, aparılan testlərin yoluxma haqqında informativlik dərəcəsi və digər bu kimi vacib məsələlər haqqında danışan həkim koronavirusa yoluxan şəxslərdə rast gəlinən ağciyər əlamətləri, xəstəliyin gedişində hansı instrumental diaqnostika vasitələrindən istifadə edilməsi, "buzlu şüşə" görüntüsü, protokola uyğun olmayan formada özünü evdə müalicə edərək ağırlaşan şəxslərdə rast gəlinən ağırlaşmalar zamanı ağciyərdə baş verən dəyişikliklər haqda ətraflı məlumat verib.

NDU-nun həkim-rezidenti Şölə Quliyeva "COVID-19: ambulator müalicəsi" adlı məruzəsində qeyd edib ki, COVID-19 diaqnozlu xəstələrin müalicəsi hazırda ölkəmizdə iki istiqamətdə həyata keçirilir - ambulator və stasionar şəraitdə. Ambulator xəstələrin müraciətlərində əsasən yüksək hərarət, öskürək, boğazda qıcıqlanma, əzələ-oynaq ağrıları, ümumi halsızlıq qeyd edilir. Xəstəliyin 2-ci həftəsi daha ciddi diqqət edilməsi lazım olan həftədir. Bildirilib ki, test nəticələri müsbət çıxan xəstələrin siyahıları tutulur. Bu xəstələrlə daha sonra telefonla əlaqə saxlanılır və mövcud vəziyyətləri ilə bağlı sorğular həyata keçirilir. Qeyd etmək lazımdır ki, reseptlə təchiz olunmuş dərmanlar birbaşa xəstələrin yaşadıqları yerlərə çatdırılır. Pasiyentlər onları 15-20 gün ərzində qəbul edir. Sahə həkimləri gündə iki dəfə onlarla əlaqə saxlayıb, dərman qəbuluna nəzarət edirlər. Yuxarıda sadalanan, bu günə qədər görülmüş bütün tədbirlər xəstəliyi evdə asanlıqla keçirən və tibb müəssisələrinə baş çəkməyən pasiyentlərin tezliklə sağalması üçün zəruri şərait yaradıb və bununla digərlərin yoluxma təhlükəsini azaldıb. İndi biz COVID-19 diaqnozlu pasiyentlərin xəstəxanalara yerləşdirilmə sayında ciddi azalma müşahidə edirik, ağır xəstələrin sayı azalmaqdadır.

Naxçıvan Muxtar Respublikası Xəstəxanası Pulmonologiya şöbəsinin müdiri Dilarə Baxşəliyeva "COVID-19: stasionar müalicə"si adlı məruzə ilə çıxış edib. Bildirib ki, daha ciddi simptomları, məsələn, hərəkətlə artan və ya sakitlik zamanı yaranmış təngnəfəslik, boğulma, saturasiyanın düşməsi halları qeyd edilən xəstələr stasionar müşahidəyə alınır. Xəstəliyin xüsusilə virus infeksiyası olduğu unudulmamalıdır. Viruslar antibiotiklərlə müalicə edilmir. Əgər koronavirusun müalicəsi antibiotiklərlə mümkün olsaydı, bu gün pandemiya qorxulu xəstəlik olmaqdan çıxardı. Ehtiyac və göstəriş olmadan antibiotiklərlə müalicəyə başlanması, profilaktik məqsəd adı altında qəbulu yolverilməzdir. Virus infeksiyaları antiviral preparatlarla müalicə olunur. Xəstənin günlük izlənməsi, yaranmış hər bir kiçik simptomun araşdırılması, immun cavabının balanslaşdırılması ən önəmli müalicə taktikasıdır.

NDU-nun Müalicə işi ixtisası üzrə IV kurs tələbəsi Suada Vahabova "COVID-19: profilaktikası, vaksinasiya" adlı məruzəsində bildirib ki, vaksinin yaradılması ancaq başlanğıcdır və indi əsas məsələ onun uğurla tətbiq edilməsidir. Vaksinin yüksək effektivliyi 80-90 faizdir. Heç bir vaksin 100 faizli mütləq nəticəyə zəmanət vermir. Vaksinə qoyulan tələblər yalnız onun effektivliyini deyil, həm də maksimum təhlükəsizliyini təmin etməlidir.

Qorxu hissi ilə yaşayanların istənilən virusa yoluxması mümkündür

Qorxu ilə yaşayanlar və həddindən artıq qorunanlar yeni növ koronavirus (COVID-19) infeksiyasına daha tez yoluxurlar. Doğrudur, diqqətli olmaq və qorunmaq tövsiyə edilsə də, psixoloji olaraq özünü buna hazırlamamaq bəzən yoluxmanı tezləşdirə bilər. Yoluxmanın artmasının kökündə psixoloji amillər də dayanır.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi, psixologiya üzrə fəlsəfə doktoru Yeganə Əsgərova deyib: "Bəzi insanlar xəstələnmədiyi və heç bir problem olmadığı halda eşitdiyi hansısa xəbərdən, kiminsə COVID-ə yoluxmasından özünü xəstəliyə yoluxmuş kimi görür. Təbii ki, bunlar obsessiv əlamətlərdir. Belə problemlərdən əziyyət çəkənlər çox ciddi gərginlik keçirir, həyəcan səviyyəsi artır və immunitetin səviyyəsi aşağı düşür. Belə vəziyyətdə olanda istənilən virusa yoluxmaq mümkündür".

Psixoloqun dediyinə görə belə insanlar çox vaxt düşünürlər ki, xəstəlik ölümə bərabərdir və bu düşüncələr xəstəliyin həqiqətən də ağırlaşmasına aparıb çıxarır. Ona görə də qorxu hissi yüksək olan belə insanlara yoluxma statistikası ilə maraqlanmaq da məsləhət görülmür. Bundan başqa, koronaviruslu xəstələrin 80 faizində nevroloji əlamətlər aşkarlanır.

"Onlarda həyəcan səviyyəsi çox yüksəkdir, ipoxandiv, obsessiv, sayrışan hallar nevrozu çox olur və bu hallarla mübarizə aparmaq üçün psixoloji dəstəyə ehtiyac var. Ona görə də şüurda psixoloji olaraq özümüzü qorumaqla belə hallarla mübarizə aparmaq lazımdır", - deyə həmsöhbətimiz bildirib.

Azərbaycan və Rusiya hüquq alimləri arasında elmi körpü yaratmış jurnal

Rusiya-Azərbaycan humanitar əlaqələri son 20 ildə daha yüksək dinamizmlə inkişaf edib, xüsusilə elm və təhsil sahəsində qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi prioritet istiqamətlərdən birinə çevrilib.

Xatırlatmaq lazımdır ki, Prezident Vladimir Putinin hələ 2001-ci ildə Azərbaycana reallaşan ilk rəsmi səfərindən sonra Rusiya Federasiyasının Təhsil Nazirliyi azərbaycanlı gənclərin bu ölkədə təhsil almaları üçün müxtəlif ali təhsil müəssisələrində 100-dək yer ayırıb. Azərbaycanlı tələbələr bu gün M.V.Lomonosov adına Moskva Dövlət Universitetində, D.Mendeleyev adına Rusiya Kimya-Texnologiya Universitetində, İ.M.Qubkin adına Dövlət Neft və Qaz Akademiyasında, G.V.Plexanov adına Rusiya İqtisadiyyat Akademiyasında, İ.M.Seçenov adına Moskva Tibb Akademiyasında, O.E.Kutafin adına Moskva Dövlət Hüquq Universitetində, Rusiya Federasiyası Prezidenti yanında Xalq Təsərrüfatı və Dövlət Xidməti Akademiyasında və digər nüfuzlu universitetlərdə təhsil alırlar.

İkitərəfli elmi əlaqələrin inkişafında təkcə ali təhsil müəssisələrinin, habelə nüfuzlu elm xadimlərinin deyil, ixtisaslaşmış elmi təşkilatların rolunu xüsusi qeyd etmək lazımdır. Hüquq sahəsində müştərək elmi tədqiqatların və layihələrin reallaşdırılmasında Moskva şəhərində yerləşən Beynəlxalq Kriminalistlər və Kriminoloqlar İttifaqı, habelə qurumun Azərbaycan nümayəndəliyi öz sözünü deyir.

İttifaq 1992-ci ildə Moskva Dövlət Hüquq Universitetinin (MDHU) rektoru, akademik Oleq Kutafinin təşəbbüsü ilə yaradılıb. Təşkilata 2010-cu ildən tanınmış hüquqşünas, Rusiya Federasiyasının Əməkdar elm xadimi və Ali Attestasiya Komissiyasının elmi katibi, professor İqor Maskeviç rəhbərlik edir. İttifaqın Azərbaycan nümayəndəliyi də səmərəli elmi fəaliyyətinə, təşəbbüskarlığına, novator tədqiqatlarına görə fərqlənir.

AZƏRTAC xəbər verir ki, çoxşaxəli hüquqi araşdırmaların, ikitərəfli və çoxtərəfli elmi-hüquqi əlaqələrin geniş auditoriyaya çatdırılmasında İttifaqın təsisçi olduğu "Kriminalistlər və Kriminoloqlar İttifaqı" beynəlxalq elmi jurnalın da xidmətləri müstəsnadır. Rübdə bir dəfə nəşr olunan, Rusiya Federasiyası Ali Attestasiya Komissiyası tərəfindən tanınan jurnalda Rusiya və postsovet məkanının elmi-hüquqi problemləri yüksək peşəkarlıqla araşdırılır, eyni zamanda, dünya təcrübəsinə istinadlar edilir. Nəşr sanballı elmi tədqiqatlara yer verməklə, habelə nəzəri problemləri dərin analitik təhlil süzgəcindən keçirməklə, təkcə fundamental tədqiqatlarla məşğul olan nüfuzlu alimlərin deyil, praktik fəaliyyətə üstünlük verən hüquqşünasların da dərin rəğbətini qazanıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının, Rusiya Prezidenti yanında Xalq Təsərrüfatı və Dövlət Xidməti Akademiyasının və O.E.Kutafin adına Moskva Dövlət Hüquq Universitetinin təşəbbüsü ilə "Kriminalistlər və Kriminoloqlar İttifaqı" jurnalının 2020-ci ilin III rübündə çapdan çıxmış nömrəsi Azərbaycan - Rusiya elmi əməkdaşlığına, eləcə də hüquq elminin aktual məsələləri üzrə tədqiqatlara həsr olunub.

Jurnala "Ön söz"ü Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov, eləcə də Rusiya Federasiyası Prezidenti yanında Xalq Təsərrüfatı və Dövlət Xidməti Akademiyasının rektoru Vladimir Mau və O.E.Kutafin Moskva Dövlət Hüquq Universitetinin rektoru Viktor Blajeyev yazıblar.

Akademik Urxan Ələkbərov "Ön söz"ündə jurnalın ərsəyə gəlməsindəki nəcib və faydalı təşəbbüslərinə, habelə iki ölkənin hüquqşünasları arasında xoş ənənələrə əsaslanan intensiv əlaqələrin, elmi-hüquqi bazanın inkişafındakı xidmətlərinə görə yuxarıda adları çəkilən Rusiya ali təhsil ocaqlarının rəhbərlərinə təşəkkürünü bildirib. Qeyd olunub ki, insan sivilizasiyası inkişafının hazırkı mərhələsi qlobal və lokal səviyyədə çoxsaylı iqtisadi, humanitar və sosial xarakterli çağırışları aktuallaşdırıb. "Bu, elmin və təcrübənin bütün sahələrinə, o cümlədən insanların iqtisadi, ekoloji və fərdi təhlükəsizliyinin təminə, onların iqtisadiyyatın müxtəlif sahələrində praktiki fəaliyyətinə və beynəlxalq siyasətin həyata keçirilməsinə aiddir. Bu nəşrdə təqdim olunan elmi tədqiqatların nəticələri çox qiymətlidir və yuxarıda sadalanan məqsədlərə xidmət edir. Eyni zamanda, Rusiya-Azərbaycan elmi əlaqələrinin inkişafına, hüquqi-praktik məsələlərin həllinə qiymətli töhfədir", - deyə vurğulayan akademik Urxan Ələkbərov ikitərəfli qarşılıqlı faydalı əlaqələrin bundan sonra da yüksək dinamizmlə inkişaf edəcəyinə ümidvar olduğunu bildirib.

"Kriminalistlər və Kriminoloqlar İttifaqı" jurnalında tanınmış azərbaycanlı hüquqşünas alimlərin dərc olunmuş məqalələri, eyni zamanda, respublikamızda həyata keçirilən demokratik ruhlu hüquqi islahatlara sanballı, elmi-konseptual yanaşmanı və analitik baxışı əks etdirir. Bu baxımdan, "Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli hüquq mənbələrinin formalaşması problemləri", "Azərbaycan Respublikası qanunvericiliyində tibb işçilərinin peşə cinayətlərinə görə məsuliyyətinin diferensasiyası", "Birləşmiş Millətlər Təşkilatının qlobal əks-terrorçuluq strategiyası və dini terrorizmə görə məhkum edilmiş şəxslərin islahı üzrə işlərin təkmilləşdirilməsi zəruriliyi", "Heydər Əliyevin kriminoloji baxışları", "Beynəlxalq yükdaşımalarda nəqliyyat təhlükəsizliyi", "İnsan hüquq və azadlıqlarının beynəlxalq-hüquqi tənzimlənməsi", "Müqəddəs kitablarda cəza" və s. sərlövhəli məqalələr elmi-analitik siqləti, faktoloji zənginliyi və mövzuya orijinal yanaşma spesifikası ilə maraq doğurur.

Nəşrdə işıq üzü görmüş bir sıra tədqiqatlar aktuallığına və praktiki əhəmiyyətinə görə seçilir. Bu sırada, ilk növbədə, Rusiya Kriminalistlər və Kriminoloqlar İttifaqının sədri, professor İqor Maskeviçin "Heydər Əliyevin kriminoloji baxışları" məqaləsini qeyd etmək lazımdır. Məqalədə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin həyat və fəaliyyətinin mühüm mərhələlərinə toxunulur, xüsusilə təhlükəsizlik orqanlarındakı qüsursuz, nümunəvi fəaliyyətinin keçmiş Azərbaycan SSR-də qanunçuluğun, hüquq qaydalarının etibarlı təminatı, cinayətkarlığın müxtəlif forma və təzahürlərinə qarşı səmərəli mübarizənin təşkili baxımından əhəmiyyəti vurğulanır.

Məqalədəki maraqlı xatırlatma da diqqəti çəlb edir: 1980-ci illərin ortalarında Ümumittifaq Hüquq İnstitutunda (indiki Moskva Dövlət Hüquq Universiteti) böhranlı vəziyyət yaranır və bu təhsil müəssisəsi bağlanmaq təhlükəsi ilə üzləşir. Həmin illərdə SSRİ Nazirlər Soveti sədrinin 1-ci müavini vəzifəsində çalışan, elm və təhsil sahələrinə rəhbərlik edən Heydər Əliyev bunun yolverilməz olduğunu qətiyyətlə əsaslandıraraq ümumittifaq əhəmiyyətli təhsil ocağının bağlanmasının qarşısını alır.

Məqalədə həmçinin qeyd edilir ki, Ulu Öndər xeyli sonralar - 1990-cı illərdə Rusiyaya rəsmi səfərlərinin birində MDHU-nu ziyarət edib, habelə Kriminalistlər və Kriminoloqlar İttifaqının fəaliyyəti ilə tanış olub, dəyərli tövsiyələrini verib.

Jurnalda diqqəti cəlb edən digər elmi tədqiqat işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının hüquq kafedrasının müdiri, professor İsaxan Vəliyevin "İnsan hüquq və azadlıqlarının qorunmasının beynəlxalq-hüquqi tənzimlənməsi" məqaləsidir. Yeri gəlmişkən qeyd edək ki, İsaxan Vəliyev Kriminalistlər və Kriminoloqlar İttifaqının Azərbaycandakı rəsmi nümayəndəliyinin rəhbəri, habelə "Kriminalistlər və Kriminoloqlar İttifaqı" jurnalının redaksiya kollegiyasının üzvüdür.

Prosessor İsaxan Vəliyevin elmi məqaləsi insan hüquqları məhfumunun faktiki olaraq bütün zaman və məkanlarda inkişafına həsr olunub. Məqalədə 1789-cu ilə - Fransa Burjua inqilabı dövrünə təsadüf edən İnsan Haqları Deklarasiyası haqqında geniş məlumat verilib, sənədin 7 və 8-ci bəndlərinin sonradan cinayət hüququ elminin əsas prinsiplərindən birinə çevrilməsi qeyd olunub. Həmin müddəalarda deyilir ki, heç kəs qanunda göstərilməndən başqa hallarda günahlandırıla və həbs oluna bilməz.

"Kriminalistlər və Kriminoloqlar İttifaqı" jurnalının nəşri və fəaliyyəti iki ölkənin tanınmış elm xadimləri arasında əlaqələrin genişləndirilməsi, faydalı elmi müzakirələrin təşkili, hüquqi-elmi yeniliklərin təbliği baxımından əhəmiyyətli hesab edilir. Beynəlxalq elmi jurnal müxtəlif sahələr üzrə tədqiqatlar aparan görkəmli hüquq alimlərini vahid məqsədlər ətrafında birləşdirən, mübahisəli hüquqi məsələlər ətrafında elmi müzakirələri təmin edən səmərəli əməkdaşlıq platformasıdır.

Ümumilikdə Rusiya və Azərbaycanın hüquq ictimaiyyətinin yekdil yanaşması, mövqeyi bundan ibarətdir ki, ölkələrimizin elmi elitaları arasında uzun illər boyu formalaşmış faydalı münasibətlər hazırkı dövrün aktual çağırışlarına adekvat olaraq daha da genişləndirilməli, ikitərəfli əlaqələrə sanballı töhfələr verməlidir.

"Könüllülər ili" başa çatır

Tarixi on yeddinci yüzilliyə gedib çıxan missiya

Azərbaycanda misli-bərabəri görünməyən fədakarlığı onlar həm ön, həm də arxa cəbhədə göstərdilər

2020-ci il müxtəlif məsələlər baxımından yaddaqalan hesab ediləcək. Əlbəttə, bura ilk növbədə Azərbaycan xalqının, Ali Baş Komandan və Müzəffər Ordumuzun Qarabağdakı Qələbəsi daxildir. Bu qələbə dünyaya səs saldı. Çünki XXI əsrin hərbi Qələbəsini qazanmış Azərbaycan xalqı öz qüdrətini dünyaya, ikili standartlı siyasət yürüdən ATƏT-in Minsk qrupuna, bir sözlə, bu münaqişənin həllində maraqlı olmayan beynəlxalq dairələrə göstərdi.

Bundan başqa bəşəriyyəti hədələyən, hələ də konkret olaraq qarşısının alınmasında aciz qalan, xalqları və dövlətləri hədəfə alan, insanları məhv edən, iqtisadiyyatı çökdürən koronavirusla (COVID-19) mübarizə də 2020-ci ilin taleyinə mənfi təsir edən amil kimi yazıldı. Bu dəhşətli, amansız infeksiyanın epidemiyadan pandemiyadək artması dünyanın başağrısına, probleminə çevrildi. Buna görə də bir sıra ölkələrdən fərqli olaraq, Azərbaycanda bu pandemiyanın cilovlanmasında dövlət və xalq birliyi, həmrəyliyi nümunəyə çevrildi. ÜST Azərbaycanın apardığı mübarizə üsulunun nümunəviliyini təqdir və təbliğ etdi.

Təbii ki, bu çətin məsələdə xalqımızın üzərinə çox böyük məsuliyyət düşdü. Ona görə də dövlət və qeyri-hökumət təşkilatları, ümumiyyətlə, cəmiyyət səfərbərliyə alındı. Bu baxımdan ölkənin gənc könüllülərinin vətənpərvərlik nümayişi bu gün də davam etməkdədir.

Xatırladaq ki, hər il 5 dekabr tarixi dünyada Beynəlxalq Könüllülər Günü kimi qeyd olunur. BMT Baş Assambleyası 1985-ci il dekabrın 17-də hər il dekabrın 5-nin "Beynəlxalq Könüllülər Günü", 2020-ci ili isə Azərbaycan Prezidenti İlham Əliyev "Könüllülər ili" elan edib.

"Vətəndaş Maarifləndirilməsi" İctimai Birliyi bununla bağlı, yəni Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının "Könüllülər ili" çərçivəsində elan etdiyi müsabiqə üzrə qalib olmuş "Könüllü inkişaf" - maarifləndirmə, mediada və sosial şəbəkələrdə geniş təşviqat kampaniyasının təşkili" adlı layihə icra edir. Layihə çərçivəsində təşkilat ekspertlərin tövsiyələri əsasında gənclərin könüllülüyə cəlb olunması, bunun cəmiyyətə, dövlətə faydaları, onların özünə qazandırdığı imkanlar barədə motivasiya xarakterli çağırış, maarifləndirici mətn hazırlayıb.

Haqlı olaraq bu gün bəzilərini belə bir sual maraqlandırır: "Gənclər könüllü olmaqla hansı faydaları verir və özü üçün nələr qazanır?" İctimai təşkilatların nümayəndələrinin qənaətincə, sualın ilk cavabı belədir: könüllülük vətəndaş cəmiyyətinin formalaşması, sosial problemlərin həllində olduqca mühüm bir hərəkatdır.

Azərbaycanda da könüllülük çox ciddi şəkildə inkişaf edir və ölkə rəhbərliyi buna birmənalı şəkildə dəstək və önəm verir. Könüllüyün tarixi XVII əsrə gedib çıxsa da, bu proses iyirminci yüzilliyin ikinci yarısından etibarən həmrəylik və sosial məsuliyyətlə birlikdə sistemləşərək dünya çapında bir hərəkata çevrilib.

Ölkəmizdə könüllülük hərəkatının yüksəlişi Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonraya başlayıb. Xatırladaq ki, Gənclər Forumunun keçirilməsi, "Gənclər Günü"nün təsis edilməsi gənclər üçün böyük bir stimul oldu.

1998-ci ildə Gənclər, İdman və Turizm Nazirliyi, BMT İnkişaf Proqramı və BMT Könüllüləri Proqramının birgə layihəsi fəaliyyətə başladı. 1998-2000-ci illərdə bu proqramın nəticəsi olaraq ölkədə könüllü komandası yaradıldı. Bu, o dövrdə dövlət başçısının siyasətinin prioritet istiqamətlərindən biri idi.

Azərbaycanın brendi olan "ASAN xidmət"in yaranmasından sonra isə həyatımızı könüllülərsiz təsəvvür etmək mümkün deyil. Könüllü kimi "ASAN xidmət" mərkəzlərində təcrübə keçmiş, püxtələşmiş 10 mindən artıq gənc bu gün müxtəlif vəzifələrdə, xidmət sahələrində bacarıqlı kadrlar kimi özlərini doğruldurlar.

"Eurovision-2012" mahnı müsabiqəsi, 2015-ci il I Avropa Oyunları, 2017-ci il IV İslam Həmrəyliyi Oyunları, "Formula -1" və digər irimiqyaslı beynəlxalq tədbirlərə on minlərlə könüllünün töhfə verdiyini də unutmaq mümkün deyil.

Pandemiya dövründə könüllülük hərəkatının nə qədər vacib olduğunu bir daha gördük: aztəminatlı ailələrə yardımların çatdırılmasında, yaşlı və fiziki məhdudiyyətli şəxslərin məişət qayğılarının qarşılanmasında onlar mühüm rol oynadılar. Bunlarla yanaşı, neçə illərdir ölkədə həyata keçirilən yaşıllaşdırma - ağacəkmə kampaniyalarında, dəniz sahillərinin, müxtəlif parkların, ərazilərin təmizlənməsində də könüllülərin daim fəallığını görürük.

Könüllülük fəaliyyəti dünyada çox geniş yayılıb. Müxtəlif qurumlar, ictimai təşkilatlar kommunikasiyanın təmin olunması, digər səbəblərdən könüllülük şəbəkələri yaradır, təmənnasız fəaliyyəti təmin edirlər. Burada ən mühüm olan amillərdən biri də gənclərin kadr kimi yetişməsi, önə çıxması üçün şərait və motivasiyadır. Gənclər könüllülük hərəkatında yüksək təcrübə - davranış, qayğı və insanlarla işləmək vərdişlərini qazanır, müxtəlif işlərə keçdikdə, sağlam kadr kimi ölkənin inkişafı üçün töhfələrini verirlər. Habelə, könüllülər müxtəlif layihələr çərçivəsində xarici ölkələrə səyahət etmək, dil öyrənmək, yeni tanışlıq imkanları da əldə edirlər.

Könüllülərimizin Qarabağın erməni vandallarından azad edilməsində göstərdiyi misilsiz şücaət hərb tariximizə qızıl hərflərlə yazıldı. Döyüşüb Qələbə qazanan - rəşadətli tarix yazan Milli Ordumuzun sıralarında düşmənə layiqli cavab verən könüllülərimizin fədakarlıqları dillər əzbəridir. 44 günlük Vətən müharibəsində canlarını fəda edən 3 minə yaxın şəhidimizin, qazilərimizin arasında könüllülərimizin də az olmaması təsadüfi deyil.

Demək, könüllülük vətənpərvərlik düşüncəsi, xeyirxahlıq, alicənablıq kimi insani keyfiyyətlərdəndir ki, bu da xalqımızın qanında, canında formalaşıb. Qarabağımızı işğaldan azad etmişik! Əlbəttə, qarşıdakı müddətdə işğaldan azad edilmiş torpaqlarımızda görüləcək iqtisadi-sosial inkişaf prosesində, bərpa işlərində, məcburi köçkünlərin doğma yurdlarına qayıtması zamanı könüllülərə daha çox ehtiyac duyulacaq. Könüllülər bu fəaliyyətdə də seçiləcəklər.

Gənclər, tələbələr, yeni məzunlar könüllü olaraq bölgələrdə daha çox fayda verəcəklər. İşğaldan azad edilən Laçın və Kəlbəcər, eləcə də digər rayonların ərazilərində on hektarlarla meşə massivinin odlara qalanması, qırılıb məhv edilməsi nəticəsində orada pozulmuş ekoloji tarazlığın bərpası, sosial problemlərin həlli istiqamətində daha çox fəaliyyətə ehtiyac duyulacaqdır.

Bəs gənclər bu kimi vətənpərvərlik fəaliyyəti ilə məşğul olacağı təqdirdə fərdi inkişafı üçün nələri qazanacaq? Mütəxəssislər bildirirlər ki, ilk növbədə onlar bacarıqlı gənc kadr kimi yetişəcəklər. Bundan başqa, vakansiyalar üçün yetişmiş, hazır kadra çevriləcək, cəmiyyətdə özlərinin şəxsi nüfuzlarını əldə edəcək, ölkənin inkişafında öz rollarını müəyyənləşdirəcək, müxtəlif strukturlarla birbaşa və bilavasitə əlaqələri formalaşacaq, idarəetmə mexanizmlərini mənimsəyəcək, həmçinin, bilik və bacarıqları ilə irəli çəkilmək şansları qazanacaqlar.

Bir sözlə, gənclərin inkişafı üçün bu gün daha geniş imkanlar yaranır. Demək, harada yaşamağından asılı olmayaraq, gənclər müvafiq qaydada könüllü olsalar, könüllülük layihələrinə qoşulsalar, cəmiyyət də qazanar, onların özləri də. Cəmiyyətə, dövlətə töhfə və fərdi uğurun ən sadə düsturu - könüllülükdür.

Məhəmməd NƏRİMANOĞLU,
"Azərbaycan"

Paytaxtda mövsümi ağacəkmələr aparılır

Mövsümlə əlaqədar Bakı şəhərinin müxtəlif ərazilərində kütləvi ağac əkilməsi və yaşıllaşdırma işləri aparılır.

Bakı Şəhər İcra Hakimiyyətinin Yaşıllaşdırma Təsərrüfatı Birliyindən verilən məlumata əsasən görülən işlər paytaxt ərazisində yaşıllıq sahələrinin genişləndirilməsi məqsədilə birlik tərəfindən hazırlanmış şəhərin yeni yaşıllıq planı əsasında görülür.

Əkin prosesində Bakı şəhərinin iqlim şəraitinə uyğunlaşdırılmış yerli ağac növləri ilə yanaşı, yeni növ enliyarpaqlı ağaclardan və xüsusi rəng çalarlarına malik olan ağcaqayın ağaclarından da istifadə olunur. Gün ərzində Birliyin əməkdaşları tərəfindən paytaxtdakı "Atatürk parkı"nda keçən əsrdə əkilmiş və hazırda ömrünü başa vurmuş qovaq ağacları çıxarılaraq yerinə Bakı şəhərinin iqliminə uyğun yeni ağaclar əkilib. Mərdəkan qəsəbəsinin mərkəzindəki Yesenin küçəsində magistral yol kənarındakı artıq ömrünü başa vurmuş ağacların yerində də yeni ağaclar əkilib. Bu ağacların suvarılması və onlara qulluq göstərilməsi məsələləri həll edilib. Həmçinin yol kənarlarındakı ağacların qurumuş budaqları budanır.

Bu mövsümün əvvəlindən etibarən təkcə Bakı Şəhər İcra Hakimiyyətinin Yaşıllaşdırma Təsərrüfatı Birliyi tərəfindən paytaxtın müxtəlif rayonlarında 30 mindən artıq yeni ağac, 50 mindən çox dekorativ gül kolları əkilib, 4 yerdə meşə tipli yaşıllıq massivi salınıb.

Bu işlərlə yanaşı, mərkəzdəki Üzeyir Hacıbəyli, 28 May, Zərifə Əliyeva, Rəşid Behbudov və s. küçələrdə movcud ağacların dibində müxtəlif rəngli dekorativ qızıl gül və sarmaşıqlar əkilir, yol kənarlarında güllərdən müxtəlif kompozisiyalar qurulur ki, bu da gələcəkdə həmin ərazilərə xüsusi yaraşıq verəcəkdir.

Təcrübəli landşaft mütəxəssisləri tərəfindən hazırlanmış xüsusi planın həyata keçirilməsi Bakı şəhərində yaşıllıq sahəsində yeni rənglərin yaranmasına səbəb olacaqdır.

Paytaxtın yaşıllıq səviyyəsinin keyfiyyətcə daha yüksək səviyyəyə çatdırılması məqsədilə şəhərin bütün rayonlarında həyata keçirilən tədbirlər paytaxtın estetik görünüşünün yaxşılaşdırılmasına və keyfiyyətcə yeni səviyyəyə çıxmasına imkan verəcəkdir.

Xəyalə MURADLI,
"Azərbaycan"

Fransanın dövlət siyasətinə ləkə vuran ermənipərəstlik

Əvvəli 1-ci səh.

O, müharibə zamanı dəfələrlə baş nazirlə əlaqə saxladığını, öz dəstəyini təklif etdiyini, hətta SMS mesajlar yazdığını da nəzərə çatdırıb. Bildirib ki, doğrudur, Paşinyan tez cavab verirdi, lakin heç vaxt öz təşəbbüsü ilə Makronla əlaqə saxlamayıb və heç nə xahiş etməyib.

Bundan başqa, Makronu xüsusilə təəccübləndirib ki, Paşinyan nə noyabrın 9-da sənəd imzalanana qədər, nə də sonra onunla əlaqə saxlayıb: "Axı mən ATƏT-in Minsk qrupunun həmsədr ölkəsinin prezidentiyəm. Nə üçün o, imzalanmadan əvvəl və ya ondan sonra məlumat verməyib, yaxud xahiş etməyib?"

Əslində Paşinyan Fransanın və Makronun Ermənistana kömək edə bilmək imkanlarından uzaq olduğunu başa düşürdü. Paşinyan Fransa Prezidentinin İlham Əliyevin qətiyyəti qarşısında çıxılmaz vəziyyətə düşdüyünü də bilib. Onu da anlayıb ki, Fransanın Prezidentinin bəyanatları, zəngləri heç nəyi həll etmir. Elə buna görə də Makronla əlaqə saxlamağa təşəbbüs göstərməyib.

Qəzetin təqdim etdiyi faktlar isə Makronun qatı ermənipərəst, islamofob, anti-Azərbaycan və anti-Türkiyə siyasətinin daşıyıcısı olduğunu sübut edən mühüm faktlardır. Makron Fransanın ATƏT-in Minsk qrupu həmsədri mandatını yalnız Ermənistanın maraqlarını müdafiə etmək çərçivəsində qavrayır. Vasitəçi olan bir ölkənin belə mövqeyi dəstəkləməsi onun bitərəfliliyini tam şübhə altına alır. Bu, illərdir Azərbaycan ictimaiyyətində Fransanın ədalətli vasitəçi olmadığı rəyinin ciddi əsaslara söykəndiyini ortaya qoyur.

Fransa problemin həllini hələ də həzm edə bilmir

Bu gün də Ermənistanın müharibədəki məğlubiyyətini həzm edə bilməyən dövlətlərdən biri Fransadır. Bunu ölkə parlamentinin qəbul etdiyi qətnamələr də təsdiq edir. Lakin məğlubiyyətin rəmzi olan, Fransanın dövlət siyasətinə ləkə vuran həmin bədnam qətnamələr Azərbaycan üçün adi kağız parçasından başqa bir şey deyil.

Belə bir qətnamənin qəbul edilməsi göstərdi ki, bu ölkə öz imperialist xislətinə uyğun olaraq Ermənistanın işğalçılıq siyasətinə açıq dəstək verir, beynəlxalq hüquqa qarşı hörmətsizlik edir.

Fransanın hakim siyasi dairələrinin Ermənistana "sevgisi" anlaşılandır. Bu ölkədə erməni lobbisi bir çox məsələləri həll edə bilir. Fransa Prezidenti də, ölkənin parlamenti də maraqlarını erməni lobbisinin, ermənipərəst dairələrin istəklərinə uyğunlaşdırıb. Bu isə Fransanın bir dövlət kimi nüfuzunu əhəmiyyətli dərəcədə zədələyib.

Fransadakı erməni lobbisinin və onların tapşırıqlarına uyğun davranan Makronu Azərbaycan və Türkiyənin güclənməsi, birlik nümayiş etdirməsi ciddi narahat edir. Məlum olduğu kimi, artıq Qərb və bəzi Avropa ölkələri dünya siyasi arenasında öz dominantlığını itirməkdədir. Bu gün ayrı-ayrı dövlətlər yerləşdikləri bölgənin və regionun nüfuz sahibinə çevrilirlər. Türkiyənin son illərdə bölgədə, ümumilikdə dünyada nüfuzunun və mövqelərinin artdığı faktdır. Bəzi ölkələrdə baş qaldıran siyasi gərginliklər, hakimiyyət dəyişiklikləri fonunda Türkiyənin nüfuz dairəsinin artması dünyada etiraf olunan reallıqdır.

Türkiyə həm də NATO-nun üzvü kimi aparıcı mövqeyə malikdir. Təbii ki, imperializm nostalgiyasını hələ unutmayan Fransa Türkiyənin nüfuz savaşındakı qalibiyyətindən rahat ola bilmir. Eyni zamanda iqtisadi böhran dövrünü yaşayan Avrozonanın qonşuluğunda bir müsəlman dövlətinin sürətli inkişafı bəzi Avropa ölkələrində, o cümlədən Fransada siyasi dairələr tərəfindən qısqanclıqla qarşılanır. Fransa Rusiya və Türkiyənin münaqişənin həlli ilə bağlı fəallığına olan qısqanclığını gizlətmir və bu ölkələrin göstərdiyi səylərin müsbət nəticəsindən ciddi narahat olduğunu addımları ilə nümayiş etdirməkdədir.

Ümumiyyətlə, Fransa Prezidenti həm müharibə günlərində, həm də ondan sonra göstərdi ki, haqsızlığın və işğalçının yanındadır. Bundan uduzan isə bütövlükdə Fransadır.

Ermənistan Prezidenti baş naziri güzəştə getməyə çağırdı

Ermənistanda cərəyan edən son proseslərin təhlili bu ölkə daxilində ictimai-siyasi müstəvidə gərginliyin yenidən artan xətt üzrə getdiyini göstərir. Bütün bunlara əsas səbəb növbədənkənar parlament seçkiləri ilə bağlı iqtidar və müxalifət düşərgəsində yaranan fikir ayrılığıdır. Baş nazir Nikol Paşinyanla, həm də müxalifət nümayəndələri ilə görüşdüyünü, bütün tərəflərin bir masa arxasında oturması üçün görüşləri davam etdirmək niyyətində olduğunu qeyd edib: "Mən ilk gün kifayət qədər sadə və aydın bir təkliflə çıxış etdim. Hökumət istefa verməlidir, çünki sən uduzmusansa, işi davam etdirmək çox çətindir. Hətta hökumət heç bir şeydə günahkar olmasa belə bu səhifəni bağlamaq və təmiz vərəqdən başlamaq lazım idi. Əgər biz bu gün "oyanmasaq", sərvətimizdən necə istifadə edəcəyimizi müəyyənləşdirməsək, 5-10 ildən sonra daha böyük məğlubiyyətə uğrayacağıq".

Beləliklə, Ermənistanın bu fikirləri ölkənin hansı acınacaqlı durumda olduğunu göstərir. Ermənistanın bu duruma düşməsinin əsas səbəbi isə onun rəhbərlərinin apardığı işğalçılıq siyasəti, Azərbaycanın məqsədyönlü siyasi kursu və möhtəşəm qələbəsidir.

Elçin CƏFƏROV,
"Azərbaycan"

“Azercell Könüllüləri” və dostları uşaqların hədiyyə arzusunu yerinə yetirdi

Qayğıya ehtiyacı olan Gəncə və Bərdə sakinlərinə, şəhid və qazi ailələrinin övladlarına bayram hədiyyələri çatdırıldı

Bu il Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü və Yeni ilin gəlişini xalqımız xüsusi sevinc və fərəh hissi ilə qeyd edəcək. Bu bayramlara sevinmək isə hər bir azərbaycanlının, xüsusilə də uşaqlarımızın haqqıdır.

Məhz buna görə, “Azercell Könüllüləri” xeyriyyə təşkilatı ölkəmiz üçün sınaq və qürur dövrü olan son aylar ərzində həm böyük qəhrəmanlıq göstərmiş, həm də müharibənin çətinlikləri ilə üzləşmiş ailələrin övladlarına xüsusi qayğı ilə yanaşaraq “Zəfər” Şəhid Ailələrinə Dəstək İctimai Birliyi və “SOS Uşaq Kəndləri Azərbaycan” Assosiasiyasının təşkilati dəstəyilə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə ürəkləri sevindirəcək bayram aksiyasına start verdi.

Xüsusi əhəmiyyət kəsb edən məqam lider mobil operatorun öz əməkdaşlarından ibarət “Azercell Könüllüləri” qrupunun sosial çağırışının bu dəfə hər kəs üçün açıq olması idi ki, bu da istər ölkə daxilində, istərsə də xaricdə yaşayan həmvətənlərimizin bu təşəbbüsə öz qatqısını verə bilməsi ilə nəticələndi. Bir aya yaxın müddət ərzində “Azercell Könüllüləri” qrupunun “Facebook” səhifəsi vasitəsilə Gəncə və Bərdə şəhərlərində erməni təxribatı nəticəsində raket zərbələrindən ziyan çəkmiş azyaşlı uşaqların, eləcə də Bakı və Gəncədə yerləşən “SOS Uşaq Kəndləri Azərbaycan” sakinlərinin siyahısı izləyicilərin ixtiyarına verildi. Hər bir uşağın Yeni ildə almaq istədiyi özəl hədiyyənin əks olunduğu siyahıdan bu təşəbbüsə qoşulmaq istəyən hər kəs istər arzu olunan hədiyyəni seçib almaqla, istərsə də səhifədə dərc edilən bank rekvizitləri vasitəsilə ianə etməklə öz dəstəyini göstərə bildi. Qeyd edək ki, “Azercell”in texniki tərəfdaşı olan “Ericsson” şirkətinin əməkdaşları da bu bayramqabağı xeyriyyə aksiyasının gerçəkləşməsində öz əhəmiyyətli qatqılarını əsirgəmədilər. Nəhayət, böyük qayğı ilə toplanılan bütün hədiyyələr 28 dekabr tarixdə “Azercell Könüllüləri” tərəfindən uşaqlara çatdırıldı.

Eyni zamanda, Vətən müharibəsində şəhid olmuş qəhrəmanlarımızın, eləcə də qazilərimizin övladlarının da hədiyyə arzuları toplanılaraq Bakı və bölgələr üzrə yüzlərlə uşağın evinə bayram sevinci gətirdi.

“Azercell Könüllüləri” və “Facebook” vasitəsilə dəstək verən dostların bu sosial aksiyası nəticəsində ümumilikdə 500-dən artıq uşaq Yeni il arzusunun gerçəkliyini yaşadı.

B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən **etender.gov.az** portalında 03.11.2020-ci il tarixdə elan edilmiş “EATS-lərdə qəza və yeni quraşdırmada istifadə üçün mal-materialların satın alınması” üzrə keçirilmiş açıq tenderin qalibi **“MAYBO” MMC** müəyyən edilmişdir.

Qalib təşkilatla 28.12.2020-ci il tarixli müvafiq satınalma müqaviləsi imzalanmışdır.

Tender komissiyası

B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 25.12.2020-ci il tarixdə açılışı olmuş “Televiziya kanallarının kabel şəbəkəsi ilə yayımlanması məqsədilə müvafiq kanalların yayım hüququnun (lisenziyanın) açıq tender üsulu ilə satın alınması” üzrə keçirilmiş tenderdə üç iddiaçının birinin bank zəmanəti günləri düzgün olmadığı və digər iki iddiaçının təklifi ehtimal qiymətdən yüksək olduğu üçün tender proseduru ləğv olunmuşdur.

Tender komissiyası

B İ L D İ R İ Ş

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) tərəfindən qeyri-neft məhsullarının və ya məhsul qruplarının ixracı üçün yeni və mövcud ixrac bazarlarına çıxış imkanlarının tədqiqi məqsədilə sənaye və qida məhsulları üzrə xarici ölkələrdə bazar araşdırmalarının aparılması məqsədilə keçirilmiş təkliflər sorğusunda iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmişdir.

Təkliflər sorğusunun nəticələri haqqında Tender komissiyasının qərarına əsasən Rusiyanın OOO “Vetra Marketinq” (“Vetra Marketing” MMC) şirkəti qalib elan edilmişdir.

Tender komissiyası

B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən 17 noyabr 2020-ci il tarixdə **www.etender.gov.az** portalında, 18 noyabr 2020-ci il tarixdə "Azərbaycan" qəzetində dərc edilmiş "Dönər biznesi ilə məşğul olan qida obyektlərinin sağlamlaşdırılması" layihəsi çərçivəsində dönər biznesi ilə məşğul olan obyektlərin sağlamlaşdırılması məqsədilə lazımi avadanlıqların və inventarların satın alınmasına dair keçirilmiş açıq tenderdə tender komissiyasının qərarı ilə "Caspian House" MMC müsabiqənin qalibi elan olunmuşdur.

Qalib gəlmiş təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

Tender komissiyası

B İ L D İ R İ Ş

“Azərbaycan” qəzetinin 03 və 04 noyabr 2020-ci il tarixli saylarında dərc edilmiş və dövlət satınalmalarının vahid internet portalında (**https://www.etender.gov.az**) Azərbaycan Respublikasının Dövlət Neft Fondu tərəfindən keçirilən elektron satınalmalarda (eTender) Kəsintisiz güc mənbələrinə (UPS) texniki xidmətin, Yanğın nasoslarına texniki xidmətin (sərfiyyat materialları daxil olmaqla) və Serverlərin soyutma qurğularına (Crack units) texniki xidmətin (təmir və sərfiyyat materialları daxil olmaqla) satın alınması üzrə “Climaservice Baku” MMC qalib olmuşdur.

Qalib şirkətlə 25 dekabr 2020-ci ildə hər LOT üzrə ayrıca müvafiq satınalma müqavilələri imzalanmışdır.

Tender komissiyası

B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən **etender.gov.az** portalında 03.11.2020-ci il tarixdə elan edilmiş “Sənaye tipli kondisionerlərin satın alınması” üzrə keçirilmiş açıq tenderin qalibi **“GSS.AZ” MMC** müəyyən edilmişdir.

Qalib təşkilatla 22.12.2020-ci il tarixli müvafiq satınalma müqaviləsi imzalanmışdır.

Tender komissiyası

B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən **etender.gov.az** portalında 03.11.2020-ci il tarixdə elan edilmiş “PVC və qofra boruların satın alınması” üzrə keçirilmiş açıq tenderin qalibi **“PoliMart” MMC** müəyyən edilmişdir.

Qalib təşkilatla 29.12.2020-ci il tarixli müvafiq satınalma müqaviləsi imzalanmışdır.

Tender komissiyası

B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən **etender.gov.az** portalında 20.10.2020-ci il tarixdə elan edilmiş “Elektrikli məişət avadanlıqlarının satın alınması” üzrə keçirilmiş açıq tenderin qalibi **“LAB TEST” QSC** müəyyən edilmişdir.

Qalib təşkilatla 23.12.2020-ci il tarixli müvafiq satınalma müqaviləsi imzalanmışdır.

Tender komissiyası

B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən **etender.gov.az** portalında 03.11.2020-ci il tarixdə elan edilmiş “Elektrik qida kabelləri və mal-materialların satın alınması” üzrə keçirilmiş açıq tenderin qalibi **“Aktif Elektrik” MMC** müəyyən edilmişdir.

Qalib təşkilatla 25.12.2020-ci il tarixli müvafiq satınalma müqaviləsi imzalanmışdır.

Tender komissiyası

B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfatəsablı Əsaslı Tikinti və Təchizat İdarəsi tərəfindən Mətbəə xərcləri xərc maddəsi üzrə satın alınması məqsədilə 27.11.2020-ci il tarixdə keçirilmiş kotirovka sorğusu prosedurunun nəticəsinə əsasən “Tuna” QSC qalib elan edilmişdir.

Həmin təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

Tender komissiyası

B İ L D İ R İ Ş

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının 14 dekabr 2020-ci il tarixdə 2021-ci il üçün internet xidmətinin satın alınması ilə bağlı keçirdiyi kotirovka sorğusu prosedurunda “Transevrokom” Məhdud Məsuliyyətli Cəmiyyəti qalib elan edilmişdir.

Qalib iddiaçı ilə 21 dekabr 2020-ci il tarixində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

Tender komissiyası

B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfatəsablı Əsaslı Tikinti və Təchizat İdarəsi tərəfindən Mətbəə xərcləri xərc maddəsi üzrə blankların satın alınması məqsədilə 21.12.2020-ci il və 25.12.2020-ci il tarixdə keçirilmiş kotirovka sorğusu prosedurlarının nəticələrinə əsasən “Bitkol+OM” MMC qalib elan edilmişdir.

Həmin təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

Tender komissiyası

ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı Ağalar Vəliyev uzun illər Azərbaycanın tikinti kompleksində müxtəlif rəhbər vəzifələrdə çalışmış respublikanın Əməkdar mühəndisi

KƏRİM BAYRAM OĞLU KƏRİMOVUN

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

“Azərbaycan” nəşriyyatının kollektivi iş yoldaşları Fərid Səfərova anası

OFELİYA XANIMIN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi nazirliyin Baş mütəxəssisi Ruslan Rəhmanova atası

BƏYBALA RƏHMANOVUN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

“Azəraqrartikinti” Açıq Səhmdar Cəmiyyətinin kollektivi uzun illər səhmdar cəmiyyətə rəhbərlik etmiş respublikanın Əməkdar mühəndisi

KƏRİM BAYRAM OĞLU KƏRİMOVUN

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

“Azneftemaş” ASC-nin prezidenti Şahmar Vəliyev SOCAR-ın Baş ofisinin İnsan Resursları Departamentinin rəisi Asif Bəkirliyə atası

ŞAHNƏZƏR BƏKİROVUN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

“Muğansutikinti” MMC-nin direktoru Vaqif Qurbanov və cəmiyyətin kollektivi Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadəyə əzizi

KAMAL MUXTARLININ

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail: secretary@azerbaijan-news.az az.reklam@mail.ru azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7368
Sifariş 3008
Qiyməti 40 qəpik